SULTAN MƏMMƏDOV

# MASONLUQ:
# DÜNYANI İDARƏ EDƏN QÜVVƏ

Qanun – 2007

Az2

Redaktor:
**N.Hacıoğlu**

**Məmmədov S. Masonluq: Dünyanı idarə edən qüvvə.**
Bakı, Qanun, 2007, 252 səh. (24 səhifə şəkil)

Tanınmış ictimai xadim, Azərbaycan Respublikası Milli Məclisinin sabiq üzvü Sultan Məmmədovun bu kitabında gizli fəaliyyət göstərən beynəlxalq mason təşkilatının tarixindən, mahiyyətindən, məqsəd və quruluşundan, bugünkü vəziyyətindən söhbət açılır. Kitab geniş oxucu üçün nəzərdə tutulmuşdur.

Q $\frac{1500005104}{\text{AB 022051}}$ 045-07

Az2
© Qanun – 2007
© S.Məmmədov

## ÖN SÖZ YERİNƏ

# ZİYALI NARAHATLIĞINDAN DOĞULAN KİTAB

İnsanlar tarix boyu dünyanı, baş verən ictimai, siyasi və mədəni prosesləri idarə edən gizli qüvvələr haqqında məlumat almağa böyük maraq göstəriblər. Neçə yüz illər ərzində üzə şıxan mistik ədəbiyyat nümunələri bu sonsuz insan marağının bariz nümunəsidir. İlk genişmiqyaslı gizli təşkilatların yaranmasını pifaqorçuluq, Solomin (Süleyman) peyğəmbərlə bağlasalar da, XVIII yüzilin əvvəllərində masonluğun meydana çıxması bu marağın daha da artmasına səbəb oldu. Təxminən iki yüz ərzində beynəlxalq mason təşkilatlarının fəaliyyəti ilə bağlı yüzlərlə kitab yazılmış, dövri mətbuatda saysız-hesabsız məqalələr çap olunmuşdur.

Tanınmış ictimai xadim, ziyalı, sabiq millət vəkili, Milli Məclisin komissiya sədri olmuş köhnə dostum Sultan Məmmədovun "Masonluq: Dünyanı idarə

edən gizli qüvvə" kitabı da məhz bu marağın nəticəsi kimi meydana çıxmışdır. Artıq açıq fəaliyyətə keçmiş, müəllifin təbirincə desək, "bədəninin yarısı yerin altında, yarısı aşkarda olan Sfinksi xatırladan" bu beynəlxalq gizli təşkilat haqqında ABŞ, İngiltərə, Fransa, Türkiyə, Rusiyada... çoxsaylı araşdırmalar aparılmış, kitablar nəşr edilmişdir. S.Melqunovun "Masonluğun tarixi", L.Zamayskinin "Mason məbədinin arxasında", N.Berberovanın "Adamlar və lojalar", V.Başilovun "Müasir masonluq", Harun Yəhyanın "Yəhudilik və masonluq", T.Marrsın "İllüminati: İntriqa çəmbəri" kimi kitablar geniş yayılmış, masonluğun tarixi, quruluşu, fəaliyyət prinsipi, dünyada gedən ictimai-siyasi və mədəni proseslərə təsiri haqqında faktlar və sənədlər əsasında araşdırmaları oxuculara çatdırmışdır.

Sultan Məmmədov bu kitabında oxuduğu araşdırmalara, dövri mətbuatda və internet saytlarında yer alan materiallara əsaslanaraq, Azərbaycan oxucusunun bu tarixi fenomenə marağını təmin etməyi qarşısına məqsəd qoymuşdur. Kitabda mason təşkilatının yaranmasından əvvəl mövcud olan gizli birliklər haqqında məlumat verilir, masonluğun tarixi, ayrı-ayrı ölkələrdə təşəkkül tapması, hiss olunmadan cəmiyyətin həyatına, şüuruna və mənəviyyatına təsir göstərməsi, bütövlükdə masonluğun mahiyyəti, ayrı-ayrı lojaların quruluşu və fəaliyyəti, görkəmli

şəxsiyyətlərin masonluqla əlaqəsi haqqında söhbət açılır. Corc Vaşinqton, Henri Kissincer, Zbiqnev Bzejinski kimi siyasi fiqurların əslində, mason ideyalarının daşıyıcıları olması oxucular üçün maraqlıdır.

Əlbəttə, kitabın ən diqqətçəkən bölümləri Rusiya, Türkiyə və Azərbaycanla bağlıdır. Çünki ikiillik Azərbaycan Demokratik Cümhuriyyəti dövrünü nəzərə almasaq, Azərbaycanın təxminən 200 illik tarixi Rusiya ilə bağlıdır və şübhəsiz ki, Rusiya imperiyasında, eləcə də Sovetlər Birliyində baş verən hadisələr məmləkətimizə təsir göstərməyə bilməzdi. Bu gün Rusiyada masonluq və mason təşkilatlarının fəaliyyəti haqqında açıq-aşkar söhbət açırlar. Türkiyə tarixən Azərbaycanla sıx bağlı olduğundan, qardaş dövlət tərəfindən də eyni təsirə məruz qalmışıq. Hətta bu gün Türkiyədə masonluq haqqında bilgilər təkcə araşdırmalarda, qəzet və dərgilərdə çap olunmaqla qalmır, televiziya ekranlarına, filmlərə də ayaq açır. Ötən il nümayiş etdirilən "Qurdlar vadisi" teleserialındakı mason ritualı ilə bağlı epizod buna sübutdur.

Azərbaycana gəldikdə isə, hələ yalnız xarici mason lojalarının təsir kanalları haqqında danışmaq daha düzgündür və Sultan Məmmədov da bu yolu seçmişdir. Əlbəttə, geniş, gözəgörünməz, qüdrətli şəbəkəyə malik olan beynəlxalq masonluğun müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni

həyatına təsir göstərməyə çalışmaması inandırıcı olmazdı. Müəllif bu təsir haqqında öz mülahizələrini və müşahidələrini qələmə alır, həyatımızda xarici mason lojalarının izlərini aşkara çıxarmağa çalışır.

Sultan Məmmədovun oxuculara təqdim olunan bu kitabı eyni zamanda dünyanın, bəşəriyyətin və məmləkətimizin taleyindən bir ziyalı kimi, keçirdiyi narahatlıq hissinin nəticəsidir. O, əlbəttə ki, kifayət qədər həyat təcrübəsinə malik olan, qlobal siyasət məsələləri ilə maraqlanan bir insan olduğundan, bəşər övladının, eləcə də xalqımızın gələcəyi haqqında düşünməyə bilməz. Mən onun bu çox maraqlı və oxucunu heyrətə salacaq faktlarla zəngin kitabını məhz bu cür qiymətləndirirəm. Şübhə etmirəm ki, hörmətli oxucular da müəllifin bu narahatlığını bölüşəcək, kitabını layiqincə dəyərləndirəcəklər.

**Sabir Rüstəmxanlı,**
**xalq şairi, millət vəkili.**

# MASONLUĞUN TARİXİ VƏ MAHİYYƏTİ

*"Bütün dövrlərdə, başqa vaxta nisbətən dünyanı indi daha çox gizli təşkilatlar idarə edir. Siyasətdə təsadüfən heç nə baş vermir. Əgər nəsə baş verirsə, deməli, belə nəzərdə tutulub".*

**Franklin Delano Ruzvelt,**
**sabiq ABŞ prezidenti**

Masonluq ən böyük və məxfi fəaliyyət göstərən, özünün əmlakı, çox milyardlıq büdcəsi olan beynəlxalq təşkilatdır.

Böyük Britaniya Ensiklopediyası masonluğa belə tərif verir: **"Masonluq - nəhəng ümumdünya təşkilatı olan qardaşlıq cəmiyyətinin nəzəriyyə və praktikasıdır".** Masonluq bütün dövrlərdə cəmiyyəti və dünyanı dəyişmək və bütün dünyanı bir respublika kimi, bir qanun, bir hakimiyyətlə idarə etmək uğrunda səbrlə, təmkinlə və məqsədyönlü iş aparan beynəlxalq, gizli təşkilatdır. Masonluq bədəninin yarısı yerin altında, yarısı çöldə olan Sfinksi xatırladır. Ona görə, masonluğun ma-

hiyyətini axıradək dərk etmək mümkün deyil. Heç masonların özləri də masonluğun mahiyyətini axıradək dərk edə bilmirlər.

Son illərdə masonluq haqqında mətbuatda, televiziyada, internetdə və s. kütləvi informasiya vasitələrində çoxlu materiallar dərc edilir. İndiyədək masonluqla bağlı əlli mindən çox kitab yazılmasına baxmayaraq, onun mahiyyəti və cəmiyyətdəki rolu tam aydınlaşdırılmayıb. Masonların əməli o qədər məxfidir və elə böyük təsir gücünə malikdir ki, onu aysberqlə (suda üzən buz) müqayisə edirlər. Suyun üstündə olan hissəsi görünür, bəllidir, suyun altında olan hissəsi isə görünmür, qaranlıqdır. Aysberqin suyun altında olan hissəsi suyun üstündə olan hissəsindən qat-qat böyükdür.



Arxiv sənədlərindən bəllidir ki, müasir masonluq XVIII əsrin əvvəllərində İngiltərə və Avropada təşəkkül tapıb və qısa müddət ərzində dünyanın bir çox ölkələrinə yayılıb. Böyük Britaniya Ensiklopediyasının məlumatına əsasən hazırda Avropada 4 milyondan, Amerikada 5 milyondan çox mason fəaliyyət göstərir. Həmçinin, bəllidir ki, onlar Fransa, İngiltərə, Avstriya, Amerika və s. dövlətlərin idarə olunmasında fəal iştirak edirlər. Parisin, Romanın, Milanın və s. şəhərlərin merləri mason təşkilatında fəaliyyət göstərmişlər. O da bəllidir ki, mason mərkəzi-Ümumdünya İsrail ittifaqı Parisdə yerləşir. Bu mərkəzdən bütün sərəncam və göstərişlər dünyanın hər yerinə yayılmış mason lojalarına göndərilir.

Beynəlxalq masonluq qərb ölkələrinin xüsusi xidmət orqanları ilə birlikdə keçən əsrin 70-80-ci illərində apardıqları məqsədyönlü siyasət nəticəsində Rusiyada ictimai-siyasi quruluşu dəyişdirib, siyasi hakimiyyəti öz əllərinə ala bildilər. Bu işdə onların uğurlu fəaliyyəti SSRİ-də hökumət və partiya rəhbərliyinin masonluğa cəlb edilməsi, SSRİ-də 50 mindən çox təsir agentlərinin hazırlanması, masonluğun bərpa edilməsi, Rusiya təbii sərvətlərinin talanması ilə nəticələndi. Rusiyada siyasi rəhbərliyin masonluğa cəlb edilməsi xarici qüvvələrin maraqlarına üstünlük verirdi. Bolqarıstan Kommunist Partiyasının rəhbəri G.Dimitrov vaxtilə demişdir: "**İctimaiyyət tez-tez təəccüblənir ki, məşhur dövlət xadimləri tələsik və əsasız olaraq, öz mövqelərini dəyişirlər, sözdə bir şey deyir, əməldə tamamilə əksinə hərəkət edirlər. Zahiri müşahidəçilər üçün bütün bunlar məntiqsiz və anlaşılmaz görünür. Mason təşkilatlarının işi ilə tanış olanlara hər şey aydındır. Adları çəkilən dövlət xadimləri mason təşkilatının üzvü olduqları üçün müvafiq lojaların göstərişlərini, tövsiyə və tapşırıqlarını icra edirlər. Hətta belə göstərişlər rəhbərlik etdikləri ölkənin və xalqın zərərinə olsa belə yerinə yetirməyə borcludurlar. Belə ki, üzv olduqları lojanın intizamına danışıqsız əməl etməlidirlər**". G.Dimitrovun bu sözlərinə keçən əsrin 90-cı illərində Rusiyada baş verən hadisələr əyani sübutdur. SSRİ rəhbərləri M.Qorbaçov, A.Yaklovlev, E.Şevardnadze, Y.Primakov, V.Medvedev, B.Yeltsin və on-

larla yüksək rütbəli şəxslərin rəhbəri olduqları dövlətin maraqlarını xarici qüvvələrə satmaları şübhəsiz ki, masonluqla bağlıdır.

Masonluğun tarixi haqqında müxtəlif məlumatlar mövcuddur. Tarixi mənbələrdən məlumdur ki, mason ittifaqı XVIII əsrin əvvəllərində azad bənna və ya tikinti birliyindən yaranıb. Daha doğrusu, masonluğun tarixi kökü daha erkən dövrlərə gedib çıxır. Masonluğun tarixi ətrafında çoxlu əfsanə, mif və uydurma rəvayətlər möv-cuddur. Ən çox hallarda masonluğun tarixini lap qədim dövrlə əlaqələndirməyə cəhd göstərilir. Bir çox mason tədqiqatçıları - bəziləri həqiqətə uyğun, bəziləri fərziyyə və təhriflərə yol verməklə, masonluğu ən qədim cəmiyyətlərlə əlaqələndirməyə cəhd göstərirlər. Hətta masonluğun tarixini Həzrəti-Adəmə aparıb çıxaranlar da olub.

Bir çoxları masonluğun yaranmasını çar Solomon (Süleyman peyğəmbər) məbədinin tikintisi ilə əlaqələndirirlər. Bir çox tədqiqatçılar masonluğun kökünü pifaqorçuluqda və xristianlıqda axtarırlar. Lakin ən çox həqiqətə uyğun gələn fərziyyə çar Solomonun məbəd tikintisi və tikintiyə rəhbərlik edən Misir kahinlərinin şagirdi Adoniram rəvayətidir.

Yəqin ki, **mason** sözünün mənası oxucular üçün maraqlıdır. **Mason - bənna (daşyonan usta) deməkdir.** Rəvayətə görə, onlar öz başlanğıcını çar Solomonun məbədinin tikintisindən götürüblər. Bizə gəlib çatanlara inansaq, çar Solomon elə

bir əzəmətli məbəd tikdirmək qərarına gəlir ki, həmin məbəd ilahi bilikləri və həqiqəti dərk etmək istəyənlər üçün məbədgah olsun, həm də ilahi bilikləri, həqiqəti nəsildən-nəsilə ötürə bilsin.

Məbədin tikintisinə müxtəlif xalqlara mənsub olan 130 min işçi cəlb olunur. Məbəd tikintisi işinə Misir müdriklərinin şagirdi Adoniram rəhbərlik edir. Solomon kimi, ilahi bilikləri mənimsəmiş Adoniram işçiləri üç qrupa - şagird, usta köməkçisi və usta dərəcələrinə bölür və hər dərəcəyə uyğun olaraq fərqləndirici nişan, söz və qayda müəyyənləşdirir. Adoniram onları dərəcələri üzrə seçilmiş müdriklərin işi ilə və xüsusi simvollarla tanış və həmin dərəcələrə uyğun əmək haqqı təyin edir. Ona görə, qalan işçilərin bir qrupu hiylə, güc ilə Adoniramdan usta dərəcəsi almağa cəhd göstərirlər.

Bir dəfə işdən sonra məbəd boş olan vaxt Adoniram görülən işə baxış keçirəndə cənub qapıdan ona sui-qəsdçi yaxınlaşır və usta dərəcəsi tələb edir. Usta dərəcəsi ala bilməyən sui-qəsdçi ona çəkiclə vurur. Adoniram şimal qapıya doğru gedir, şimal qapıda digər sui-qəsdçi ona kirkə ilə zərbə endirir. Adoniram ölümünü hiss edib, ilahi başlanğıcı və sirri ifadə edən, üzərində "İqovi" sözü olan qızıl pərgarı quyuya atır. Onda Şərq qapısından üçüncü sui-qəsdçi Adonirama hücuma keçib, onu ölümcül yaralayır. Adoniramın cəsədini gizlətmək üçün onu torpağa basdırıb, yerini zeytun budağı ilə nişanlayırlar. Solomon Adoniramın ölüm xəbərini eşidəndə çox qəmgin olur və tap-

şırır ki, onu tapsınlar. Axtarışdan sonra cəsəd tapılır. Qəbrin üstündə basdırılmış zeytun budağı göyərmişdi. Günahsız olduqlarını sübut etmək üçün işçilər ağ əlcək geyirlər. Bu rəvayətdə istifadə olunan sözlər-çəkic, pərgar, əlcək, önlük, zeytun çələngi, şagird, usta köməkçisi və s. müasir masonluğun önəmli simvollarıdır.

Tarixi mənbəyə əsasən həqiqətdə ilk mason lojası 1215-ci ildə Şotlandiyanın Maqdeburq şəhərində yaradılıb. İlk mason ordeni isə 1376-cı ildə Londonda meydana gəlib. Ona görə də İngiltərə masonluğun beşiyi adlandırılır. Müasir masonluq isə öz əsasını 1717-ci ildə İngiltərədə fəaliyyət göstərən dörd lojanın birləşib, İngiltərə "Böyük Şərq" lojasının yaradılmasından götürüb. 1717-ci ildə yaradılmış "Böyük Şərq" lojasının təsiri altında vaxt axarı boyu Avropada, şimali və Cənubi Amerikada, digər ölkələrdə yeni-yeni mason lojaları yaradılıb. Ümumdünya ensiklopediyasının məlumatına əsasən dünya üzrə masonların sayı 30 milyona qədərdir. Təkcə Amerikada 5 milyona qədər mason fəaliyyət göstərir. 1717-ci ildə Londonda 4 lojanın birləşib "Böyük Şərq" lojası yaradandan sonra ümumi konstitusiyaya ehtiyac yarandı. İlk olaraq 1722-ci ildə Şotland keşişi Ceyms Anderson mason konstitusiyasını yazdı. Ümumi mason konstitusiyası bütün mason lojalarının vahid halda idarə edilməsinə imkan yaratdı. Konstitusiyada aşağıdakı bölmələr öz əksini tapır: Allah və din, hakimiyyət haqqında, lojalar haqqında, us-

ta, usta köməkçisi və şagird haqqında, lojada və lojadankənar əxlaq haqqında, kənar adamlar arasında masonluq davranışı haqqında, masonun evdə və qonşularla davranışı haqqında və s. Həmin konstitusiya 1734-cü ildə böyük usta **Benjamin Franklın** tərəfindən tipoqrafik üsulla Amerikada nəşr edilir. Konstitusiyada deyilir: "**Biz bənnalar universal dinə mənsubuq, biz bütün millətlərə, dinlərə, vətənlərə mənsubuq, hər hansı siyasətin əleyhinəyik". Daha sonra deyilir: "Mason sülhsevərdir və qanunu hakimiyyətə tabedir. Mason heç vaxt öz xalqının və vətəninin əmin-amanlığı və firavanlığı əleyhinə sui-qəsddə iştirak etməz".**

1782-ci ildə Vilhelmsbadda hersoq Ferdinand Braunşveyqin rəhbərliyi altında qəbul edilmiş konstitusiya Rusiya masonluğunun tarixində əsas rol oynayıb. Bu konstitusiya "**Azad bənnalar nizamnaməsi**" də adlanır. Konstitusiya aşağıdakı sahələri əhatə edir: Allah və din, ruhun ölməzliyi, hakimiyyətə və vətənə münasibət, insanlara münasibət, masonun özünün mənəvi tərbiyəsi, mason qardaşlara münasibət, orden qarşısında masonun vəzifəsi və s. Bu konstitusiya 1787-ci ildə Vilhelmsbadda Ümumi Konvent Şurasında təsdiq edildikdən sonra Rusiyaya mason aktları, mərasim və onların izahı, mənəvi tövsiyələr ayaq açır və Rusiya qismən müstəqil mason əyalətinə çevrilir. Buna baxmayaraq, Rusiyada masonluq həmişə Avropa mason lojalarının filialı kimi fəaliyyət göstərib, onların təlimat və göstərişlərini yerinə

yetirib. Hətta qısa müddətdə müstəqil fəaliyyət göstərdikləri zaman rus masonlarının daxili həyatına xarici mərkəzdən nəzarət edilirdi. Bütün bunları sübut etmək üçün rus masonlarının xarici mason rəhbərləri ilə məktublaşmasına nəzər yetirmək kifayətdir. Xaricdən rus masonlarına məlumatlar, dövri məktublar, göstərişlər mütəmadi daxil olurdu. Xarici mason rəhbərlərinin hörməti rus masonları üçün qanuni hökumətdən üstün idi.

Masonluq haqqında zəngin tarixi mənbələrdən biri də Polşa tarixçisi **Lüdviq Xasın "Orta Şərqi Avropada masonluq"** adlı üç cildlik monoqrafiyasıdır. Əsər XVIII əsrin əvvəlindən ikinci dünya müharibəsinədək olan dövrü əhatə edir. Monoqrafiyada masonluq haqqında ətraflı məlumat verilməklə yanaşı, onun fəaliyyətinin ziddiyyətli tərəfi də açıqlanır. Ümumiyyətlə, masonluğun tarixini, fəaliyyətini araşdıran tarixçi və tədqiqatçılar masonluğun mahiyyətini insanlıq üçün zərərli sayır, sübut edirlər ki, tarix boyu baş verən bütün qarşıdurmalarda, islahat və inqilablarda onların əli var.

Amerikanın Mərkəzi Kəşfiyyat İdarəsinin keçmiş əməkdaşı **L.Qonsales-Mata** 1979-cu ildə yazdığı **"Dünyanın həqiqi hakimləri"** kitabında dünyanın gizli hakimiyyətinə daxil olan masonların siyahısını dərc edib. Siyahıda əsas yerləri Amerikanın yüksək rütbəli masonları tutur. Tərtib edilmiş siyahıda MKİ-nın 1953-1961-ci illərdə direktoru olmuş A.-Dalles, Cozef Retinger - Bilderberq klubunun baş katibi, Uilyam Donovan - MKİ-nin direktoru, Man-

lio Brozyo - NATO-nun baş katibi, Liço Celli - İtaliya P-2 lojasının rəhbəri, Jak Attali - Avropa yenidənqurma və inkişaf bankının prezidenti, Amerikanın prezidentləri - H.Trumen, R.Nikson, C.Ford, R.Reyqan, C.Buş, D.Rokfeller, Üçtərəfli Komissiyanın rəhbəri, H.Kissincer - Amerikanın keçmiş dövlət katibi, "Bnay-Brit" lojasının rəhbəri və s. tuturlar. Bu siyahını Amerika, Avropa və s. ölkələrin rəhbər kadrları, siyasətçilər, bankirlər, yüksək rütbəli hərbçilər hesabına daha da uzatmaq olar. Onu da qeyd etmək lazımdır ki, Amerikanın əsasını qoyanlar, müstəqillik aktına imza atanlar Amerikada masonluğun əsasın qoyublar. Bunlardan C.Vaşinqton haqqında aşağıda ayrıca məlumat verilib.

Bu gün çoxları fikirləşir ki, masonluq tarixdə qalıb, fəaliyyəti hiss olunmur və rəmzi xarakter daşıyır. Bu ideyanı masonlar özləri yayırdılar ki, cəmiyyəti çaşdırsınlar və yanlış yola yönəltsinlər. Masonluq yüz illərlə fəaliyyət göstərib, bu gün də göstərir. Lakin əvvəlki masonluqdan fərqli olaraq, siyasiləşib, taktika və iş metodu dəyişilib. Müasir masonluq qədim masonluqdan da böyük təsir gücünə malikdir və dünyanı idarə etmək istiqamətində məqsədyönlü iş aparır.

Son illərdə masonluğun ən böyük nailiyyətləri SSRİ-nin və sosializm düşərgəsinin dağıdılması, qloballaşmanın geniş vüsət almasıdır. Bu gün mason sözü cəmiyyətdə niyə xof yaradır və adamlarda mənfi reaksiya əmələ gətirir? Çoxlarında masonluğun nəhəng ümumdünya gizli təşkilat kimi, dün-

ya hökmranlığına can atması barədə fikirlər narahatlıq doğurur. Masonlar özləri onların haqqında deyilən tənqidə haqq qazandırmağa tələsmirlər. Onların ideoloqları qeyd edirlər ki, küçədən gələn adam **(profan-qeyri-mason)** mason həqiqətlərini dərk edə bilməz. Mason həqiqətlərini ancaq seçilmiş bənnalar, ustalar dərk edə bilərlər. Əslində, yüksək mason həqiqətlərini və masonluğun mahiyyətini heç adi masonlar, bənnalar, usta köməkçiləri və usta masonlar özləri heç yaxşı dərk edə bilmirlər. Ona görə ki, aşağıdərəcəli masonların əksəriyyəti ömürləri boyu üç dərəcədən artıq yüksələ bilmirlər.

Masonluq piramidasında ən yüksəkdərəcəli masonluqdan da yuxarı idarəedici və istiqamətləndirici qruplar mövcuddur. Həmin qruplar beynəlmiləl və beynəlxalq mahiyyətə malikdirlər. Bu qruplar gözə görünməyən, ən məxfi fəaliyyət göstərirlər və ən yüksəkdərəcəli beynəlxalq masonluğu idarə edirlər. Eyni qayda ilə yüksəkdərəcəli masonlar özlərindən aşağıdərəcəli masonları və aşağıdərəcəli masonlar da öz növbəsində profanları (xalq kütləsini) idarə edirlər. Gözə görünməyən və məxfi fəaliiyət göstərən Ali mason qrupları yuxarıdərəcəli mason lojalarının işində iştirak edir və onların işinə nəzarət edirlər. Apardıqları müşahidə nəticəsində yuxarıdərəcəli masonlardan nümunəvi olanları yuxarı kapitula seçirlər.

Xüsusi müşahidə altında təlim keçənlərdən inamı doğrultmayanları ya kapitulda və ya lojalarda saxlayıb, inamı doğruldanları, bütün tələblərə ca-

vab verənləri gözə görünməyən və ən məxfi Ali masonluğa cəlb edirlər. Gözə görünməyən Ali masonluq "Şotland" və "Böyük Şərq" lojalarının yüksəkdərəcəli masonluğun işinə rəhbərlik edir, onları vahid beynəlxalq mason təşkilatlarında birləşdirir.

Dünya masonluğunun başında **beynəlxalq masonluğun Ali Patriarxı** durur.

Ali Patriarxın tabeliyində ali icra orqanı, inzibati, maliyyə və təbliğat üzrə köməkçiləri mövcuddur. Bunlardan başqa Ali Patriarxın nəzdində Baş mərkəzi idarələr fəaliyyət göstərir.

Yer kürəsinin səthi 77 əyalətə bölünərək, baş mərkəzi idarələrə tabe edilib.

Baş mərkəzi idarələr Vaşinqtonda, Neapolda və Kəlküttədə yerləşirlər.

Ümumiyyətlə, müasir masonluq **üç mərhələyə** bölünür.

1.- Göy masonluq (1-3 dərəcə)

2.- Yüksəkdərəcəli qırmızı masonluq (4-18 dərəcə və qara masonluq 19-33 dərəcə)

3.- Gözə görünməyən, ən məxfi Ali beynəlxalq masonluq.

Göy masonluq hamıya məlumdur. Əksər lojalar açıq fəaliyyət göstərir. Göy masonluğa qəbula ciddi məhdudiyyət qoyulmur. Göy masonluq yüksəkdərəcəli masonluq üçün baza rolunu oynayır. Lakin göy masonluğun son məqsədi maxfi saxlanılır. Bu dərəcəli masonlar özləri bilmirlər son məqsəd nədən ibarətdir. Elə ona görə də kor-koranə yuxarı masonluğa xidmət edirlər.

XVIII əsrin ortalarında masonluğa yardımçı vasitə kimi, qadın mason lojalarının yaradılmasına zəruri ehtiyac yaranır. Almaniyada masonluğun dirçəlməsində əsas rol oynayan Veyshaupt və başqaları tərəfindən yaradılan mason lojaları fəaliyyət göstərməyə başlayır.

Ilk qadın lojaları 1730-cu ildə Fransada yaradılıb. 1774-cü simvolik masonluq tərəfindən qəbul və təsdiq edilib. Qadın mason lojaları digər lojalar kimi, masonların yuxarı dərəcələri tərəfindən idarə edilir və bu idarəetmə məxfi saxlanılır.

Müasir dövrdə mason "bacılar" masonluq fəaliyyət göstərən ölkələrdə mason qardaşlarla paralel işləyirlər.

Ilk dəfə qadın masonluğunun yaradılması ideyasını Veyshaupt (mason adı Herkulesdir) irəli sürüb. Veyshaupt yazır: "**Qadınlar məktəbi ən ciddi münasibət tələb edir. Qadınlar kişilərə böyük təsir gücünə malikdirlər. Qadınları dəyişdirmədən kişiləri, cəmiyyəti dəyişdirmək mümkün deyil. Bunu necə etmək olar? Məgər analar qızlarına imkan verərlər ki, onlar bu işlə məşğul olsunlar**". Ona görə, Veyshaupt təklif edir ki, yaxın qohum qadınlardan, mason arvadlarından istifadə edib, qadın mason lojaları yaradılsın.

Başqa bir məktubda yazır: "**Qadın ordeninə iki qrup tətbiq ediləcək. Onların hər biri ayrı-ayrı cəmiyyət olacaq. Hərənin öz sirri, məxfi ritualları olacaq. Birinci cəmiyyət idarəetmə və xeyirxah işlər üçün, yarayan qadınlardan ikinci cəmiyyət**

**gözəl və yüngültəbiət qadınlardan ibarət olacaq. Hər iki qadın qrupunu məxfi şəkildə kişi masonlar idarə edəcəklər".**

Birinci qrupu yaxşı, maraqlı kitab oxumaqla, ikinci qrupu əyləndirib, ehtirası təmin etməklə təkmilləşdirmək və tərbiyələndirmək nəzərdə tutulur.

Yaxşı, maraqlı kitablara masonlardan Monteskyö, Didro, Russo, Volter, Mirabo və başqalarının əsərləri aiddir.

Qadın mason lojalarını təşkil etmək üçün Malheym şəhərindən 95 qadın və qızların siyahısı və onların xarakteristikası hazırlanıb, Veyshaupta təqdim edilib.

Qadınların mason lojalarına qəbul zamanı içdikləri andın mətni təxminən belədir: **"Kainatın Ulu Memarı"nın qarçısında (o, həm də Allahdır) və bu bıyük məclis qarşısında and içirəm və söz verirəm ki, mənə etibar edilən bütün sirlərini qoruyum. Əgər andımı pozaramsa, lənətə gəlim. Bu işdə ilahi qüvvə qəlbimə girsin və mənə kömək etsin. Kainatın Ulu Memarı mənə kömək olsun. Amin".**

"Dirçəliş" mason lojasının sədri Foveti yazır: **"Biz dini məhv etmək üçün qadınları öz tərəfimizə çəkməliyik. Kilsənin ürəyinə sancmaq üçün ən yaxşı xəncər pozqunluqdur. Masonluqda fahişəlik əl-ələ verib, irəli gedir."**

Veyshaupt və Ditrufun proyektinə əsasən mason qadınları iki rituala bölmək nəzərdə tutulur.

Birinci rituala cəlb edilən qadınlar savadlı və abırlı olur, siyasi fəaliyyət və siyasi intriqalar üçün

nəzərdə tutulur. Bu ritual **"Palladik"** adlanır. Ikinci rituala cəlb olunan qadınlar gözəl və yüngültəbiət olmalıdırlar. Bu qrup qadınlar əylənmək və ehtirası təmin etmək üçün nəzərdə tutulur. Bu ritual **"seçilmişlər"** adlanır.

Qadın mason lojalarında qəbul mərasimləri kişi mason lojalarından az fərqlənir. Qadın mason lojalarında "şagirdə", "fəqirə", "ustadə", "mükəmməl ustadə", "gözəl şotlandka" və s. dərəcələr tətbiq edilir.

Bütün bunlara baxmayaraq, müntəzəm mason ordeninə qadınları qəbul etmirlər. Qadın mason lojaları dünya mason zəncirində təmsil ounmur. Ancaq simvolik masonluq tərəfindən qəbul edilir.

Mason qanunlarına görə, aşağıdərəcəli mason yuxarıdərəcəli masonu tanımır, yuxarıdərəcəli masonların mərasimlərində iştirak etmir, yuxarıdan verilən göstərişləri icra edir. Ona görə də mason qardaşlarının əksəriyyəti masonluğun yüksək və əsl həqiqətlərindən xəbərsizdirlər və kənarda qalırlar. **E.Skobelev "Şahid" romanında** yazır: **"Palma ağacının yarpaqları onun kökləri haqqında nə qədər bilirlərsə, aşağıdərəcəli masonlar masonluğun yüksək və əsl həqiqətləri barədə o qədər bilirlər".** E.Skoblevin "Şahid" romanı Rusiyada III Pyotrun devrilməsində masonların roluna həsr olunur. Mason ideoloqları əməllərinə don geydirməyi və müsbət rəy yratmağı bacarırlar. "Azadlıq, bərabərlik, qardaşlıq" şuarının masonlara məxsus olduğunu və Fransa inqilab bayrağında əks olun-

duğunu iddia edirlər. Məgər qardaşlıq şuarı altında dünyanın dahi şəxsiyyətləri Volter, Didro, Bayron, Motsart, Harribaldi, Karamzin, Puşkin, Qriboyedov və s. mason təşkilatının üzvü deyildilər? Dünyanın dahi şəxsiyyətləri, Amerikanın, Avropa və digər ölkələrin siyasi və dövlət xadimləri mason təşkilatlarına daxil olurlar. Bir qismi dünyanın siyasi işlərindən kənarda qalmamaq üçün, bir qismi maraq xatirinə bu yolu seçirlər. Lakin masonluğun məqsəd və mahiyyətini başa düşüb, masonluğu tərk edənlər də az deyil. Onlardan Karamzini, Puşkini, Qriboyedovu, C.Əfqanini göstərmək olar. Karamzin biləndə ki, yuxarı elita masonları Rusiyaya həqarətlə baxırlar, ruslari mədəni xalqlara aid etmirlər, peşman olub, masonluqdan çıxır.

Əgər mason təşkilatının şuarı azadlıq, bərabərlik, qardaşlıqdırsa və məqsədi humanist xarakter daşıyırsa, onda niyə fəaliyyətinin əsas hissəsini məxfi prinsip əsasında aparırlar? Bir çox tədqiqatçıların qənaətinə görə, masonluğun gücü onun məxfiliyindədir. Məxfilik aradan götürülsə, onda masonluq iflasa uğrayar.

Mason ideoloqları fəaliyyətin məxfilik prinsipi əsasında aparılmasına haqq qazandırmaq üçün deyirlər: "**Belə çıxmasın ki, biz masonluğun pis cəhətlərini cəmiyyətdən gizlətmək üçün məxfilik prinsipinə əməl edirik. Masonlar sözdə qarşıda tam alicənab məqsəd qoyurlar. Güya onların fəaliyyətində demokratiya, insan haqlarının müdafiəsi, azsaylı xalqların, cinsi azlıqların, siyasi dustaq-**

**ların hüquqlarının müdafiəsi əsas yer tutur. Bütün bunlar mason fəaliyyətinin zahiri tərəfidir və görüntü yaratmaq məqsədi daşıyır".** Masonluğun **üç əsas vəzifəsi** mövcuddur:

**Birinci** - dünynın bütün amillərində idarəetmənin şovinist xarakterinin gizli formasını təmin etmək;

**İkinci** - idarəetmənin aşağı strukturuna qeyri-yəhudi millətlərdən adamları cəlb etmək;

**Üçüncü** - vahid idarəetmənin məxfiliyini və gizliliyini təmin etmək.

Həqiqətən, bütün ölkələrdə yüksək və rəhbər şəxslər bir millətdən - sionistlərdən ibarət olsaydılar, onda heç bir xalq buna dözməyib, onları devirərdi. Harada xalqa milli lider rəhbərlik edir, orada xalqda mənfi emosiya əmələ gəlmir. Ancaq həmin lider masonların əlində idarə olunan bir marionetkadır. Bunu heç kim bilmir. Bundan başqa belə liderin struktursuz idarə etməsi, o qədər məxfi xarakter daşıyır ki, belə lider özünü marionet saymır. Masonluq hesabına sionistlərin bütün dünya xalqlarını işğal etməsi açıq görünmür və geniş ictimaiyyətə bəlli olmur.

Mason təşkilatlarının müxtəlifliyi və müstəqilliyinə baxmayaraq, istisnasız hamısı idarəetmədə vahid piramida şəklində birləşirlər və eyni məqsədə xidmət edirlər. **Masonluğun əsas xüsusiyyətlərdən biri gözə görünməyən rəhbərlər prinsipidir** ki, bu da hər masonun danışıqsız tabe olmaları haqqında and içmələridir. Daha doğrusu, hər hansı dərəcəli masonlar heç vaxt mason pirami-

dasında öz yerlərini bilmirlər. Aşağıdərəcəli masonluqda qorxulu heç bir iş görülmür. Yeni seçilmiş masona masonluqda olan cinayət və şeytani əməllər haqqında deyilənlər onlara nağıl təsiri bağışlayır. Mason piramidalarının tam strukturu haqqında aşağıdərəcəli masonların təsəvvürü yoxdur. Onlara elə gəlir ki, bu piramidada xeyirxah rol oynayırlar. Aşağıdərəcəli xeyirxah gicbəsər masonlar masonluqda demokratiya, azadlıq, bərabərlik, qardaşlıq və buna oxşar şeylər axtarırlar. Onların nə axtarmasından və fəaliyyətlərinin xarakterindən asılı olmayaraq, Şeytana (iblisə) xidmət edirlər. Əlbəttə, vəziyyəti sadələşdirmək düzgün olmazdı. Masonların hər əməlləri cəfəng iş deyil. Aşağıdərəcəli masonlar arasında heç nə hiss etmədən normal adamlar da olur və onlar çalışırlar ki, öz ideyalarını həyata keçirsinlər. Insan haqları ideyası masonlar tərəfindən irəli sürülüb. indi bu ideyadan başqa dövlətlərin daxili işinə qarışmaq məqsədilə istifadə edilir.

Masonların dərəcələri artdıqca, onlar daha çox cinayətə və şeytani əməllərə bağlı olurlar. Ona görə yuxarıdərəcəli masonlar üçün masonluqdan çıxış yolu yoxdur. Masonluğa ancaq giriş var.

Bəzi mason lojalarında masonluğa qəbul zamanı masonun boynuna ip bağlayırlar ki, bu da onun ölümünün rəmzidir. Əgər mason sirrini açarsa, onu ölüm gözləyir.

Tarixdə elə hallar var ki, ləyaqətli adamlar masonluğa bələd olmaq və ya onu daxildən dəyiş-

dirmək məqsədilə masonluğa daxil olublar. Belə səylər nəticəsiz qalıb. Ona görə ki, mason təşkilatları yüzillərlə formalaşıb, onu daxildən dəyişdirmək mümkün deyil. Ona qarşı xaricdən, açıq mübarizə aparmaq nəticə verir.

Masonluğun mahiyyətini başa düşmək və ondan öz məqsələri üçün istifadə etmək məqsədilə Rusiya çarı I Pyotr masonluğa daxil olur. I Pyotr 1699-cu ildə Kristofer Ren tərəfindən şotland dərəcəli, müqəddəs Andrey lojasına qəbul edilir. Lakin bir nəticə əldə edə, masonluğun təhlükəli cəhətini başa düşə bilmir. Ona masonluğu elə cəhətdən göstərirlər ki, Pyotrda masonluğa qarşı müsbət rəy yaranır. I Pyotr Avropaya pəncərə açaraq, Avropa qaydaları ilə yanaşı, masonluğu da Rusiyaya gətirir.

Masonluğun məxfiliyi, sirri və əməlləri aşkarlananda gücünü itirir. Ona görə, masonluğa qəbul zamanı mason sirrinin qorunub saxlanması barədə dəhşətli andiçmə mərasimi keçirilir.

Yeganə qüvvə Yaponiya və Çin masonluğudur ki, masonluqdan milli maraqların qorunmasında istifadə edilir. Onlar bu sahədə böyük təcrübəyə malikdirlər və heç kəs bu təcrübəni mənimsəməyə bilməyib. Ümumiyyətlə, Yapon və Çin masonlarının oyunları haqqında məlumat azdır. Yaponiya və Çin mason oyunları mürəkkəb və təhlükəlidir.

## MASONLUĞUN SİSTEMİ HAQQINDA

Ümumdünya mason ordeninin son məqsədi cəmiyyyətin və ayrı-ayrı fərdlərin mənəvi, zehni və fiziki inkşafına təsir göstərib, millətlər və dinlər arasındakı fərqi silmək və dünya hökmranlığına, Astrey şahlığına nail olmaqdır. Bu məqsədə çatmaq üçün masonlar yorulmadan, səbr və təmkinlə əsrlər boyu iş aparırlar. Onlar bənnalar kimi, kələ-kötür daşı yonub, lazimi formaya salandan sonra onu çar Solomonun məbədinin divarlarına düzməklə, məbədin tikintisində iştirak edirlər **(məcazi mənada).**

Masonlar lojada hər bir masonun tərbiyəsini mason ordeni ruhunda aparırlar. Masonluq bir növ yaşlı adamların yenidən tərbiyə edilməsidir. Əsrlərlə davam edən masonluq onun geniş yayılması və əksər millətləri əhatə etməsi, ilkin, sırf masonluğu qollara, cərəyanlara parçaladı və əsas istiqamətini dəyişdi. Ilkin istiqamət isə müxtəlif tərbiyə üsulları vasitəsilə adamları təkmilləşdirməkdən ibarət idi. Uzun müddət ərzində masonluq ictimai axın kimi, çoxlu-çoxlu dəyişikliyə məruz qalaraq, bir formadan başqa formaya keçmiş, siyasiləşmiş

və əsl istiqamətini dəyişərək, çoxlu qollara ayrılmış, yeni məzmun və mərasimlər yaranmışdır. Masonluqda bütün qollar, formalar və iş qaydası **sistem** adlanır. Sistemə masonluğun iş qaydaları, lojalar, Şərq, konstitutsiya, rituallar, simvollar, mason dili, masonluğa qəbul qaydaları və s. daxildir. Sistemdəki müxtəlifliyə baxmayaraq, terminlər, dil, simvollar, quruluşun əsasları bütün mason təşkilatları üçün eynidir. Mason birliyində bütün mason ordenləri üçün eyni təsir gücünə malik ümumi, əsas qanunlar fəaliyyət göstərir. Lakin hər lojanın xüsusi qanunları olur. Həmçinin, yüksək rütbəli masonlar üçün məxfi təlimatlar da nəzərdə tutulur. Bu da əsas verir ki, gizli surətdə bütün loja üzvlərinə yuxarıdan nəzarət edilsin.



**Loja.** Mason qardaşların yığışıb, iş apardıqları binaya deyilir. Loja həmçinin, qardaşlıq ittifaqına da deyilir. Konkret olaraq, hər bir mason müvafiq lojanın üzvü olur. Lojaları fərqləndirmək üçün onlara müvafiq adlar verilir. Məsələn: Müqəddəs Georgi, Moisey, Oziris, Laton, Astrey, Böyük Şərq və s. adlarda mason lojaları fəaliyyət göstəriblər.

Çox vaxt lojalara görkəmli masonlrın adları da verilir. Bu yaxınlarda məşhur rus masonu Novikovun adına Moskvada yeni loja açılıb.

**Lojanın işi.** Lojanın işinə müxtəlif mərasimlər məsələn: masonluğa qəbul mərasimi, yeni lojaların yaradılması mərasimi, masonların yüksək dərəcələrə keçirilməsi mərasimi, mason ziyafətlərinin keçirilməsi mərasimi və s. aiddir.

**Şərq** — yüksək idarəetməyə deyilir. Masonluğun əsası Şərqlə bağlıdır. Şərq qədim müdrikliyin əsası sayılır. Masonluğun fəaliyyət prinsipləri qədim Şərqdə fəaliyyət göstərən sufizm, dərviş ordenlərinin prinsipinə uyğun gəlir. Bu prinsiplər məxfilik, alleqoriya, mistika, özünütərbiyə və özünütəkmilləşdirmədə və s. özünü göstərir **(Bax: İdris Sah-Sufizm).**

**Konstitutsiya.** Lojaların yaradılmasına əsas verən şəhadətnamə nəzərdə tutulur. Şəhadətnamə yeni yaradılan lojalara yuxarı lojalar (məsələn, İngiltərə Böyük Şərq lojası) tərəfindən verilir. Əks halda yeni yaranan loja qanunsuz və özbaşına yaranmış hesab olunur.

O loja qanuni sayılır ki, yuxarı loja onu qeydə alsın və təsdiq etsin. Qanuni loja yaratmaq üçün müəyyən sayda usta masonlar (7 usta masondan az olmayaraq) yuxarı (İngiltərə Böyük Şərq, Fransa Böyük Şərq) lojalara müraciət edirlər ki, onlara müəyyən dərəcəli loja yaratmağa icazə verilsin. Icazə verilsə, onda lojanın yaranma mərasimi təyin edilir. Icazəni yuxarı lojanın rəhbəri verir. Ümumiyyətlə, masonluğun və lojaların işinin idarə olunması konstitutsiyaya əsasən aparılır. Ilk konsitutsiya kimi, 1722-ci ildə C.Anderson və sonra 1782-ci ildə Vilhelmsbad Konsitutsiyası yaranıb. Hər lojanın öz quruluşu və iş qaydası olur. Lojanın başında böyük usta, müdir, stulun ustası, I və II nəzarətçi, katib, möhür saxlayan, mərasimə nəzarətçi, qapıya böyük nəzarətçi və s. vəzifələr

olur. Lojalar müxtəlif quruluşa malikdirlər. Qədim masonlar ilk vaxtlar mason ordenini "Qardaşlıq cəmiyyəti" adlandırırdılar, XVIII əsrin ortalarında isə orden adlandırmağa başladılar. Masonluqda müxtəlif dərəcələr nəzərdə tutulur. Ən çox tətbiq edilən şagird, usta köməkçisi və usta dərəcələridir. Lakin müxtəlif lojalarda dərəcələmə sistemi müxtəlif olur. Adətən 5, 7, 9, 33, dərəcələri tətbiq edilir. 33-cü dərəcə ən yüksək hesab olunur və çox az masonlara, seçilmişlərin seçılmişlərinə nəsib olur. Sırf yəhudi mason lojalarında dərəcələr 99- qədər ola bilər.

**Masonluğun qolları.** Masonluq dərəcə, mərasim və simvollar görə, qədim tarixi ənənəyə görə, müntəzəm (daimi), qeyri müntəzəm və simvolik qollara ayrılır.

**Müntəzəm masonluq** özünü mason adlandıranların əksəriyyətini təşkil edir. Müntəzəm masonluğu fərqləndirən cəhət onların mason qanunlarına ciddi əməl etmələridir. Müntəzəm masonlar ancaq Kainatın Ulu Memarına tapınır, ancaq onu qəbul edirlər. Müntəzəm masonlar mason ordeninə qadınları qəbul etmirlər. Müntəzəm masonluq ali hüquqi-ərazi prinsipi üzrə təşkil olunur. Onun fəaliyyər göstərdiyi ərazilərdə başqa mason lojaları yaradıla bilməz. Nizami Böyük Lojalar bir-birini tanıyır, qəbul edir və birbaşa əlaqə saxlayırlar. Nizami Böyük Lojaya qəbul olunan mason qardaş öz dərəcəsinə uyğun olaraq, lojanın işində iştirak edir. Müntəzəm masonluq yeganə universal

ümumdünya qardaşlıq təşkilatıdır ki, daim əlaqədə fəaliyyət göstərir. Ümumdünya nizami masonluğu 100-dən çox Böyük Lojanı birləşdirir.

**Qeyri-müntəzəm masonluq** mason ənənələrinə, mərasimlərinə tam əməl etməyən, ümumdünya masonluğunun tərkib hissəsi olmayan mason lojaları sayılır. Qeyri-müntəzəm masonluğun böyük qolunu böyük Şərq lojaları, xüsusən Fransanın Böyük Şərq lojası təşkil edir. Qeyri-müntəzəm mason lojaları masonluq ənənələrinə və qanunlarına tam əməl etmədiyi üçün qədim masonluqla bağlılıq qırılır. Qeyri-mason lojalarına qadınların qəbuluna və siyasətlə məşğul olmağa yol verilir.

**Simvolik masonluq.** Masonluğun bu qolu masonluğun ən qədim hissəsidir və üç dərəcədən ibarətdir. Bu üç dərəcə şagird, usta köməkçisi və usta dərəcəsidir. Simvolik masonlar lojalarda, lojalar ərazi prinsipi üzrə Böyük Lojalarda birləşirlər. Simvolik masonluq sonralar yaradılmış müxtəlif masonluq üçün baza rolunu oynayır. Bunlardan ən məşhur qurumlar Şotland və York nizamnamələridir. Simvolik masonluğun bu qurumlara tabeliyi yoxdur. Müstəqil fəaliyyət göstərir, onlarla yaxşı münasibət şəraitində işləyir.

**Masonluğa qəbul qaydaları.** Masonluğa qəbul mərasimi xüsusi əhəmiyyət kəsb edir və masonluğun davamlı fəaliyyətini nizama salır. Masonluğa qəbul şərtləri müxtəlif olur. Mason lojalarının hərəsi özünə məxsus ənənələr və mərasimlər əsasında masonluğa yeni üzvləri qəbul edirlər.

Masonluğa qəbul olunanların yaş həddi 21 yaşdan yuxarı olmalıdır. Mason uşaqları üçün lazımi hədd 18 yaş nəzərdə tutulur. Müntəzəm masonluğa ancaq kişiləri qəbul edirlər.

Əksər lojalarda masonluğa qəbul mərasimi xüsusi rituallar əsasında aparılır və insan psixikasına mistik təsir göstərir, xof yaradır. Masonluğa qəbul olmaq istəyən şəxsə usta masonlardan zəmanət tələb edilir. Qəbul mərasimindən əvvəl namizədlə xüsusi söhbət aparılır. Onun dünyagörüşü, dinə, Allaha, hakimiyyətə, maddi imkana, ailəyə və s. munasibəti öyrənilir. Masonluğa qəbul mərasimində əsas ənənə andiçmədir. Andiçmə masonluğa qəbul olunandan tələb edir ki, masonluq sirrini qorusun, Kainatın Ulu Memarına səcdə etsin, mənəvi və fiziki gücünü, bütün maddi vəsaitini, şəxsi həyatını mason ordeninə həsr etsin, özünü dərketməyə, Kainatın Ulu Memarı haqqında biliyə yiyələnsin. **Andın mətni təxminən belədir: "Əgər mən cüzi olaraq, andımı pozaramsa, qoy başımı kəssinlər, daxili orqanlarımı çıxarıb dənizə atsınlar, qoy mənim bədənimi yandırıb, külünü küləyə versinlər ki, məndən və mənim fikirlərimdən qardaşlar arasında heç nə qalmasın".**

Konkret olaraq, müasir masonluğun tərkib hissəsi sayılan **"Rusiya Böyük Lojasında"** qəbul aşağıdaki qaydada aparılır. Masonluğa qəbul olumaq barədə lojaya rəsmi müraciət edilir. Namizədlə üç usta qardaş söhbət edir və ondan sonra onun məsələsinə lojanın rəhbərliyində baxılır. Əgər nami-

zəd zəmanət verən mason qardaşları təqdim edə bilirsə, onda onun məsələsi Rusiya Böyük lojasında müzakirə edilir. Məsələ müsbət həll olduğu halda namizəd lojanın müzakirəsinə verilir. Namizəd lojaya dəvət edilir, gözübağlı halda loja üzvlərinin suallarına cavab verir. Əgər üç usta namizəd əleyhinə səs verirsə, onda məsələ gündəlikdən çıxarılır. Əgər bir və ya iki usta əleyhinə səs verirsə, onda məsələ təxirə salınır. Məsələ müsbət həll olunsa, namizədə masonluğa qəbul olunmasının tarixi və vaxtı bildirilir. Bütün bu məsələ aylarla vaxt apara bilər. Rusiya Böyük lojasında masonluğa qəbul sadələşdirilmiş qaydada aparılır. Bəzi lojalarda çox mürəkkəb mərasimlər tətbiq edilir. Bəzən masonluğa yeni qəbul edilənin boynuna ip keçirirlər və ipin bir ucunu mərasimə rəhbərlik edən şəxsin əlinə verirlər. Bununla da masonluğa yeni qəbul edilmiş şəxsin ömürlük masonluqla bağlı olduğu və masonluğun sirrini açarsa, onu ölüm gözlədiyi, rəmzi mənada ifadə olunur.

Usta dərəcələri artırılanda keçirilən mərasim də maraqlıdır. Masonu tabuta uzadır, sinəsinə qılınclar dayayıb, sınaqdan keçirirlər. Bəzən tabutun əvəzinə üzərində tabut rəmzi olan xalçadan istifadə edirlər. Masonu həmin xalçadakı tabutu əks etdirən şəklin üzərinə uzadırlar. Mətbuatda Y.Qaydarın dediyi belə bir zarafatı yazılmışdır. Y.Qaydar deyirmiş ki, M.Qorbaçovdan soruşun, onu niyə tabuta uzatmışdılar. Mistik rituallarda tətbiq edilən yuxarıdərəcəli masonlar masonluğa

yeni qəbul olunanın barmağını çərtir, qanını şəraba qarışdırıb içirlər. Qalığını xüsusi qabda saxlayıb, növbəti qəbul zamanı istifadə edirlər. Beləliklə, qardaşlaşma gedir.

**Masonluq simvolları.** Mason simvolları masonlar üçün böyük məna və əhəmiyyət kəsb edir. Mason simvolları sirr və gizlilik rəmzidir. Zahirən adi adam üçün heç bir məna daşımayan simvol masonlara dərəcələrindən asılı olaraq, çox şey ifadə edir. **Memar Sinan** yazır: "**Masonluq bir tərəfi onun alleqoriya pərdəsi arxasında gizlənən simvollarla təsvir edilən əxlaq sistemidir. Loja içində dilsiz, sözsüz, hətta tozlanmış nişanların mənasını incələmək və bu sürətlə həqiqətləri meydana çıxarmaq masonların əsas vəzifələrindən biridir. Yəni masonluq sistemi ilə, alleqoriliyi ilə, simvolları ilə nə öyrənmək istədiyi haqqında bilgidir**".

Biz gündəlik həyatımızda, televiziya veilişlərində, mətbuat səhifələrində, reklamlarda çoxlu mason simvollarına rast gəlirik. Lakin masonluq haqqinda biliyimiz olmadığından, onların mənasını bilmirik. Masonlar isə usta dərəcələrindən asılı olaraq, onları başa düşür, işlərini və vəzifələrini qururlar.

Son vaxtlarda - 2000-ci ilin əvvələrində, qeyri dövlət televiziya kanallarında, bəzi qəzet səhifələrində göz şəklini tez-tez göstərirlər. Sən demə, göz şəkli mason simvollarının ən önəmlisidir. Göz şəkli Kainatın Ulu Memarının işıq saçan və hər şeyi görən gözünün sımvoludur. Amerikanın birdollarlıq əskinasında, üçkünc sütunun yuxarı küncün-

də göz şəkli əks etdirilib. Amerikada azad qadın heykəlinin başında yeddiqollu şamdan vardır. Yeddiqollu şamdan yəhudi masonlarının ən önəmli simvollarından biridir. Yeddiqollu şamdan İsrail parlamentinin nişanıdır. Ingilis masonları onu İsrail parlamentinə hədiyyə vermişlər. Bütün bunlar bir daha göstərir ki, Amerikanın əsasını masonlar qoymuşlar. Bir çox ölkələrin küçə və meydanlarında istifadə olunan reklamlarda tac, aslan, yediqollu şamdan, zeytun çələngi və s. kimi simvollara rast gəlmək olur. Hakim olduqları ölkələrin idarə qurumlarını əlinə keçirən masonlar öz fəlsəfələrini ifadə edən simvolları o ölkələrin bayraqlarında, pullarında, iqtisadi qurumların emblemində və s. tətbiq edirlər. Mason simvollarının əksəriyyətindən mason lojalarının tərtibatında istifadə olunur. Lojaların tərtibatında ən çox istifadə olunan simvollardan yaxın və boaz sütunlar, üzərində tabut şəkli olan xalça, qılınclar, pərgar, çəkic, önlük, ağ əlcəklər, tac və s. göstərmək olar.

**Üçkünc sütun və göz**. Masonların ən önəmli simvolu Kainatın Ulu Memarının işıq saçan gözüdür. Üçkünc sütun masonların dünya imperiya quruluşunun rəmzidir. Üçkünc sütun və göz simvolu Amerikanın birdollarlıq əskinasında əks olunub.

**Beşguşəli ulduz.** Masonların planetin beş guşəsində yaşayan bənna qardaşları ilə əlaqəsini əks etdirən simvoldur. Davud peyğəmbərin möhürü kimi də dəyərləndirilir. Ümumdünya masonluğunun ümumi simvoludur.

**Altıguşəli ulduz.** Ümumdünya masonluğunun böyük dövlət möhürü. Israil dövlət bayrağında əks etdirilib.

**Ay və günəş.** Günəş Kainatın Ulu Memarının gözüdür. Hər şeyi görür. Dairə təkərlilik1ə, hərəkətlə bağlıdır. Ay ən önəmli simvollardan biridir. Ay nəbatatlə bağlıdır, bolluğu, nəbatatin zənginliyini ifadə edir.

**Yeddiqollu şamdan.** Mason məbədinin ülvi atəşidir. Usta mason dərəcəsində yeddiqollu şamdan əsas şərtdir. Amerikada azad qadın heykəlinin başında yeddiqollu şamdan durur. Amerika azadlıq simvolu olan azad qadın heykəlini XVIII əsrdə Fransa masonları Amerikaya hədiyyə etmişlər. İsrail parlamentinin əsas emblemidir. İsrail parlamentinə yeddiqollu şamdanı ingilis parlamenti hədiyyə etmişdir. 2000-ci ilin ortalarında Bakının küçə və meydanlarında "Dream" siqaretinin reklamında əks olunmuşdur. Sonradan reklam haqqında qanunun tələblərinə əsasən yığışdırılmışdı.

**Aslan.** Yeni qurulan gənc İsrail dövlətinin emblemidir. Altıgüşəli ulduzun içində şahə qalxmış aslan vardır. Sionist konqresinin emblemi edir. Belçika Böyük Mason Lojasının emblemində aslan vardır.

**Toxmaq və çəkic.** Mason simvolları arasında toxmaq önəmli yer tutur. Amerikanın ilk prezidenti C.Vaşinqtonun əlində toxmaqla çəkic tutub və mason libasında heykəli vardır.

**Tac** — ümumdünya yəhudi krallığının simvoludur.

**Sümük və kəllə** — ölüm rəmzidir (mason sirrini açanlar və masonluğu tərk edən yüksəkdərəcəli masonlar üçün). Amerikanın Yel universitetində qədimdən "Sümük və Kəllə" lojası fəaliyyət göstərir.

**İki sütun.** İki sütun masonların təməl simvollarından biridir. İki sütun - Y və B mövcuddur. Yaxın və boaz sütunları lojanın girişində qoyulur, Y və B hərfləri ilə işarə olunur və çoxalma, artma siyasətini simvolizə edirlər. Məbədin girişində qoyulur. Şotland viskisini etiketində vardır.

Mason simvolları çoxdur. Onlardan **göyərçin, ilan, zınqırov, üç sütun** və s. göstərmək olar. Mason simvollarının hər birinin öz mənası vardır. Bütün bunlar masonların usta dərəcələrinə uyğun tətbiq edilir.

**Masonluq və din.** Dövrümüzə qədər masonluq əleyhinə yazılan bütün əsərlərdə masonların dinsiz və din düşmənləri olduqları israrla vurğulanmışdır. Masonlar isə hər vasitə ilə bu iddiaların yalan olmasını sübut etməyə çalışmış, özlərinin bütün dinləri qəbul etdiklərini, hətta ateist olanları masonluğa qəbul etmədiklərini və mason lojasında üç müqəddəs kitabı əsas tutduqlarını iddia edirlər. Masonlrın din haqqında nəzəriyyəsinə diqqət yetirmək kifayətdir ki, onların Allaha, dinə münasibəti aydınlaşsın. Masonlar Allaha yox, "Kainatın Ulu Memarına" sitayiş edirlər. Kainatın Ulu Memarı nə deməkdir? Usta mason **Salemi İşıldağ** yazır: **"O halda məbədimizi tətbiq ediriksə, Kainatın Ulu Memarına gedib çıxırıq və görürük**

**ki, Kainatın Ulu Memarı bizim içimizdədir". ("Mason" dərgisi, N-25. səh. 27,28)**

Masonlar Kainatın Ulu Memarına təbiət, kainat, enerji kimi adlar verməkdə sərbəstdirlər. O isə insnlarla əlaqəli deyildir. Peyğəmbəri yox, müqqədəs kitab yollamaz, din göndərməz. Cənnəti, cəhhənəmi, şeytanı və mələyi yoxdur. O bir məfkurədir (ideyadır). Adətən fəlsəfi bir məfkurədir ki, Kainatın Ulu Memarı Qurani-Kərimlə özünü tanıtdıran Allahla heç bir əlaqəsi yoxdur. Daha sonra Kainatın Ulu Memarını təbliğ edən usta mason **Salemi İşıldağ "Masonluq bir əxlaq məktəbidir"** kitabinda Kainatın Ulu Memarını tanıtmağa başlayır. O, yazır: "**Bu dünyanın bir memarı vardır və ona tanrı, Allah, total enerci (külli-qüdrət), ülvi qüdrət də deyilir. Bizcə, bu ulu güc dünyanın ulu memarıdır. Inkar edilə bilməz, təsvir edilə bilməz**". Daha sonra yazır: "**Masonluq Allah-təalaya olan inanc, bütün kainata aid külli bir qüdrət şəklindədir. Bundan görə də Allah masonluqda aləmin, Kainatın Ulu Memarıdır. Buna təbiət də deyilir".**

Ilk baxışda sadə görünən bu izahlar son nəticədə maddənin əzəli və əbədi olması iddiasına, materialist fəlsəfəsinə gətirib çıxarır. Bütün bu fəlsəfədə masonluğa yeni girmiş bir şəxsə dini görüşlərini tədricən başlayaraq, addım-addım dəyişilməsi aşılanır. Masonlar yaxşı bilirlər ki, inamlı insanı inandığı dəyərlərdən döndərmək, inkar etdirmək birdən-birə mümkün deyildir. Hətta ona bu fikirləri qəbul etdirməyə çalışsanız, əks təsir göstərəcək,

mənfi reaksiya verəcək. Normal insanı addım-addım inkara alışdırmaq, inancların ehkam olduğuna alışdırmaq, Allah və axirət inanclarından daha məntiqli dəyərləri dərk etdirmək tədricən, dərəcə-dərəcə mümkündür. Ilk anlayışda mason lojaları üzvlərini öz dinlərini tərk etməyə və bir əqidə ətrafında toplaşmağa çağırırlar, daha sonra bəşəri etiraf və tutarlı faktlarla dinə bağlılıqları zəifləyən qəlblərdəki, boşluqları ideyalarla doldururlar. Yaradan Allah inancı yerinə "Kainatın Ulu Memarı" inancı yerləşdirilir. Ilk inanc simvol, ikinci məfkurə olaraq böyüyür, genişlənir, yayılır. Nəticədə birinci aradan çıxır, ikinci onun yerini tutur.

Masonluğun dinə münasibəti həmişə mənfi olub. Masonluq özünün etirafına görə, din deyil. Lakin çalışır ki, elə bir din yaratsın ki, bütün insanları orada birləşdirə bilsin. Bu müddəa 1722-ci ildə qəbul edilmiş Anderson konstitutsiyasında öz əksini tapıb. Müasir şəraitdə bu cəhd ona yönəlir ki, bütün dinlər bərabərhüquqlu din kimi qarışıb, birləşsinlər, bir din, bir Allah olsun. Hamı Allaha inanır, hərənin öz Allahı var. Belə bir müddəanın əlehinə katolik kilsə mübarizə aparır və imkan vermir ki, dini etiqadlar, mərasimlər, simvollar, dua etmə qaydaları qarışıb, birləşsin.

XVII-XVIII əsrlərdən başlayaraq, masonluq xristian və b. dinlərə qarşı mübarizə aparıb. Bu mübarizədə bütün vasitələrdən, xüsusilə, missionerlikdən geniş istifadə edib. Nəticədə uğur qazana bilməyib, əksinə, təzyiqə məruz qalıb, zəif-

ləyib. Ona görə, masonluq dinə münasibətdə taktikanı və siyasətini dəyişib, kilsə ilə müttəfiqlik elan edib. Güya xristianlıqla masonluq arasında elə bir fərq yoxdur. Eyni zamanda xristian kilsələrində və dünya ictimaiyyətinin marağını doğuran təşkilatlarda öz agent və adamlarını artırıb. Ziyalılar, rəhbər işçilər arasında böyük siyasət və biznes aləmində güclü iş aparıb. Öz məkrli fəaliyyətini pərdələmək üçün masonlar bir sıra xeyriyyə təşkilatları yaradırlar. Belə xeyriyyə təşkilatlarının fəaliyyəti imkan verir ki, katolik və başqa dinlərə inananlar onların sıralarına daxil olsunlar. Masonluğa daxil olanlardan tələb olunur ki, hər cür etiqaddan, inancdan imtina etsinlər. Beləliklə, xristian, katolik İsa peyğəmbərdən, dini etiqaddan imtina etməli, İsa peyğəmbəri tarixi şəxsiyyət kimi, fəlsəfi, mənəvi sistemin yaradıcısı kimi tanımalıdır. Masonlar Bibliya kitabına tez-tez müraciət edirlər. Bu onlar üçün Allahı tanımaqdan yox, görkəm yaratmaqdan irəli gəlir. Masonluq çalışır ki, kilsə ilə üzdə əməkdaşlıq etsin. Əslində, kilsənin daxilinə öz adamlarını salmaq və daxildən kilsəni zəiflətmək istəyir. Ona görə də 1983-cü ildə Vatikan deklorasiya qəbul edib. Deklorasiya mason təşkilatının qarşılıqlı anlaşma təşəbbüsünü rədd edib və onda saf niyyət görməyib. Deklorasiyanı prefekt kardinal imzalayıb, Papa II Pavel İohan təsdiq edib. Deklorasiyada deyilir: "**Mason təşkilatlarında neqativ qiymət dəyişməz qalır. Belə ki, onların prinsipini katolik kilsə prinsipi ilə qa-**

rışdırmaq olmaz. Ona görə, masonluğa qoşulmaq dindarlara əvvəlki tək qadağan edilir. Mason təşkilatına üzv olan dindar ağır günah işlətmiş vəziyyətdədir". Fransız qadını Fransuaza İsa peyğəmbərin aşağıdakı sözlərini 10 iyul 1996-cı ildə dərc etdirmişdi. "İndi mən sənə deyirəm, gərək o, adamların gözünü açsın ki, onlar dağıdıcı, məhvedici gücü görmürlər. Iblis həyatın məhv edilməsi üçün fəalıyyət göstərir, çalışır adamları Allaha qarşı qaldırsın, bu şeytani işi Allaha məhəbbət pərdəsi altında həyata keçirən masonluqdur. Iblisdən gələn hökm hiss olunmur. Hətta bu dərnəyə təsadüfən düşən masonlar belə onu hiss etmirlər. Bu gizli zəhər hiss edilmədən təsir göstərir ki, Allaha inamı yox edib, onun yerini tutsun.

Mən çoxlarını bu yoldan çəkindirirəm ki, işığa doğru dönsünlər. Lakin çoxları buna çalışmır. Mən onları xilas etmək istəyirəm. Mənə kömək edib, bu sözləri həyatda var ikən ölənlərə çatdırın. Onlar iblisin təsiri altında olmaqla mənə əziyyət verirlər".

Masonluq eyni məkrli fəaliyyətində islam dininə qarşı çıxış edir. Keçən əsrin 90-cı illərindən sonra Azərbaycanda islam dininə qarşı güclü mübarizə aparılır. Bu işdə missioner təşkilatları əsas rol oynayırlar. Nəticədə 12 mindən çöx müsəlman islam dinindən imtina edib. Azərbaycanda missioner təşkilatlarının fəaliyyəti barədə ayrıca bölmədə məlumat verilir. "Masonluq öz yolunda xristian dinini ən təhlükəli düşmən hesab edir. Bu düşmən uzun müddət insanların vicdan azadlığını əsarətdə

**saxlayıb və fikir azadlığına imkan verməyib. masonluğun inkişafına mane olub"**. Bu sözlər mason lojalarına göndərilən təlimatda yazılıb.

**Masonluq və incəsənət.** Masonluq təbiətən sağlam düşüncəyə sığmır və normal yaradıcılıq ənənələrini qəbul etmir. Yüksəkdərəcəli masonların fəaliyyət göstərdiyi lojalarda Kainatın Ulu Memarı ilə yanaşı, Lyusiferə (Şeytan) sitayiş edirlər. Ona görə, onların əməli son nəticədə şeytan əməlinə uyğun gəlir. Masonların belə bir şüarı var: **"Bizim həqiqətimiz yalandır, yalanımız həqiqət".** Bu şüar onların fəaliyyətində, o cümlədən incəsənət sahəsində özünü doğruldur. Başqa sahələrdə olduğu kimi, incəsənətdə də düşünülmüş məqsədyönlü iş aparılır. Onların apardığı iş dini aşılamaq və zəiflətmək məqsədi güdür. Onlar iş apardıqları ölkələrdə tərbiyə, əxlaq və dini zəiflətməklə, o, həmin ölkələrdə yaşayan xalqları, millətləri təsir altına almaq məqsədi güdürlər.

Masonlar incəsənətdə, o cümlədən, ədəbiyyatda, rəssamlıqda, müsiqidə modernizm (abstrakt) janrını təbliğ edirlər.

Masonluğun inkişaf etdiyi ölkələrdə belə yaradıcılıq üsuluna üstünlük verir. Amerika, Avropa, Cənubi Amerika və s. ölkələrdə abstrakt yaradıcılıq geniş yayılıb. Bu sahədə Türkiyəni xüsusi qeyd etmək lazımdır. Türkiyədə masonluq əsrlərlə açıq və güclü fəaliyyət göstərdiyi kimi, incəsənətdə də özünü göstərir. **"Türkiyə" qəzeti (13\10\1993) Mustafa Necatın** məqaləsini dərc edib. Məqalədə

deyilir: "**Məgər təsadüfdürmü, Türkiyədə əksər kanallar (TGRT-dən başqa), əksər kütləvi informasiya vasitələri, kino, mətbuat, videokliplər artıq adət üzrə pornoqrafik məhsulların yayılmasında yarışırlar. Hazırda bu sahədə aparılan məqsədyönlü işin nəticəsində cinsi tərbiyənin sistemi pozulur. Mənəvi və cinsi tərbiyənin pozulması ilə yanaşı, paralel olaraq cəmiyyətdə quldurluq, oğurluq, soyğunçuluq, alkoqolizm, narkomaniya, korrupsiya, terror və s. hallar artır. Beləliklə, dövlətin dağılması planı həyata keçirilir. Türkiyədə pornoqrafiyanı yayanlar istər-istəməz sionizmin dəyirmanına su tökürlər. Xalqın mənəviyyatını pozurlar, Türkiyə xalqını parçalamaq və Türkiyə dövlətini zəiflətmək istəyənlərə xidmət edirlər**".

Milli Məclisin deputatı olduğum vaxt parlament nümayəndə heyətinin tərkibində Türkiyəyə (1997-ci ildə) gedəndə modernizmin nümunə əsərləri ilə rastlaşdım. Türkiyə parlamentinin rəhbərliyi və deputatları Azərbaycan parlament nümayəndə heyətini yola salırdılar. Hava limanının VİP salonunda bir neçə rəsm əsəri asılmışdı. Mən onlardan birinə yanaşıb, xeyli baxdım və əsərin məzmununu, mənasını və formasını başa düşə bilmədim. Heç ayırd etmək olmurdu ki, baş harda, ayaq hardadır. Bir türk həmkarımdan soruşdum ki, bu nə olan şeydir. Dedi, bu, müəllifin təxəyyülünün məhsuludur, avanqard janrda çəkilib. Dedim ki, belə patoloji təxəyyülün məhsulu xalqı düzgün və sağlam yoldan sapdırar.

Vaxtilə Stalindən sonra SSRİ-də də modernist (abstrakt) janra meyl güclənmişdi. Bu janrın təbliğində sionistlər xüsusilə fərqlənirdilər. Bunların arasında dissidentlər xüsusi yer tuturdular. 1964-cü ilin əvvəlində Moskva manejində sərgiyə baxanda SSRİ-nin ovaxtkı rəhbəri N.S.Xruşşov heyrətə gəlir və modernist rəssamlara belə deyir: "Cənablar, siz pedarastsınız, yoxsa normal adam. Mən sizə bəyan edirəm, kim xaricə getmək istəyir, siyahını verin. Günü sabah sizə xaricə getmək üçün pasport verərik, gedin". Bu zaman N.S.Xruşşova modernist rəssam Jutkovski yaxınlaşır. N.S.Xruşşov ona deyir: "Siz pedarastsınız yoxsa normal kişi. Xaricə getmək istəyirsiniz gedin, sərhədə qədər pulsuz apararıq. It nəcisi olan əsərlərinizə bir qəpik belə verməriк". Jutkovskinin avtoportretinə baxarkən Xruşşov belə deyir: "Şəkil eybəcərdir, amma müəlliflə qohumluğu hiss olunur". Jutkovski deyir ki, bu eksprimentdir. N.S.Xruşşov cavab verir: "Siz pedarastsiniz. Buna görə bizdə on il iş verirlər. Siz səfeh olmusunuz və istəyirsiniz ki, bizi də düz yoldan sapdırasınız. Yox cənablar, biz sizə müharibə elan edirik" **(Stenoqramdan).**

Azərbaycanda demokratik proses başlayandan televiziya, mətbuat, kino və s.-nin dağıdıcı, pozucu təsiri özünü göstərir. Azərbaycan Respublikasının **"Mətbuat haqqında Qanun"**una əsasən mətbuatda pornoqrafik materialların dərc edilməsi qəti qadağan edilib. Buna baxmayaraq, bir sıra qəzetlər ("Əyləncə", "Bulvar" və s.) əxlaq pozuculuğu

ilə məşğuldurlar və pornoqrafiya materiallarının dərcində davam edirlər. Televiziya verilişlərində cinsi azlığlara mənsub adamlar xalqa əxlaq dərsi varməklə məşğuldurlar. Yüngül təbiətli müğənnilər oxuyanda azyaşlı qız uşaqları yarılüt, eybəcər rəqs proqramı ilə çıxış edirlər. Hər gün televiziya kanallarında Amerika, Cənubi Amerika və s. ölkələrinin istehsalı olan filmlər nümayiş etdirirlər. Mənə elə gəlir ki, bütün bunlar düşünülmüş, məqsədyönlü işdir, bunun da arxasında gözə görünməyən qüvvələr durur. Təsadüfi deyil ki, mərhum prezidentimiz H.Əliyev 2001-ci ildə milli və mənəvi dəyərləri qorumaq barədə bəyanətlə çıxış edəndən sonra vəziyyət bir qədər yaxşılaşıb.

**Sırf Yəhudi mason lojaları.** Masonluq dinindən, millətindən, lojaların quruluşundan, harada fəaliyyət göstərməsindən asılı olmayaraq, son məqsədinə görə, yəhudiliklə bağlıdır. Mason tarixini araşdıran tədqiqatçı alim B.Bronzov yazır ki, masonluq yəhudiliyin dünya hakimiyyətinin gizli formasıdır. Sırf masonluq dedikdə nəyi nəzərdə tutmaq lazımdır? Sırf masonluq ancaq yəhudi mason lojaları nəzərdə tutulur. Sırf mason lojalarının yaradılması "Sion müdriklərinin protokolu"-nun müəllifi Aşer Cinzburqun adı ilə bağlıdır. İlk dəfə Aşer Cinzburq "Bnay Moyşe" (Moisey övladları) lojasını yaratmışdır. Sırf yəhudi mason lojasının üzvləri ancaq yəhudi millətindən olan masonlardır. Qeyri yəhudi millətindən olan masonlar dərəcələrindən asılı olmayaraq, belə lojalara buraxılmırlar. Yəhudi

masonları isə qeyri- yəhudi mason lojalarında işləyə bilərlər. Buna **ikiqat masonluq da** deyilir.

Sırf masonluğun əsas ideyası və məqsədi millətlər, dinlər arasındakı fərqi silib, dünya hökmranlığına nail olmaqdır. Bu məqsədə çatmaq üçün digər mason qollarından, mason təşkilatına xidmət edən bütün təşkilatların, klubların, fondların, dünya maliyə qurumlarının, kütləvi informasiya vasitələrinin imkanlarından bacarıqla istifadə edilir. Yəhudilərin dünya mülkinə sahib olmaq iddiaları nəyə əsaslanır? Onlar iddia edirlər ki, güya Musa peyğəmbər (Moisey) Sion dağlarında olanda Allahdan vəhy gəlib ki, dünya mülkünün sahibi İsrail övladları olmalıdırlar.

**"Bnay-Brit" beynəlxalq yəhudi mason lojası.** Beynəlxalq mason lojasının aparıcı qüvvəsi olan "Bnay-Brit" sırf yəhudi mason lojasıdır. Lojanın işində qeyri-yəhudi masonlar iştirak edə bilməzlər. "Bnay-Brit" lojasına milyarder Devid Rokfeller, H.Kissincer, Z.Bzejinski və digər məhşur sionistlər rəhbərlik edirlər. "Bnay-Brit" 1843-cü il, oktyabr ayının 13-də alman yəhudi mühacirləri tərəfindən Nyu-Yorkda yaradılıb. Ilkin tərkibi 13 nəfər olub - **(Diqqət yetirin, ayın 13-də yaradılıb, tərkibi də 13 nəfər olub, 13 rəqəmində şeytana meyl özünü göstərir).** 1980-ci illərin axırında dnyanın 42 ölkəsində yarım milyon üzvü olan "Bnay-Brit" lojası dünya masonluğunun əsasını təşkil edir. Fransada "Bnay-Brit" lojası sionist, peterburqlu vəkil və Dumanın üzvü T.Sliozberq tərəfindən yara-

dılıb. İngilis tarixçisi **P.Rudmen** yazır: **"Bnay-Brit" müasir dövrün çox güclü mütəşəkil qüvvəsidir. Faktiki olaraq, bu fövqəlmasonluqdur, masonluq üzərində masonluqdur və ya orden içində ordendir. Beynəlxalq masonluqda və dünya siyasətində tutduğu mövqeyə görə, "Bnay-Brit" lojasını dünyanın pərdə arxası hakimiyyəti hesab edirlər**.

Xüsusilə ikinci dünya müharibəsindən sonra güclü siyasi mərkəzin və leqal təşkilatların yaradılması yolu ilə masonluğun təsir dairəsinin genişləndirilməsi geniş vüsət aldı. Belə leqal təşkilatlar mason lojalarının rəhbərliyi altında fəaliyyət göstərir, onun ideyalarını həyata keçirir və mason ənənələrinə əməl etmədən fəaliyyət göstərir. Keçən əsrin əllinci illərində Bilderberq klubu yaradılır və ona "Bnay-Brit" lojalarının rəhbərlərindən biri milyarder D.Rokfeller rəhbərlik edir. Bir çox tətqiqatçılar bu klubun dünya siyasətində aparıcı rolunu və istiqamətləndirici mərkəz olduğunu nəzərə alaraq, onu **dünya hakimiyyətinin gizli forması** adlandırırlar. 1973-cü ildə daha bir dünya siyasətinin aparıcı mərkəzi, Üçtərəfli Komissiya yaradılır. Ona da rəhbərliyi "Bnay-Brit" lojasının rəhbəri D.Rokfeller edir. Masonluğun təsir dairəsini genişləndirmək məqsədilə daha bir neçə klub və fondlar yaradılır. Müasir şəraitdə "Bnay-Brit" mason lojası dünya siyasətində xüsusi rol oynayır. Xüsusilə, SSRİ-nin dağılmasında Amerika Mərkəzi Kəşfiyyat İdarəsi və digər mason ordenləri ilə yanaşı, "Bnay-Brit" mason lojasının fəaliyyəti təsirli olub. Ümu-

miyyətlə, dünyada gedən qlobal siyasətin həyata keçirilməsində üç böyük yəhudi - H.Kissincer, Z.Bzejinski və C.Soros əsas rol oynayırlar.

Milyonlarla insanın həyatına və müqəddəratına təsir edən, dünyəvi siyasətdə mühüm rol oynayan mason H.Kissincerin həyatından bəzi məqamlara diqqət yetirmək kifayətdir ki, cəmiyyətə necə rəzil adamların böyüklük etdiyini görəsən.

**Q.Klimov "Masonluq və hakimiyyət kompleksi"** müsahibəsində H.Kissincer haqqında maraqlı məlumatlar dərc edir. Onun yazdığına görə, H.Kissincer 30 il ərzində Amerikanın xarici siyasətində ən böyük rol oynayan ən nəhəng yəhudidir. O, uzun müddət prezident Niksonun milli təhlükəsizlik üzrə müşaviri və sonra Amerikanın dövlət katibi (xarici işlər naziri) işləyib. Amerikada doğulmayan adamın dövlət katibi olması nadir hadisədir. H.Kissincer alman yəhudisidir və atası ravvindir.

Daha sonra yazır ki, H.Kissincer sovet agentidir və kod ləqəbi Bordur. Bu mənbənin qiymətli məlumatı əsasında İngiltərə, İsveç, Fransa, Almaniya və İsrailin hökumət orqanlarında çalışan sovet kəşfiyyatçıları həbs edilmişdir. H.Kissincerin sovet agenti olması barədə **Frank Kapellanın "H.Kissincer-sovet agentidir"** monoqrafiyası "Qlaşatay svobodı" jurnalında dərc edilib. Həmçinin, H.Kissincerın sovet agenti olması barədə Amerikaya qaçmış Polşa kəşfiyyatçısı Qolenevski də məlumat verib. Qolenevskinin məlumatı əsasında bir çox sovet agentləri ifşa edilib və zərərsizləşdirilib.

Lakin Qolenevski H.Kissincer haqqında məlumat verəndə ona 50 min dollar vəsait verib, onu qovublar. H.Kissincer haqqında daha maraqlı məlumat 4 mart 1982-ci ildə Amerikanın 11-ci kanalında, saat 10.30-da verilib. Bu verilişdə H.Kissincerin oğlan uşaqları ilə seksual əlaqədə olması barədə məlumat verilib. Bundan sonra "Novoe russkoe slovo" qəzeti yazır ki, məhkəmə H.Kissincerin ikinci arvadı Nensi Kissincerə həbs orderi verib. Sən demə, jurnalist Ellen Kaplan küçədə H.Kissincerə sual verib ki, "Mister Kisencer bu düzdür ki, "Karlayl" mehmanxanasında uşaqlarla yatırsınız". Bunu eşidən Nensi Kissincer onun boğazından yapışıb, boğmaq istədi. H.Kissincerin seksual durumu masonluğa uyğun gəlir. H.Kissincer eyni zamanda həm Amerika kəşfiyyatı və həm də İsrail kəşfiyyatı üçün də işləyir. O, bir neçə dəfə İsrailin baş naziri Qolda Meyerlə görüşüb. Hətta sovet kəşfiyyatçısı Viktor Leyini evdə qəbul edəndən sonra onunla İsrailə uçub və Q.Meyerlə görüşdürüb. Bütün neqativ hallara baxmayaraq, H.Kissincer suda batmaz, odda yanmaz və həmişə də üzdə olar. Ona görə ki, o, çox böyük bir masondur. Keçən əsrin 90-cı illərin axırlarında qarşıda qoyulan vəzifələrin yrinə yetirilməsini sürətləndirmək məqsədilə Rusiyada masonluğun bərpası və yayılması üçün güclü iş aparılır. Rusiyada ilk mason lojasının açilmasi barədə razılığı H.Kissincer şəxsən M.Qorbaçovdan alır. 1989-cu ildə may ayında Parisdə çıxan yəhudi aylıq jurna-

lı "L-Açehe" məlumat dərc edir ki, 1988-ci ilin dekabr ayının 23-dən 29-dək "Bnay-Brit" ordeninin Fransa bölməsinin 21 həfər üzvü Moskvada qonaq olmuşlar. Ondan sonra 1989-cu ilin may ayında 63 nəfərdən ibarət mason lojası yaradılır.

**SSRİ-nin dağılmasında Soros fondunun rolu.** C.Soros dünyanı idarə edən mason və yəhudi milyarderlərindən biridir. Çox xəsisdir və öz fondundan pul xərcləməyi xoşlamır. Onun gördüyü işlər və xərclədiyi vəsaitin arxasında daha böyük qüvvələr durur. C.Soros 1987-ci ildə "Soros fondu və Sovet İttifaqı" fondunu yaradıb. Sonradan bu fond "Sovet-Amerika təşəbbüs fondu"na çevrilmiş və SSRİ-nin dağılmasında əsas rol oynamışdır. Soros fonduna partiya funksioneri Y.Afanasyev, "Znamya" jurnalının redaktoru Q.Baklanov, rus kəndinin dağılması üzrə ideoloq T.Zaslavskaya, məşhur qalmaqalçı vəkil, Dumanın deputatı A.Makarov, Konstitutsiya Məhkəməsinin üzvü Y.Ametistov ilk daxil olanlardandırlar. Soros fondu keçən əsrin 90-cı illərində yenidənqurma və demokratiya pərdəsi altında birləşən demokratların maliyyələşdiilməsini və onların qruplarla Amerikaya göndərilməsini təşkil edirdi. Ilk olaraq, 1990-cı illərdə SSRİ-də bazar iqtisadiyyatına keçid proqramı ilə məşğul olan və 500 gün avanturist proqramın müəllifləri Q.Yavlinski, Y.Qaydarın komandası ABŞ-a səfər etdilər. Onların ezamiyyə xərcləri, bahalı mehmanxana, qiymətli hədiyyələrin xərcləri Soros fondu hesabına ödənildi. Həmçinin, Soros fondu

antisovet təbliğatı aparan kütləvi informasiya vəsaitləri, qəzet, jurnallar, müstəqil televiziya verilişlərini maliyyələşdirməyə başlayır.

1989-cu ildə "Znamya" jurnalında Soros açıq şəkildə rus milli hərəkatına qarşı çıxış edir və bu hərəkatda beynəlxalq mason təşkilatı üçün təhlükə gördüyünü dilə gətirir. Soros fondunun fəaliyyəti cəmiyyətin bütün sahələrini əhatə edir və dəqiq düşünülmüş, məqsədli tədbirlər həyata keçirir. Soros fondunun fəaliyyəti Rusiyada təhsil, səhiyyə, mədəniyyət, iqtisadiyyat və s. sahələrinə də yayılıb.

Latviya Xarici İşlər nazirinin məlumatına əsasən qərb, birinci növbədə Amerika 1985-ci ildən 1992-ci ilədək SSRİ-də demokratik prosesə (SSRİ-nin dağılmasına) 90 milyard dollar vəsait sərf edib. Bu vəsait hesabına lazımi adamların xidməti, təsir agentlərinin hazırlanması və maliyyələşdirilməsi, xüsusi texnika ilə təchiz edilməsi, təlimatların, lazimi ədəbiyyatların göndərilməsi və s. işlərin görülüb. Bütün bunlar birbaşa əgər SSRİ-nin rəhbəri M.Qorbaçov şəxsən rəhbərlik etdiyi partiya və dövlətə sadiq olsaydı, xarici qüvvələrə satılmasaydı, ətrafına SSRİ rəhbərliyinə özükimiləri, A.Yakovlev, E.Şevardnadze, V.Medvedyev, Y.Primakov, G.Arbatov, V.Bakatin və s. yığmasaydı, heç bir qüvvə, nə "Bnay-Brit", nə digər mason lojaları, nə Amerika, İsrail və Avropa ölkələrinin xüsusi xidmət orqanları SSRi-ni dağıda bilməzdilər. Son illərin təcrübəsi bunu sübut edir. Kubada, Şimali Koreyada, Vyetnamda, Çində və

s. ölkələrdə sosializmin duruş gətirməsi buna sübutdur. Ölkəyə rəhbərlik edən birinci şəxsin - Fidel Kastronun sosializmə sadiq olması Kubada ictimai-siyasi quruluşu qoruyub saxlayır. Baxmayaraq, Kuba Amerikanın qulağının dibindədir, kiçik bir ölkədir və Amerika ona hər tərəfdən sanksiya tətbiq edir. F.Kastronun həyatına Amerika Mərkəzi Kəşfiyat İdarəsi alti yüz dəfə sui-qəsd edib.

2006-cı ilin iyul ayında 47 illik əvəzsiz lider olan F.Kastro xəstəliyi ilə əlaqədar hakimiyyəti qardaşı Raul Kastroya müvəqqəti olaraq verib. Bundan ruhlanan Amerika Kubaya qarşı fəaliyyətə başlayıb. Amerikanın dövlət katibi K.Rays Kuba xalqına bəyanatla müraciət edib ki, Kuba xalqı, demokratiya yoluna gəlin, biz sizə kömək edərik və Amerika Kubada ictimai-siyasi quruluşu dəyişmək üçün 80 milyon dollar vəsait ayırıb.

Deməli, SSRİ-nin dağılmasına səbəb onun rəhbəri M.Qorbaçovun satqın və xəyanətkar olmasıdır. M.Qorbaçov bu xəyanətə sövq edənlərdən biri də C.Sorosdur. 1989-cu ildə M.Qorbaçovun masonluqla əlaqəsi onun mondialist struktur olan üçtərəfli komissiyanın rəhbərliyi ilə əlaqə yaratması və bu komissiyaya daxil olmasından başlayır. M.Qorbaçovun Üçtərəfli Komissiya ilə əlaqəsinin yaranmasında vasitəçi kimi maliyyə dəllalı, mason və İsrail kəşfiyyatının agenti C.Soros olmuşdur. Həmin C.Sorosu masonlarla əməkdaşlığa görə, Rumıniyadan, Macarıstandan, Çexoslavakiyadan biabırçılıqla qovmuşlar.

1990-cı ildən başlayaraq Soros fondu geniş yayılmağa başlayır və fəaliyyətini gücləndirməyə başlayır. Bu təşkilatda çalışanların əksəriyyəti mason və xüsusi xidmət orqanların əməkdaşları olublar. Soros dünyanın məhşur adamlarından biri olub. Onun fəaliyyət dairəsi Reyn sahilindən Urala qədər ərazini əhatə edir. Soros fondu da mason siyasəti həyata keçirir. Fond əsasən adamların dünyagörüşünün dəyişdirilməsi, Amerika həyat tərzinin təbliği, iqtisadi çətinliklər yaradıb, ondan faydalanmaq, intellektual potensialı xaricə ötürmək, rus milli hərakatını zəiflətmək və s. məsələlərlə məşqul olurdu. Amerika Mərkəzi Kəşfiyyat İdarəsi, Pentaqon Soros fondu vasitəsilə müxtəlif qeyri-hökumət, siyasi, sosioloji, ictimai təşkilatlar, fondlar, klublar, universitetlər və s.yaradıb, ondan kəşfiyyat, təxribat, təbliğat məqsədilə istifadə edirdilər. Soros fondu Rusiya elminə yardım məqsədi ilə məxfi elmi məlumat toplayır, əvəzinə elmi işçilərə 500 dollar vəsait verirdi. Soros fondu hesabına antisovet qəzet və jurnallar, o cümlədən, "Oktyabr", "Znamya", "Zvezda", "İnostrannaya literatura", "Drujba narodov", "Novıy mir", "Teatralnaya jizn" və.s. maliyələşdirilir. Bu sahədə xüsusi mükafat təsıs edilir və komissiya yaradılır. Komissiyaya S.Çuprin, N.İvanova, Q.Baklanov, M.Masarski rəhbərlik edirlər.

Rusiyada mason lojalarının yaradılması və masonluğun yayılması geniş miqyas alır. 1990-cı ilin

aprel ayında Fransa "Boyük Şərq" mason ordeninin rəhbəri J.P.Raqaş mətbuat konfranslarının birində etiraf edir ki, artıq bizim ordenə məxsus olan şəxslər Rusiyada çoxdur və onlar bizim ideyamıza sadiqdirlər.

1991-ci ilin mart ayında Amerika Mərkəzi Kəşfiyyat İdarəsi tərəfindən maliyyələşən "Azadlıq" radiosu SSRİ-də yaşayan vətəndaşları mason lojasına daxil olmağa çağırır. "Azadlıq" radiosu ilə açıq müraciət böyük rezonans verir və qısa müddətdə Vilnüsdən, Bakıdan, Riqadan, Kiyevdən və.s. şəhərlərdən Fransa lojasına məktublar daxil olur.

Müraciət edənlərdən seçib, söhbətdən keçirib və masonluğa qəbul edirlər. SSRİ məkanından müraciət edənləri xüsusilə, A.S.Puşkin lojasına qəbul edirlər.

Son illərdə, xüsusilə, 2000-ci ildən sonra Soros fəaliyyətini daha da gücləndirib və açıq fəaliyyət gostərir. Gürcüstanda narınci inqilabın həyata keçirilməsində Soros fondunun rolu danılmazdır. Lakin gürcü xalqı artıq başa düşüb ki, Soros kimilər heç vaxt xalqın mənafeyinə xidmət etməz. Onların öz məqsədləri var, həmin məqsədə çatmaq üçün öz məkrli siyasətini həyata keçirirlər. Ona görə də Gürcüstanda "Antisoros xalq birliyi" fəaliyyət göstərir və dəfələrlə Antisoros təşkilatı kütləvi aksiya keçirib, Sorosun Gürcüstandan rədd olmasını tələb edirlər.

Çox təəssüflə qeyd etmək istəyirəm ki, Soros öz məkrli siyasətini Azərbaycanda da aparır. Xü-

susilə təhsil sahəsində Soros fondunun apardığı iş diqqəti cəlb edir. 2002-ci ilin əvvəlində Soros fondunun təşəbbüsü ilə Zuğulbadakı Gənclik mərkəzində Bakı şəhəri üzrə məktəb direktorlarının 3 günlük seminar müşavirəsi keçirilir və təhsil islahatı müzakirə edilir. Təhsillə bağlı digər tədbirlər də həyata keçirir. 2000-ci ilin axırlarında Azərbaycandan məktəb direktorlarının və digər təhsil işçilərinin İsrailə bir aylıq kursa göndərilməsi də maraq doğurur. Dünya Bankı Azərbaycanda təhsil proqramının lahiyə qrupunu yaradıb və onları maliyyələşdirir. İndi aydın olur ki, niyə "Təhsil haqqında" qanunun lahiyyəsi yeddi ildir ki, Milli Məclisdə müzakirəsi yarımçıq qalıb. 1999-cu ildə biz Milli Məclisdə "Təhsil haqqında" qanun lahiyyəsini birinci oxunuşda müzakirə etmişdik.

Parlament reqlamentinə görə bir aya birinci oxunuşdan sonra qanun lahiyəsi işlənib, növbəti oxunuşa təqdim olunmalı idi. Lakin bugünə kimi - 7 il vaxt keçməsinə baxmayaraq "Təhsil haqqında" qanun lahiyəsi növbəti oxunuşa çıxarılmayıb. Heç kəs də dəqiq bilmir ki, qanun lahiyyəsini hansı qüvvələr dondurub. Bu barədə mətbuatda çoxlu yazılar verilib. Hətta Milli Məclisin elm və təhsil daimi komissiyasının sabiq sədri Ş.Əsgərov mətbuatda çıxış edib, təhsil nazirini ittiham edib. Bu barədə onun "Təhsil haqqında" qanun lahiyəsinin müzakirəyə çıxarılmasına müqavimət göstərənlər var" başlığı altında məqaləsi "525-ci qəzet"də 24 may 2002-ci il tarixdə dərc edilib. Indi aydın olur ki, gözəgörün-

məyən qüvvələr Azərbaycan xalqının gələcək inkişafının əsasını təşkil edən "Təhsil haqqında" qanun lahiyəsi ilə manupulyasiya edirlər.

B.Yeltsinin hakimiyyəti dövründə - 1991-ci ildən sonra Rüsiyada masonluğun yayılması və inkşafı üçün heç bir məhdudiyyət olmayıb. Avropanın müxtəlif ölkələrində mason funksionerləri gəlib, açıq şəkildə regionlarda məruzə və mühazirlərlə çıxış edir, təbliğat aparırlar. 1991-ci ilin avqust-dekabr aylarında Rusiyada dövlət çevrilişi başa çatır. Bununla belə, mason lojaları, MKİ və b. xüsusi xidmət orqanları öz fəaliyyətlərini nəinki dayandırmır, əksinə, gücləndirirlər və Yeltsin rejiminin hakimiyyət strukturunu əvəz edirlər. B.Yeltsin üçün direktiv sənədlər hazırlayır, ona nəzarət etmək üçün xüsusi müşavirlər təyin edirlər. ABŞ-da açıq şəkildə ictimai mərkəz fəaliyyətə başlayır. Ictimai mərkəzə E.Lozanski rəhbərlik edir. Bütün qərar və sənədlər MKİ-də, mason lojalarında hazırlanıb mərkəzə ötürülür. Tam qələbəyə hazır olan B.Yeltsin artıq bu təşkilatla əlaqəsi olduğunu gizlətmir. Demokratik Amerika milli töhvə Cəmiyyəti "rəhbərinə" məktubla müraciət edir. **"Biz bilirik və yüksək qiymətləndiririk Sizin bu qələbəyə böyük əmək sərf etdiyinizi". (faks 23 avqust 1991.)** B.Yeltsininin hakimiyyətə gəlməsini və Kommunist reciminin məğlubiyyətini Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin, demakratik qüvvələrin qələbəsi kimi bayram edənlərin sevincinin həddi-hüdudu yox idi. Birinci növbədə MKİ-nin

fəaliyyətinə yüksək qiymət verən Amerika prezidenti C.Buş deyir: **"Yeltsin rejiminin qələbəsi və hakimiyyətə gəlməsi bizim qələbədir, Amerika kəşfiyyatı idarəsinin qələbəsidir".**

Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru **mason Robert Geyts** Moskvada, qızıl meydanda öz şəxsi paradını keçirib. "Bi-Bi-si" telekamerası qarşısında çıxış edərək, **"Burada Qızıl meydanda, Kremlin və movzoleyin önündə öz qələbə paradımı qeyd edirəm",** - deyib.

MKİ-nin nümayəndələri ilə B.Yeltsinin nümayəndələri arasında ağa-nökər münasibəti yaranır. 1992-ci ilin oktyabr ayında tam məxfi şəraitdə B.Yeltsinlə R.Geyts arasında görüş keçirilir. Görüş tam məxfi qalsın deyə, B.Yeltsinin tərcüməçisini otaqdan çıxarırlar. Tərcüməni R.Geytsin tərcüməçisi aparır. Rəhbəri olduğu ölkəyə və xalqa etdiyi xəyanətə görə, Beynəlxalq mason təşkilatı Yeltsini " Malta ordeninin cəngavəri" rütbəsi ilə təltif edirlər. Bu rütbəni 16 noyabr 1991-ci ildə alır. Heç kəsdən çəkinmədən və utanmadan mason paltarında televiziya kamerası qarşısında özünü nümayiş etdirir. O, 1992 ci ilin avqust ayında 827 №-li fərman imzalayıb. Fərmanın mətni təxminən belədir: **"Malta ordeni ilə rəsmi münasibət bərpa edilsin. Xarici işlər nazirinə tapşırılsın ki, bu fərmandan irəli gələn vəzifələri icra etsin".** Yeltsinin mason paltarında şəkli və fərmanın mətni qəzetlərdə dərc edilib. Rusiyada yaranmış şərait, xarici və daxili dəstəyə arxalanan masonlar öz fəaliyyətlərini da-

ha da genişləndirir. Rusiyada mason lojaları yağışdan sonra göbələk kimi artmağa başlayır. Artıq heç nədən çəkinmədən xarici mason funksioerləri ölkəyə gəlir, istədikləri regiona gedib, mason lojaları yaradır və açıq fəaliyyət göstərirlər. 8 sentyabr 1992-ci ildən Maskvada böyük təntənə ilə "Harmoniya 48698" mason lojasının açılışı olur. Bu loja Fransa "Böyük milli" lojası kimi yaradılır. Açılışda böyük katib mason İ.Qreturiel və fəxrı mason Mişel Qarder iştirak edirlər. Mişel Qarder Fransa Ali Mason Şurasının üzvüdür. Lojanın rəhbəri keçmiş partiya funksioneri, filosof Q.B.Derqaçov seçilir. Həmin gün 12 nəfər profan masonluğa qəbul edilir. Bəzi mason təşkilatları fəaliyyətlərini cəmiyyətdən gizli saxlamaq üçün müxtəlif klublar, fondlar və s. adlar altında fəaliyyət göstərirlər. Belələrinə "Sitadel", "Romari", "Magsetrium", "Begemian", "Layoiz", "Seerkl" və s. aiddir.

**Ağ masonluq.** Masonlar fəaliyyət dairəsini genişləndirmək və öz fəaliyyətlərini pərdələmək üçün qapalı mason klubları yaradırlar.

Belə klublara üzv olanlar mason rituallarına əməl etmirlər və and içib, mason lojasına üzv olmurlar, lakin onlar mason siyasətini həyata keçirirlər. Siyasətdə ən yüksək vəzifələrə, biznesə və ictimai təşkılatlar üçün kadr ehtiyatı fondu yaradırlar. Belə təşkiltlarda çalışan adamlar öz mason qardaşlarından fərqlənmirlər. İlk olaraq Sant-Peterburqun sabiq meri A.Sobçak, Moskvanın sabiq meri Q.Popov, Moskvanın indiki meri Y.Lujkov,

bankir Afanasyev, E.Saqalayev ağ masonluqa daxil olurlar. Onlar "Rotari interneşnl" klubuna daxil olublar. "Rotari interneşnl" klubunun açilişi barədə 6 iyun 1990-cı ildə televiziyanın "Vremya" proqramında məlumat verilib. Bu kluba orta və böyük demokratlar, B.Yeltsinin ətrafındakı şəxslər də daxil olublar. Klubun təşkilatçıları klubu partiya kimi yox, sadəcə olaraq, real siyasət mərkəzi kimi - istədikləri vaxt yığışıb, görüşüb dünya siyasətinin, dövlət işlərini və cari məsələləri müzakirə etmək üçün istifadə edirlər.

Ikinci ən böyük klub "Magestrium" olub. "Magestrium" Üçtərəfli Komissiya və Bilderberq klubu əsasında yaradılıb. Bura Soros, Klintonun iqtisadi məsələlər üzrə müşaviri R.Rayke, A.Yakovlev, E.Şevarnadze, Y.Yevtuşenko, E.Neizvestnıy, A.Sobçak, V.İvanov, İ.Brodski, S.Şatalin və s daxil olublar. Bu klubun fəaliyyəti sırf mason siyasətindən irəli gəlir. Növbəti klublardan islahat klubu "Vzaimodeystar"dır. Bu klub iş adamlarını, islahatçıları birləşdirir və Rusiya iqtisadiyyatını yıxıb, sürüyür. Bura Y.Qaydar, A.Çubays, K.Borovoy, A.Abalkin, Y.Yasin, A.Poçinok, E.Saburov, N.Şmelev, S.Şatalin və b. daxildir. Növbəti klublardan biri də "Russkiy pensentr" olur və masonların ədəbiyyat, incəsənət sahəsinə nəzarətini təmin edir. Burada B.Axmadulina, Q.Baklanrov, T.Bek, D.Lixaçov, L.Razqon, B.Okucava, R.Rojdestvenski və s. fəaliyyət göstərirlər.

Rusiya hakim dairəsinin və rejiminin bütün fəaliyyəti dünya mason təşkilatının məntiqinə əsasla-

nır. Üçtərəfli Komissiyanın üzvü yüksəkdərəcəli mason, "Bnay-Brit" lojasının rəhbəri **H.Kissincer** deyib: **"Mən istərdim, Rusiyada xaos və vətəndaş müharibəsi olsun və Rusiya mərkəzi dövlətə çevrilsin"**. Bu o, deməkdir ki, bütün müttəfiq respublikalar, muxtar rspublikalar və vilayətlər müstəqillik qazansın. Rusiya Moskva və onun ətrafından ibarət olsun. "Bnay-Brit" ordeninin digər rəhbəri **Z.Bjezinski** daha sərt deyib: **"Rusiya parçalanacaq və nəzarət altında olacaq".** Mason funksionerləri Rusiyanın parçalanması və zifləməsi üçün müxtəlif planlar tərtib edirlər. Bu planlar Amerikanın onlarla elmi-tədqiqat insitutları, başda "Reyn korporeyşn" insitutu olmaqla illərlə işləyib, plan hazırlayıblar. Həmin planlar Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin sifarişi və vəsaiti hesabına hazırlanır. Bu planlara əsasən Rusiya iqtisadiyyatının dağıdılması və iqtisadi potensialının Qərb ölkələrinə verilməsi nəzərdə tutulur. Məhz bu məqsədlə Qərb müşavirlərin məsləhəti ilə dövlət mülkiyyətinin özəlləşdirilməsi, qiymətlərin liberallaşdırılması və digər iqtisadi islahatlar tələm-tələsik həyata keçırılməyə başlayıb. Nəticədə ölkə iqtisadiyyatı dağılır, mülkiyyət dəyər-dəyməzə satılır, korupsiya vüsət alir, işsizlik ordusu yaranır. Ölkə iqtisadiyyatı bir neçə onillik geriyə düşür. Bütün bunlar əhalinin iqtisadi və sosial vəziyyətini ağır vəziyyətə salır və milyonlarla adamın ölümünə gətirib çıxarır. Yeltsinin hakimiyyəti dövründə, 1991-1999-cu illərdə Rusiya əhalisi ildə bir milyona qədər azalırdı. Ona

görə, Dövlət Dumasının komissiyası B.Yeltsini rus xalqının genosidində ittiham edib.

Rusiya haqqında Avropa Birliyi və mason lojasının planı da maraqlıdır. Onların planına görə, Rusiyanı parçalayıb, Kalininqradı Almaniyaya, Koreyanı Finlandiyaya, Kuril adalarını Yaponyaya, Sibirin şimal hissəsini Amerikaya vermək nəzərdə tutulurdu. Rusiyada vətəndaş müharibəsi və ya xaos olacağı halda "Beynəlxalq birlik" Rusyanın işğalını da nəzərdə tuturdu. Əsas da Rusiya nüvə silahlarının terroristlərin əlinə keçməsindən ehtiyyat edirdilər.

Bütün bu tədbirlərin hazırlanmasında Avropa Şurasının patronajlığı altında bir çox mason lojaları iştirak ediblər. Onlardan Fransa "Böyük Şərq", Fransa "Milli" lojaları, Türkiyə Böyük Lojası, İspanya Böyük Simvolik Lojası, İtalya Böyük Lojası və s. göstərmək olar. Onların hazırladığı plan "Sərhədsiz Avropa" şüarı altında həyata keçirilməli idi. 1993-cü ildə beynəlxalq mason təşkilatının müşavirəsi oldu. Müşavirədə beynəlxalq mason təşkilatının bütün loja rəhbərləri və Rusiyada yeni yaradılmış böyük Şərq lojasının rəhbərliyi təmsil olunur, Avropa mason kəşfiyyatı və onun işçi komitəsi yaradılır.

Beləliklə, vahid koordinasiya orqanı əmələ gəlir. Vahid koordinasiya orqanının vəzifəsi Avropa və Şərqi Avropa mason lojalarının fəaliyyətini istiqamətləndirərək, "Sərhədsiz Avropa" hərəkatını həyata keçirməkdən ibarətdir. Bu hərəkat çərçivəsində "Böyük Avropa" komissiyası yaradılır. Bu komissiyaya Parisin meri J.Şirak, liberal İnternasionalın

sədri O.Laibedorf, onun müavini U.Şotli, Belçikanın baş naziri U.Martines, İngiltərənin keçmiş müdafiə naziri D.Petti və Rusiyadan A.Çubays, Y.Ambarsumov, G.Burbulis, K.Borovoy, A.Sobçak, V.Tretyakov ("Nezavisimaya qəzeti"nin redaktoru), Q.Yakunin (keçmiş deputat) daxil olurlar. Nəticədə komissiya 21 dekabr 1993-cü ildə "Böyük Avropa" Xartiyasını qəbul edir. Zahirən azadlıq, demokratiya, insan haqları və sülh ideyalarından dəm vuran Avropa Xartiyası əslində, Rusiyaya qarşı məkrli planlar həyata keçirməyi planlaşdırır. Beləliklə, birinci növbədə Avropa demokratik prinsiplərinə əməl edilməsi tələb edilir. Avropa Xartiyasının tələbi Rusiyanı milli ənənələrindən uzaqlaşdırmaq və Qərb prinsiplərini Rusiyaya tətbiq etmək, Rusiyada provoslav dinini, mənəvi dəyərləri və millətçilik ruhunu zəiflətmək məqsədi güdür. Mason ideoloqları xartiyaya aqresiv millətçiliyə qarşı mübarizə aparmaq məqsədi ilə xüsusi maddə daxil edir. Avropa Xartiyasına Böyük Avropa konstitutsiyası tərtib edilməsini təklif edirlər. Bu maddə pərdəsi altında dini fundamentizmə, eyni zamanda Provoslav və müsəlman dinlərinə qarşı mübarizə aparılır. Mason ideoloqları Avropa Xartiyasına Böyük Avropa konstitutsiyası tərtib edilməsini təklif edirlər. Burada məqsəd dövlət strukturları üzərində yeni nəzarət qurumu, ümum avropa dövlət qurumu yaratmaq və Rusiyanın daxili işlərinə qarışmaq, qanunların qəbuluna, dövlət strukturlarının işinə nəzarət etməkdən ibarətdir. Bu da müstəqilliyin itiril-

məsinə gətirib, çıxarır. Nəhayət, mason ideoloqları Avropa Xartiyası və müxtəlif vasitələrlə Rusiyadan Asiyaya qarşı dayaq məntəqəsi kimi istifadə edilməsini də təklif olunur. Bu məqsədlə Qərbi Avropa, Amerika və Kanadanın iştirakı ilə hərbi müqavilənin bağlanması təklif edilir. Belə müqavilə ümum avropa təhlükəsizliyini təmin etmək məqsədi ilə Rusiyanı Asiyaya qarşı hərbi əməliyyatda iştirakını nəzərdə tutur. Sorosun "Tarixi böyük pullar yaradır" şüarını əldə əsas tutan mason ideoloqlarının planları və ideyaları şübhəsiz ki, utopik və qeyri realdır. Lakin masonluğun tarixini, müasir fəaliyyətini və son məqsədlərini nəzərdən keçirəndə aydın olur ki, masonlar tarix boyu bu utopik ideyalarla dünya hökmranlığına çatmaq xülyasına xidmət etmiş, ayrı-ayrı dövlətləri, xalqları, millətləri inqilablara, milli münaqişələrə, iqtisadi böhranlara sürükləmiş, faciə və fəlakətlərə məruz qoymuşlar. Masonluğun tarixini araşdıran tədqiqatçı alimlər göstərirlər ki, tarix boyu baş verən inqilablar o cümlədən, 1648-ci il İngiltərə, 1789-cu il Fransa böyük inqilabı, 1917-ci il Rusiya bolşevik inqilabları masonluğun fəaliyyəti ilə bağlıdır. Bir sözlə, masonluq insanlığın və bəşəriyyətin düşməni olmaqla, yəhudiliyin dünya hökmranlığına çatmaq üçün vasitədir. **(O.Platonov. "Rusiyanın alaq çələngi").**

## MASON ARXİVLƏRİ

**İ.V.Stalinin masonluğa münasibəti.** İkinci dünya müharibəsi sübut etdi ki, masonluğun insanlığa qarşı apardığı düşmən siyasətini ifşa etməklə, ona qarşı mübarizə aparmaq olar.

Nasistlər masonlar haqqında sənədləri və masonların siyahılarını dərc etdikdən sonra Qərb dövlətlərin mason rəhbərləri amansızcasına cəzalandırıldılar. 1933-1945-ci illərdə Fransada, Almanyada, İspanyada, Skandinaviya ölkələrində və s. Avropa ölkələrində 85 mindən çox mason güllələndi. Faşist Almaniyası Fransanı işqal etdikdən sonra mason təşkilatları haqqında cinayət işi başlandı. Təkcə Fransa "Böyük Şərq" lojasından 5210 nəfər cinayətə cəlb edilir. Onlardan 219 nəfər sürgünə göndərilir, 117 nəfər güllələnir.

Fransa "Böyük Loja"sından 1250 nəfər cinayətə cəlb edilir. Onlardan 520 nəfər sürgünə göndərilir, 180 nəfəri güllələnir. Ancaq Fransada 6000-dən çox masona cinayət işi açılır.

1944-cü ildə general de Qollun rəhbərliyi altında Fransada müvəqqəti hökumətin qurulması masonların canını ölümdən qurtarır.

18 oktyabr 1944-cü ildə Fransanın "Böyük Şərq" və "Böyük Loja"ları birlikdə general de Qolla mək-

tub yazaraq, bildirirlər ki, Fransa masonluğu müvəqqəti hökumətə sadiq olacaqlar. **(N.Berberova adamlar və lojalar).** A.Hitler masonları "süni yəhudilər" adlandırırdı. Ikinci dünya müharibəsi baş verməsəydi, biz masonluq haqqında lazımi məlumat əldə edə bilməzdik. Məsələ burasındadır ki, Hitler Almaniyası Avropanı işğal edəndən sonra mason arxivlərini, müxtəlif məxfi təşkilatların və xüsusi xidmət orqanlarının arxivlərini ələ keçirmişdi.

XVIII əsrdən 1939-cu ilə qədər olan mason arxivlərində on minlərlə mason lojalarının iclas protokolları, məktub, təlimati göstərişlər, maliyyə hesabatları və s. sənədlər imkan verirdi ki, masonluğun cinayətkar xarakterli fəaliyyəti barədə aydın təsəvvür yaransın. Mason təşkilatlarının dövlətləri siyasi təsir altına almaq barədə fəaliyyəti və dünya hökmranlığına yönəlmiş siyasəti aydınlaşdı.

1945-ci ildə Almaniyanın aşağı Sileziya şəhərində, köhnə qəsrlərdən birində Sovet ordusu mason sənədləri ilə dolu onlarla vaqon ələ keçirdi. Vaqonlar Qərbi Avropa haqqında, Almanya, Belçika, Fransa, Hollandiya, Lüksemburq, Polşa, Çexoslovakiya mason təşkilatları haqqında ən məxfi sənədlərdən ibarət idi. Əldə edilən sənədlər "azad bənnaların" gizli hakimiyyəti və təxribat xarakterli fəaliyyətinin mexanizmi barədə aydın və dərin təsəvvür yaradırdı.

İ.V.Stalin və SSRİ-nin siyasi rəhbərliyi mason arxivlərinin böyük əhəmiyyətini dərhal başa düşüb, Sovet rejimini möhkəmləndirmək məqsədi ilə on-

dan istifadə etməyə başladılar. Mason arxivlərinin dərhal Moskvaya gətirilməsi əmri verirdi.

Moskvada mason arxivlərinin etibarlı qorunub, saxlanması üçün hərbi əsirlərin əlilə xüsusi bina inşa edilir. Binanın pəncərə və qapıları dəmirdən hazırlanır və ilk gündən mason arxivlərinə SSRİ-nin ən məxfi xüsusi statusu verilir. Belə bir obyektin varlığı haqqında SSRİ-nin yuxarı eşalonunda olan dövlət məmurlarının məlumatı yox idi. Arxiv yaradılan gündən Stalinin ölümünə qədər onun sənədləri diqqətlə öyrənilir, hətta bəzi sənədlər tərcümə edilirdi. Xüsusilə, XVIII əsrə aid sənədlər çox ciddi və diqqətlə araşdırılır, Qərbin gizli hakimiyyət texnologyası təkamülü öyrənilir və nəticə çıxarılır. SSRİ-nin qəniməti olandan sonra Qərbi Avropanın mason arxivləri Sovet rəhbərliyinə müharibə qabağı Avropa siyasətini tam açmağa imkan yaratdı və aydın oldu ki, Qərbi Avropanın həyata keçirilməsi nəzərdə tutulan siyasəti mason lojalarının mətbəxində hazırlanıb.

Əlbəttə, Sovet rəhbərliyi əvvəllər də bu barədə məlumata malik idi. Lakin bütün bunların sənədlərlə təsdiq olunması bir daha inamı artırdı. Zəbt edilmiş sənədlərdən bir çoxu İ.V.Stalinə imkan verirdi ki, Qərbin hakim dairələrinə müəyyən təsir göstərsin və öz mövqeyini möhkəmləndirsin. Zəbt edilmiş sənədlər masonluğun sionizmlə əlaqəsini, axırıncıların masonluqda hakim vəziyyətdə olması faktını bir daha təsdiq etdi. Masonluğun yəhudi dairələri və sionist təşkilatları tərəfin-

dən maliyələşdirilməsi Stalində böyük narahatlıq yaratdı. Xüsusilə, bu məsələ Fələstində Yəhudi dövlətinin yaradılması və belə bir dövləti Krımda yaratmaq cəhdinə təsadüf edirdi. Yəqin bu məsələlər Stalini kosmopolit siyasətinə, masonluq və sionizmə qarşı mübarizəyə sövq etmişdir.

Siyasi Büro iclaslarının birində Stalin Molotov (SSRİ xarici işlər naziri, Siyasi Büronun üzvü) haqqında belə demişdir: **"Çağir yoldaş Molotovu, heç fikirləşmədən partiya yolunda canını verər. Ancaq yoldaş Molotov bununla belə, həyat yoldaşını da çox sevir. Biz burada, Siyasi Büroda hər hansı məsələni müzakirə edib, qərar qəbul edən kimi, onun həyat yoldaşı Polina (Palermo) Jemçujinanın məlumatı olur. Onun vasitəsi ilə dostları xəbərdar olurlar. Onun dostları etibarsız adamlardır. Onlar gizli təşkilatlarla əlaqə saxlayırlar. Bundan başqa yoldaş Molotov təklif edir ki, Krımı yəhudilərə verək və onlar orada muxtariyyət yaradsınlar. Niyə biz Sovet Krımını yəhudilərə verməliyik. Onların Birobican vilayəti var. Qoy onu inkişaf etdirsinlər".** Sonradan aydın olur ki, SSRİ xarici işlər naziri, Siyasi Büronun üzvü Molotovun yəhudi əsilli arvadı Polina Jemçujina beynəlxalq yəhudi millətçi təşkilatı "Djoynt"-ın üzvüdür. Təşkilatın qarşıya qoyduğu vəzifə SSRİ rəhbərlərinin fiziki yolla aradan götürən və ölkədə ictimai-siyasi quruluşu dəyişib, burjua-demokratik respublikası yaratmaqdır. "Djoynt" təşkilatını Amerika Mərkəzi Kəşfiyyat İdarəsi yaratmışdı və təşkilata Meyerhold rəhbərlik edirdi. 1953-cü ildə məşhur hə-

kimlər məsələsilə əlaqədar təşkilatın üzvləri həbs edildilər. V.Molotovun həyat yoldaşı P.Jemçujinada 10 il sürgünə göndərildi. Onun məsələsi Siyasi Büroda müzakirə edilərkən Molotov bitərəf qalır, lehinə səs verməsə də etiraz etməyib. Çox maraqlıdır ki, eyni məsələyə görə, SSRİ Ali Sovetinin sədri M.Kalininin həyat yoldaşı da 10 illik sürgünə göndərilib. O da yəhudi əsilli olub. N.S.Xruşşovun birinci arvadı Qorskaya (yəhudi əsilli olub) da sürgunə göndərilib. Onun həyat yoldaşını sürgünə göndərəndən sonra Stalin əlindəki çubuqla daz başına vurub və deyib ki, axmaq, sən mənə hələ sonralar "sağol" deyəcəksən.

Maraqlıdır ki, bolşevik inqilabının yəhudi olmayan rəhbərlərinin əksəriyyətinin həyat yoldaşları yəhudi olublar.

**Mason arxivlərinin aqibəti.** Rusiyada masonluq bərpa olunandan sonra və hakimiyyəti ələ alandan sonra onların qərb masonluğu qarşısında ən böyük xidmətlərindən biri o oldu ki, Sovet ordusunun böyük qan bahasına əldə etdiyi hərbi qənimət olan mason arxivlərini Qərb masonlarına hədiyyə edib, qaytardılar. A.Yakovlevin və E.Şevardnadzenin himayəsi altında arxiv müəssisəsinin direktoru Prokonetko sənədləri hazırlayıb, qaydaya salır və A.Kozırev gizli şəraitdə məxfi müqavilə bağlayıb, mason arxivlərini Qərb ağalarına qaytarır.

## RUSİYADA MASONLUQ

Rusiyada masonluq XVIII əsrin əvvələrindən başlayaraq, Avropa masonluğunun təsiri altında yaradılıb və inkişaf etdirilib. Avropa mason lojaları Rusiyada masonluğu yaymaq uğrunda həmişə rəqabət aparıblar. Qərb masonluğundan fərqli olaraq, Rusiya masonluğu müstəqil və sərbəst fəaliyyət göstərə bilməyib. Qərb masonluğu dünyəvi siyasətdə ideoloji və siyasi lobbi rolunu oynadığı halda, rus masonluğu xarici mason təşkilatlarından asılı olmaqla, milli şüurdan məhrum bir qrup şəxsdən ibarət idi. Onların çoxu üçün rus xalqının adət-ənənələri, milli maraqları heç bir əhəmiyyət kəsb etmirdi. Masonluq rus xalqının milli adət-ənənələrinə uyğun gəlmədiyindən, ilk vaxtlar - XVIII əsrin əvvələrində Rusiyada yaradılan mason lojalarında xarici masonlar fəaliyyət göstərirdilər. XVIII əsrin ikinci yarısında xüsusilə, II Yekaterina hakimiyyəti dövründə Yelagin, Novikov və başqaları masonluğu inkişaf etdirirdilər. Masonluqda rus ziyalıları xalqdan ayrı düşmüş mason rituallarına uyaraq, Rusiyanı Qərb yönümünə salmaq üçün müxtəlif proekt və kombinasiyalar qurmağa çalışırdılar. Ən əsası o idi ki, Rus masonluğu XVIII əsrin əvvələrindən başlayaraq, həmişə Qərbi Avro-

pa mason ordenlərinin filialı kimi fəaliyyət göstərib və onların rəhbərlərinin bütün təlimat və göstərişlərini yerinə yetirirdilər. Hətta qısa müddətdə müstəqil fəaliyyət göstərdikləri zaman rus masonlarının daxili həyatına xarici mərkəzdən nəzarət edilirdi. Bütün bunları sübut etmək üçün Rus masonlarının xarici mason rəhbərlərilə məktublaşmasına nəzər yetirmək kifayətdir. Xaricdəki rus masonlarına məlumatlar dövri məktublar və göstərişlər mütəmadi olaraq daxil olurdu. Xarici mason rəhbərlərinin hörməti Rus masonları üçün qanuni hökumətdən üstün idi.

Bir neçə dəfə rus masonları ilə gizli sövdələşməyə girərək, "Böyük mason həqiqətlərini" həyata keçirmək xəttini müdafiə edib, onu gerçəkləşdirməyə çalışıblar. Bunun da arxasında dünyanı yeni qayda ilə idarə etmək planı durur.

Arxiv sənədləri göstərir ki, Qərbi Avropa masonluğu Rusiyada yaratdıqları mason lojalardan Rusiya dövlətinə təsir vasitəsi kimi istifadə ediblər.

Rusiyaya masoluğu Avropaya pəncərə açan I Pyotr gətirmişdi. Masonluğun təsiri altında Rusiyada Avropa qaydaları bərqərar olmağa başladı. Avropa qaydalarını Rusiyada I Pyotr zorla qəbul etdirirdi. Avropa masonluğu istiqamətindən, qolundan asılı olmayaraq, Rusiyada yaymaq uğrunda rəqabət aparırdı. Alman (templiyerlər) lojası Moskva və Peterburqda İsveç sistemi ilə mübarizə aparırdı. Almaniya İsveç sisteminin yaradıcısı V.Selendorf (1731-1782) ingilis ana lojasına üstünlük verirdi.

Rus masonluğunun başlanğıc mərhələsində Alman və İsveç lojaları Rusiyanı təsir altına almaq uğrunda mübarizə aparırdılar. Onların bir çoxu rus çarının yanında xıdmət göstərək, saray klanlarını təşkil edirdilər. Mason lojaları o qruplara xidmət göstərdilər ki, onların vasitəsilə Moska və Peterburqda daxili prosesləri müşahidə edib, öz milli maraqlarını təmin etsinlər. Məsələn, İsveç bir neçə əsr mübarizə apararaq, Rusiyaya Baltik və Barens dənizinə çıxmağa imkan vermirdi.

XII Karl Rusiyanın Qərb torpaqlarını qoparmaq istəyirdi. Masonluğa daxil olmuş İsveç monarxları (onlar bu gündə mason lojalarına rəhbərlik edirlər) Selendorf sisteminə əməl edərək, Rusiya lojalarını da həmin sistem üzrə qurmağa çalışırdılar. Bundan başqa 1740-cı ildə alman sistemi və alman masonları başda olmaqla, onlara II Fridrix rəhbərlik edirdi. II Fridrix rus elitasını öz ordeninə cəlb edərək, onlardan elə funksiyaların icrasını tələb edirdi ki, onlar adi casusluqdan fərqlənmirdilər.

"Üç qlobus" Berlin lojası (rəhbəri II Fridrix) rus masonluğunun əsas hissəsinə nəzarət edirdi və onların arxivini saxlayırdı. Sonra Moskva və Peterburqda "Ciddi rütbə" sistemini yaydılar. O da baron Xundanın adını daşıyırdı. Rusiyada alman ordenlərinin fəaliyyəti təmənnasız keçmirdi. Rusiya sarayındakı dəyişiklik II Fridrixi məğlubiyyətdən qurtardı. III Pyotrun hakimiyyətə gəlməsi Prussiya xeyrinə müqavilə ilə nəticələndi. Peterburqda III Pyotr masonluğa rəhbərliyi öz üzərinə

götürmüş və mason lojalarının iclaslarını Peterburq yaxınlığındakı Oranienbaumda keçirirdi. III Pyotr keçmiş Qolştin səhzadəsi idi və Prussiya ordenlərinə hörmətlə yanaşırdı. Alman ordeninə daxil olanlar üçün birinci şərt lojada ciddi intizamdır və rütbəcə böyüyün sözü, tapşırığı aşağıdakılar üçün qanundur. II Fridrix lojada III Pyotrdan rütbəcə böyük idi. Nəticədə Rusiyanın ziyanına, Prussiyanın xeyrinə müqavilə bağlanır və II Fridrixin malikanələri qaytarılır.

1762-ci ildə mason intiriqaları nəticəsində III Pyotr öldürüldü və II Yekaterina (alman prinsesası, əsl adı Sofiya Avqusta Niqalterbskaya) hakimiyyətə gəldi. Ilk vaxtlar II Yekaterina masonların işinə qarışmadı. Hətta Avropa masonları Didro və Volter ilə yazışırdı. Ona görə də mason lojalarını yüksək rütbəli elitalardan Trubetskoy, Qolitsın, Roman Vorontsov və s. daxil olurlar. Rus masonluğunun milli mənafeyə doğru dönüş Yelagın və Novikovun adı ilə bağlıdır. 1765-ci ildən Peterburqda "Ciddi rütbə kapitulu" fəaliyyətə başlayır. Onun qanadı altında Peterburqda "Qora", "Laton", "Nemizdi", Moskvada "Qarpokrat", Riqada "Apollon" lojaları yaradılır.

1772-ci ildə, fevralın 26-da rus mason təşkilatına rəhbərlik edən Yelagin rus mason lojalarının İngiltərə "Böyük Şərq" lojası tərəfindən təsdiq edilməsinə nail olur və özü onun əyalət böyük magistri seçilir. 1776-cı ildə Moskvada "Oziris" lojası yaradıldı. Bu loja ancaq knyaz nəslindən olanlar üçün nəzərdə tutulmuşdu.

1782-ci ildə Vilnemsbad konventində Rusiya masonluğunu Qromomeystr Ferdinand təmsil edirdi və Rusiya "8-ci əyalət Ciddi rütbə" elan edildi. Mason lojalarının həm xarici aparıcılara tabe olması, həm də xoşagəlməz rituallara əməl etməsi II Yekaterinanı narahat etməyə başladı. Novikovun (mason) marifləndirici fəaliyyəti ictimai fikri oyadırdı. Rusiyada isə alışdırıcı material çox idi.

Puqaçov üsyanı (1773-1775) ölkəni silkələdi. Kəndli üsyanının rəhbəri ildırım tək Volqaboyunu keçərək, döyüşdə Yekaterinanın qubernator və sərkərdələrini məğlub etdi, mülkədar malikanələrini alova bürüdü. Təhkimçilik ruhu təhlükə altında idi. II Yekaterina Radişşev və Novikovun kitabları haqqında məlumat alandan sonra masonluğa münasibətini dəyişməyə başladı.

Radişşevin kitabı "Peterburqdan Moskvaya səyahət" adlanırdı. Kitabda kəndlilərin alqı-satqı sistemi, mülkədarların onlarla vəhşi rəftarı, çar məmurlarının satqınlığı ifşa olunurdu. Kitab həmçinin, yüksək rütbəli mason Aleksandr Kutuzova həsr edilmişdi. A.Kutuzov Berlinə masonluğun ali sirlərini öyrənməyə ezam olunmuşdu. II Yekaterinaya məlumat verilmişdi ki, Novikovun mətbəəsində təhlükəli mahiyyət kəsb edən kitablar nəşr edilir.

II Yekaterinanın sərəncamı ilə mətbəə bağlanır, 18 min kitab müsadirə edilərək yandırılır, II Yekaterina massonluğun fəallaşmasını Fransada radikal əhval-ruhiyyə və inqilabi fəaliyyətlə əlaqələndirirdi. Bunlardan başqa II Yekaterinanı narahat edən

oğlu I Pavelin ətrafında masonluğun günü-gündən güclənməsi idi. Berlindən I Pavelə xüsusi kitablar gətirilirdi. Bu işdə mason Novikov və Bacenov xüsusi fərqlənirdilər. I Pavelin masonluğa cəlb edilməsi barədə söz-söhbət gedirdi. Deyilənlərə görə, I Pavel 1778-ci ildə Yelaginin evində masonluğa qəbul edilmişdi. Onun şərəfinə mahnılar qoşurdular. "Çələng ilə bəzənmisən, sən bizim şahımızsan". II Yekaterina qəti qərar qəbul edir, Radışşevi sürgünə göndərmək, Novikovu həbs etmək barədə sərəncam verir. II Yekaterina 1 avqust 1792-ci il tarixli fərmanında əsas ittihamları göstərir. **Birinci**-onlar (masonlar) gizli yığıncaq keçirir, dəhşətli andiçmə və ordenin sirrini heç kimə, hətta hökumətə belə açmamaq, hər cür əzaba dözmək, ölüm qarşısında da tab gətirmək barədə and içirlər. **İkinci**-qanuni hökumətdən kənar onlar özlərini hersoq Braunşveyqə tabe edib, onun ixtyarına keçiblər. **Üçüncü**-onlar müxtəlif vasitələrlə öz lojalarına Şahzadə cənablarını (I Paveli) cəlb edirlər. **Dördüncü**-qanunazidd, xristianlığa zidd kitablar buraxırlar. II Yekaterina humanistlik edərək Novikovun ölüm cəzasını 15 illik həbs cəzası ilə əvəzləyib, onu Şliselburq qalasına göndərir. Qalan masonlar yüngül cəza və qorxu ilə canlarını qurtarmışlar.

1796-cı ilin noyabrın 6-da II Yekaterina vəfat edir. I Pavel taxta çıxır və Rusiyaya çarlıq edir. Masonluğa yenidən geniş meydan açılır. Novikov həbsdən azad olunur və saraya dəvət alır. Yenidən

masonluq fəallaşır və Rusiyada milli maraqlar arxa plana keçir. 1801-ci ildə I Pavel süi-qəsdçilər tərəfindən qətlə yetirilir. Taxta onun oğlu I Aleksandr çıxır. Yeni imperator da masonluğa xeyir-dua verir.

1802-ci ildə saray əyanı Şeremetyev (anası I Pavelin qətlində iştirak edib) Peterburqda "Birləşmiş qardaşlar" lojasını açır. Lojada imperatorun qardaşı Konstantin Pavloviç, hersoq Vyurtemberqski, qraf Narışkin, qraf Balaşov (gələcək polis naziri), qraf Benkendorf daxil olurlar. 1803-cü ildə Peterburqda "Neptun" aristokrat lojası açılır. Lojaya Qolenişşev-Kutuzov rəhbərlik edir.

Rusiyada masonluğun inkişafı üçün münbit şərair yaranır və mason lojaları durmadan artmağa başlayır. O dövrün aparıcı qüvvəsi olan masonluğa aid bəzi məqamlar maraqlıdır. Xarici qüvvələrin təsiri altında fəaliyyət göstərən masonluğa elə adamları cəlb edirlər ki, onların vasitəsilə Rusiyanın daxili və xarici siyasətinə təsir göstərə bilsinlər. Rusiyanın məşhur adamlarından III Pyotr, I Pavel, I Aleksandr, sərkərdələr Suvorov, Kutuzov, tarixçilər Karamzin, Klyuçevski, ədiblər Puşkin, Qriboyedov, dekabristlər Pastel, Muravyev, Trubetskoy, Bestujev və onlara qoşulan Turgenev qardaşları mason təşkilatının üzvü olmuşlar.

Bunların bəziləri L.N.Tolstoyun "Hərb və sülh" romanında əsərin qəhrəmanları kimi qələmə alınmışlar. L.N.Tolstoy "Hərb və sülh" romanında rus masonluğunun problemlərini Napoleonun Rusiyaya yürüşü ilə əlaqədar əks etdirir. Əbəs yerə ro-

manın qəhrəmanı sadəlövh, həyatın mənasını axtaran, masonluğa daxil olmuş Pyer Bezuxov seçilməyib. L.N.Tolstoy Pyer Bezuxovun simasında masonluğun mənəvi boşluğunu, utopiyanı əks etdirir. Pyer hiss edirdi ki, söykəndiyi mason dayaqları ayağının altından qaçır. Bununla belə, o, masonluğa daha möhkəm bağlı olduğunu hiss edirdi. Sanki bataqlığın düz səthinə ayaqlarını qoyub, dizə qədər bataqlığa batmış və daha çıxmağa imkanı qalmamışdır.

Masonluqla bağlı iki dahi şəxsiyyətin həyatı və fəaliyyəti daha maraqlıdır. Onlardan biri böyük rus tarixçisi Karamzin, digəri dahi rus şairi A.S.Puşkindir. Rus masonlarının tapşırığı ilə Karamzin 1790-cı ildə Avropaya səyahətə çixir. Karamzin Volterin və Russonun qəbrini ziyarət edir, mason ideoloqları ilə görüşür. Onlarla söhbətdən belə nəticəyə gəlir ki, xarici mason ideoloqları ölkəsinə, rus xalqına və mədəniyyətinə həqarətlə baxırlar. Bundan təsirlənən Karamzin rus səyyahlarının məktublarını belə qurtarır: **"Mən Rusiyadayam. Namımı saxlayıb rusca danışıram və rus adamlarını sevirəm".** Nəticədə masonluqdan çıxır və rus dövlətinin tarixini yazmağa başlayır.

A.S.Puşkin bu münasibətlə yazır: **"Karamzin yenidən Rusiyanı tapdı, Kolumb Amerikanı tapan kimi".** Karamzin masonluqla əlaqəni tamam kəsir. Sonralar yaşlı vaxtlarında masonlar ona çoxlu vədlər verib, yenidən masonluğa cəlb etmək istəyirlər. Lakin Karamzin imtina edir. A.S.Puşkinin

masonluğu da belə qurtarır. Şair Kişinyovda sürgündə olarkən 4 may 1821-ci ildə "Ovidiy-2" lojasına daxil olur. Lojanın rəhbəri gələcək dekabrist M.F.Orlov idi. Puşkin 1826-cı ilin yanvar ayının 20-də V.A.JCukovskiyə yazır: **"Tutaq ki, hökumət məni əhv etmək istəsə, onlarla mən danışmağa hazıram. Kişinyovda mayor Rayevski, generallar Puşkin və Orlovla dostluq edirəm. Mən Kişinyov lojasında mason idim. Məktubu yandırmamışdan əvvəl Karamzinə göstər və onunla məsləhətləş"**. Şairi dekabristlərə yaxınlaşdıran azadlıq və qardaşlıq şüarı idi. Kişinyovda həmin lojada fransız qardaşlarla yaxınlaşır və görür ki, onlar da Rusiya ilə bağlı hər şeyə yuxarıdan-aşağı baxırlar. Onlardan birini şair duelə çağırır. O, gəlməkdən imtina etdikdə ona təhqiredici məktub yazır. Belə təsir altında olan şair masonluqla əlaqəsini kəsir və Karamzin kimi, Rusiya tarixini, I Pyotr tarixini yazır. Puşkinin həyatının faciəli nəticəsi onun masonluqdan imtina etməsi ilə əlaqədardır.

A.S.Puşkin haqqında "Literaturnaya qazeta"da maraqlı bir yazı dərc edilmişdi. Yazının başlığı **"Onu masonlar öldürmüşlər"** adlanır. Yazıda A.S.Puşkinin anadan olmasının 200 illiyi ilə əlaqədar Yaponiyada keçirilən tədbirlər yapon alimləri Esimi Kaoru, Xaruna Nonaka, Kasani və başqalarının rəyləri qeyd olumuşdur. Maraqlıdır ki, Kasani inamla sübut edir ki, A.S.Puşkinin ölümünə səbəb onu gənclikdən əhatə edən masonlar olmuşlar. Həmin masonların bir çoxu masonluğun fran-

sız qoluna daxil idilər. Ümumiyyətlə, masonlar onların yolunda maneə olan hər hansı bir şəxsi aradan götürmək üçün müxtəlif vasitələrdən, ən çox kimyadan (zəhərdən) istifadə edirlər.

Indi isə Rusiyada masonluğun tarixində əsas məqamlara nəzər salaq. 1822-ci ildə I Aleksandr hiss edir ki, masonluğun istiqməti xarici masonluğun və gözə görünməyən qüvvələrin təsiri altına düşür və təhlükəli xarakter alır, liberal maskasını çıxarıb, Rusiyada masonluğun qadağan edilməsi barədə fərman verir. Rusiyada masonluq tarixində əsas məqam təxminən iki yüz il sonraya, bizim dövrümüzə təsadüf edir.

Rusiya Ali Sovetnin üzvü V.S.Polosin acı eyhamla demişdir: "**1991-ci ilin axırlarında kütləvi qəzetlərin birində ("Pravda", avqust 1991) B.N.Yeltsin Malta ordeninin rıtsar komandoru (cəngəvəri) libasında əks etdirən fotoşəkli dərc edilmişdi. O, qədim mason təşkilatı olan Malta ordeninin adından verilən xaçı, başqa fərqlənmə nişanlarını, habelə, Assuriya ilahəsi Baunun cənnətlik ordenini qəbul edirdi. Halbuki, məlumdur ki, yezuitlərin Malta ordeni ən qədim ümumdünya mason təşkilatının mərkəzi sayılır. B.Yeltsin imperator I Paveldən sonra Rusiyanın ikinci dövlət başçısıdır ki, Malta ordeninin komandoru libasında açıqca camaat qarşısında görünmüşdür".**

Bu hələ harasıdır. 1992-ci ilin avqust ayında "Pravda" qəzetində B.Yeltsinin Rusiyada masonluğun bərpa edilməsi barədə fərmanı dərc edilmişdi.

Fərmanın mətni belədir: "**1-İuzitlərin Malta ordeni ilə əlaqə bərpa edilsin. 2-xarici işlər nazirinə tapşırılsın ki, bu fərmandan irəli gələn məsələləri həll etsin. Rusiya Federasiyasının prezidenti B.Yeltsin**". O, vaxt Rusiya xarici işlər naziri A.Kozırev idi.

Deməli, Rusiyada masonluq iki yüz il əvvəl I Aleksandr tərəfindən fərmanla qadağan edildiyindən, B.Yeltsin Rusiyada masonluğu və Malta ordeni ilə əlaqəni bərpa etmişdir. Onu da qeyd etmək lazım gəlir ki, B.Yeltsin Malta ordeninin katolik qolu ilə əlaqəni rəsmiləşdirmişdir. Yezuitlərin Malta ordeni Moskvada öz mənzil-qərargahını açmış və hümanitar məsələlərlə məşqul olur. Bu yaxınlarda Moskvada Rusiya Dövlət Kitabxanasında rus masonluğunun 250 illiyinə həsr edilmiş sərgi açılmışdır. Sərginin təşkilatçısı A.Serikovdur. B.Yeltsindən əvvəl M.Qorbaçov Rusiyada mason lojalarının açılmasında fəallıq nümayiş etdirmiş və rəsmi icazə vermişdir. Sanki ölkənin bu iki rəhbəri xəyanət etməkdə yarışa çıxmışlar. Nəticə göz qabağındadır. Rusiya Dövlət Dumasının xüsusi komissiyası qərarla B.Yeltsini SSRİ-nin dağılmasında və Belovejsk müqaviləsinin imzalanmasında, Çeçenistan müharibəsində, 100 mindən çox Rusiya vətəndaşlarının ölümündə, Dövlət Dumasının topa tutulmasında, rus xalqının genosidində, ordunun dağılmasında, 100 milyon qaçqın ordunun yaranmasında günahkar hesab etmişdi. Bütün bunlar mason təşkilatı və xüsusi xidmət orqanlarının, mason siyasətini həyata keçirən müx-

təlif fondların, klubların, komissiyaların təsiri və nəzarəti altında həyata keçirilmişdir. Təəssüf ki, B.Yeltsini əhatə edən adamların arasında bir nəfər belə tapılmamışdır ki, I Pavelin aqibətini ona xatırlatsın. **("Qlasnost" həftəliyi, IV-13, s.6)**

Şübhəsiz ki, Malta ordeninin və digər mason lojalarının üzvü olan dövlət başçıları, dövlət xadimləri və siyasi xadimlər çoxdur. Güman edilir k, onlardan biri də M.S.Qorbaçovdur. Bu münasibətlə **Boris Oleynik "Zülmət sultanı"** kitabında yazır: **"İctimaiyyət heç cür başa düşə bilmirdi ki, siz, M.S.Qorbaçov, məsələn, C.Buş ilə görüşmək üçün niyə... Maltaya gedib çıxmışdınız. O, Maltaya ki, mənfur ada kimi bədnamdır, müxtəlif rıtsar cəmiyyətləri orada yuva salmışlr, qara qüvvələrin gizli iqamətgahı orada yerləşir. Mixayıl Sergeeviç, bəlkə sizi oraya çəkib, aparan məhz bu cəhət olmuşdur? Bəs gəmi hoqqabazlığına nə deyəsən, yoxsa sahildə danışığınıza xəlvəti qulaq asılmayacağına təminat yox idi? Yoxsa dalğaların nəriltisi və şırıltısı lüzumsuz adamların söhbətinizi eşitməyəcəklərinə ən etibarlı təminat, sipər idi. Görünür, belə imiş, Mixail Sergeeviç. Görünür, siz C.Buşla nə barədəsə söhbətləşirdiniz. Allaha xoş gəlməyən elə bir məsələ barəsində ki, ulu tanrının özü qəzəbdən bir neçə dəfə gəmini silkələyib, az qala aşırmışdı".** Sonra B.Oleynik yazır: **"Məgər biz əmin ik ki, yuxarıda danışılan Malta görüşündə M.S.Qorbaçov bütün başqa işlərlə yanaşı, həmin mason təşkilatına üzv qəbul edilməmişdir. Bunun-**

**la əlaqədar olaraq, masonluğun ancaq bir millətin, yəhudiliyin nümayəndələrinə xas olduğunu inadla sübut etməyə çalışanların fikrinə qarşı çıxmağı özümə rəva bilirəm. Onları bir qədər də artıq təəccübləndirib, demək istəyirəm ki, bu bəd əməl beynəlmiləl xarakter daşıyır. Mason təşkilatına cəlb olunanlar arasında sırf slavyanlarla yanaşı, başqa millətlərin nümayəndələri də vardır. Zənnimcə, bu fikrimlə onnonentlərim də razılaşarlar ki, hər halda M.S.Qorbaçov, B,Yeltsin və s.yəhudi deyillər. (B.Oleynik, "Zülmət Sultanı", s. 32-33).** SSRİ rəhbərləri M.S.Qorbaçov, B.Yeltsin, A.Yakovlev, E.Şevardnadze, E.Primakov, V. Bakatin və s. partiya və hökumət rəhbərlərinin masonluğa qəbul edilməsi, onların rəhbəri olduğu ölkəyə, dövlətə xəyanəti barədə əsaslı mənbəələrdən biri **O.Platonovun** bu yaxınlarda çap edilmiş **"Rusiyanın alaq çələngi"** kitabıdır. O.Platonov bu kitabı rəsmi sənədlər və tədqiqat işləri əsasında ərsəyə gətirib. O, hətta Amerika elmi-təhqiqat instutlarında, Amerika Konqresi kitabxanasında, digər təşkilatlarda arxiv sənədləri üzərində işləyib və masonluğun iç üzünü açıb göstərib. Ona görə, masonlar, xüsusilə, Rusiya Böyük Lojası O.Platonova qarşı internet saytında müxtəlif yazılar dərc edirlər və oxucuları O.Platonovu tanımağa çağırırlar. O.Platonovun yazdığına görə, M.S.Qorbaçov və başqaları hələ yenidənqurmadan xeyli əvvəl xarici xüsusi xidmət orqanlarının nəzarəti altında mason lojalarına cəlb edilmişlər. Gələcək tarixçilə-

ri və tədqiqtçıları yəni narahat edən əsas məsələlərdən biri Komunist Partiyası rəhbərlərinin və ideoloqlarınnın mason təşkilatına cəlb edilməsi və xüsusilə, 60-90-cı illərdə ölkəni idarə edənlərin potoloji vəzifəpərəst olmaları, şəxsi mənafeyi xalqın mənafeyindən üstün tutmaları, bəzi hallarda pis əməllərinə görə, hədə-qorxuya məruz qalmaları onları xəyanətkarlığa gətirib çıxarmışdır.

Burada konkret misal olaraq, ölkə başçısı M.S.Qorbaçovun, xarici işlər naziri E.Şevardnadzenin, eyni vəzifədə işləyən Y.Primakovun Amerikadan, Cənubi Koreyadan külli miqdarda rüşvət almalarını göstərmək lazımdır. Məlumdur ki, M.S.Qorbaçov Baş Katib işləyərkən onun aparatının rəhbəri Boldin olub. Boldinin etirafına görə, M.S.Qorbaçov Yaponiya səfərindən qayıdarkən yolüstü Seul aeroportunda qısa müddət ərzində Cənubi Koreya rəhbərliyi ilə görüşüb və ona içində yüz min dollar bağlama veriblər. M.S.Qorbaçov hiss edir ki, Boldin məsələni bilir, onda Qorbaçov Boldinə deyir ki, onlar mənə yüz min dollar pul veriblər, o pulu nə edək. Boldin deyir ki, uşaq evlərinin birinə verərik. Lakin məsələ bununla da bitir və Qorbaçov həmin pulun adını bir də tutmur.

SSRİ xarici işlər naziri E.Şevardnadze 1990-cı ildə Amerikanın İraqa hücumu zamanı satqın siyasətinə görə, Amerikadan 3 milyon dollar rüşvət alıb. Eyni xəyanətkar siyasətə görə Y.Primakov ABŞ-dan böyük məbləğdə mükafat alıb (**"Molodaya qvardiya", 1991.X.c. 220-222**). SSRİ rəh-

bərlərinin belə cinayətkar və xəyanətkar hallara yol verməsinin, dövlətə və xalqa xəyanət etməsinin əsas səbəbi cəmiyyətin və dövlətin idarəetmə mexanizmində və sistemindədir. Komunist Partiyasının xalqdan uzaq düşməsi və xalqın iradəsi ilə hesablaşmaması, hakimiyyəti təkbaşına idarə etməsi belə səbəblərdən biridir. Belə idarəetmə üsulu siyasi həyatda hər hansı məsuliyyəti azaldır və liderlərin xəyanətinə şərait yaradır. Onlar üçün fərqi yoxdur, hansı ictimai-siyasi quruluş olur-olsun, təki öz mövqelərini, vəzifələri qoruyub, saxlaya bisinlər, təki şəxsi rahatlıq, vəzifə, şöhrət olsun. Nəticədə ölkədə ictimai-siyasi quruluş dəyişilir, ideoloqiya və sistem dağılır, məhv olur. Buna baxmayaraq, onların əksəriyyəti hakimiyyətdə rəhbər mövqeni qoruyub, saxlayıblar.

M.S.Qorbaçovun masonluqla ilk əlaqəsi keçən əsrin 90-cı illərinin əvvəlində İtaliyada məzuniyyətini keçirən vaxt olub. O zaman İtaliyada çox güclü fəaliyyət göstərən P-2 lojası (Propoqanda-2) Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin nəzarəti altında M.S.Qorbaçovla əlaqə yaradıb. P-2 lojasının rəhbəri Lico Celli hələ ikinci dünya müharibəsi vaxtından Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin agenti olub. Komunist Partiyasında ikinci şəxs sayılan A.Yakovlev masonluqdan əvvəl MKİ-tərəfindən agent kimi cəlb edilib. Onun masonluqla əlaqəsi Kanadada səfir işlədiyi vaxt 1970-illərin əvvəllərində olub. A.Yakovlevin xarici xidmət orqanları tərəfindən əməkdaşlığa cəlb edilməsi ba-

rədə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sədri A.Kryuçkov şəxsən Baş Katib M.S.Qorbaçova bildirib, o, məsələyə heç bir reaksiya verməyib. **A.Kryuçkov "Şəxsi iş"** kitabında yazır: **"Mən sənədləri hazırlayıb, M.S.Qorbaçovun qəbuluna getdim. M.S.Qorbaçova məlumat verdim ki, həm kəşfiyyat və həm də əks-kəşfiyyat məlumat veriblər ki, Sov.İKP MK-katibi A.Yakovlev xarici xüsusi xidmət orqanları ilə əməkdaşlıq edir". M.S.Qorbaçovun rəngi ağardı, dodaqları əsdi, bir müddət danışa bilmədi. Mən bir qədər gözləyib, soruşdum, nə edək? O, dedi ki, sən onun özü ilə danış. Mən Mərkəzi Komitənin işlər müdiri Boldindən xaiş etdim ki, məni A.Yakovlev ilə görüşdürsün və özü otaqdan çıxıb, bizi tək qoysun. Bununla da məsələ bitdi"**. Az bir vaxtdan sonra demokratlar ölkədə hakimiyyəti aldılar əllərinə və A.Yakovlev də onların xaç atası oldu. A.Kryuçkov çox maraqlı bir məqamı da xatırladır. O, deyir mən sonradan başa düşdüm ki, M.Qorbaçova A.-Yakovlev haqqında məlumat verərkən niyə onun rəngi ağardı, dodaqları əsdi. Sən demə, A.Yakovlev mason lojasında rütbəcə böyükdür. Böyüyün sözü aşağı üçün qanun sayılır.

Yeri gəlmişkən, M.Qorbaçovun, A.Yakovlevin mason olmaları barədə daha bir fakt diqqəti cəlb edir. 2002-ci ilin 7 may tarixində "İzvestiya" qəzetində M.Qorbaçov, A.Yakovlev və K.Titovun yaratdıqları Sosial-Demokrat Partiyasının emblemləri haqqında yazı dərc edilmişdir. Onların yaratdıqları

partiyanın emblemi "qızılgül və əl" dir. Ona belə şərh verilmişdir: qızılgül masonluqda gücün tərəqqisi, əl isə birlik deməkdir. Keçmiş partiya və hökumət funksionerlərindən bir çoxu tərəddüd etmədən "demokratiya" cəbhəsinə keçib, xarici qüvvələrə məmuniyyətlə xidmət etməyə başlayırlar. Belələrindən Y.Afanasyev xüsusilə fərqlənirdi. B.Oleynik "Zülmət sultanı" kitabında yazır ki, keçmiş komsomol və partiya funksioneri Yuri Afanasyevi dostları 1990-cı ilin axırlarında bir neçə dəfə kadr mübadiləsi adı ilə Parisə ezamiyyətə göndəriblər. Hər dəfə Parisdən qayıdanda onda böyük dəyişikliklər nəzərə çarpırdı. Onun yerişi, üzündəki ədası, danışıq tərzi dəyişərmiş. Sən demə, Y.Afanasyev kadr mübadiləsi əvəzinə "Böyük Şərq" mason lojasında özünü təkmilləşdirir və masonluq üzrə dərəcəsini artırır. SSRİ və sosializm dağılandan sonra Qərb masonluğu bu əraziləri öz aralarında bölüşdürüb, masonluğun bərpası ilə məşğul olmağa başlayırlar. Rusiya və Polşada Fransa "Böyük Şərq" və "Milli" lojaları, Yuqoslaviya və Rumıniyada İtaliya masonluğu, Slovakiyada Almaniya masonluğu, Macarıstanda Avstriya masonluğu masonluğun yaradılmasına qəyyumluq edirlər. Bu iş bir daha göstərir ki, masonluq beynəlxalq təşkilatdır və vahid mərkəzdən idarə olunur. Onların şüarı "Bir nəfər hamı üçün, hamı bir nəfər üçün" - əsas fəaliyyəti əks etdirir. Necə ki, Kubada həbs olunan müxalifətin arasında mason qardaşları xilas etmək üçün F.Kastronun qəbuluna çox yüksək səviyyəli nümayəndə

heyəti göndərilir. Amerika mason konfederasiyasının böyük icraçı katibi Rikardo Noryeqanın dediyinə görə, nümayəndə heyəti F.Kastro ilə görüşüb, beş dəqiqə söhbət etdikdən sonra Kuba masonları həbsdən azad olunurlar.

Rusiyada masonluq Fransanın köməyilə bərpa olunub və fəliyyət göstərir. Ona görə, vaxtilə SSRİ-nin rəhbəri N.S.Xruşşov Fransada olanda Fransız masonları ona sual veriblər ki, niyə Rusiyada masonluğun bərpasına icazə vermirsiniz. N.S.Xruşov cavab verib ki, mən yaxamı açıb, bitləri köynəyimin altına buraxa bilmərəm.

Yenidənqurma başlayanda Rusiya (SSRİ) rəhbərliyi 70 illik fasilədən sonra masonluğun bərpasına icazə verərək, şərait yaratdılar. Halbuki, 1922-ci ildə Kominter konqresində Trotski çıxış edərək demişdir: **"Rus torpağında mason düşmən agenti hesab olunacaq".** O vaxtdan masonluğa qarşı amansız mübarizə aparıb, kökünü kəsən sovet qanunları keçən əsrin 90-cı illərində əhəmiyyətini itirdi. Nəhayət, rus masonluğu nəinki bərpa olundu, hətta əvvəlki masonluqdan fərqli olaraq, xarici masonluğun təsiri altından çıxaraq, müstəqillik qazana bildi.

Beləliklə, fransız mason qardaşlar rus mason qardaşlarına hər cür köməklik göstərərək, Rusiyada masonluğa geniş yol açmışlar. Fransa "Böyük Şərq" lojasının magistri Jan-Pyer Raqaşın dediyinə görə, Rusiyada və MDB respublikalarında bu iş öz qaydası ilə gedir. Xüsusilə Rusiyada, Belarusda,

Moldova və Pribaltika respublikalarında masonluq geniş vüsət alır. Rusiyada gedən proseslər beynəlxalq mason təşkilatının, Amerika xüsusi xidmət orqanlarının xüsusi nəzarəti və bilavasitə rəhbərliyi altında inkişaf edir. Bütün proseslər əvvəlcədən elmi əsaslarla işlənib hazırlanmış və mərhələ-mərhələ həyata keçirilirdi. Kommunist rejimini dəyişib, demokratik qüvvələri hakimiyyətə gətirməklə kifayətlənməyən MKİ B.Yeltsinin yerinə alternativ namizədlər hazırlayır ki, birdən Yeltsin sıradan çıxsa, və yaxud prezident seçkilərində seçilməsə, hakimiyyət sol qüvvələrin əlinə keçməsin. Ona görə də 1993-cü ildə növbəti seçkilərdə iştirak etmək üçün iki blok yaradılır. Bunlardan biri "Vıbor Rossii", ikincisi "Yabloko" seçki blokudur. Birinci bloka İ.-Qaydar, F.Filippov, G.Burbulis, Q.Yakunin, A.Çubays, ikinci bloka Q.Yavlinski, Y.Boldırev və b. daxil olurlar. Bu qruplar xaricdən maliyyələşir və istiqamətləndirilir. 1993-cü ilin dekabr ayında "Vıbor Rossii" ABŞ-dan iki milyard dollar vəsait alır. Vəsaitin əsas hissəsi vasitəçi kommersiya təşkilatları tərəfindən ödənilir. Bu blokun təbliğatı üçün yüzlərlə Amerika mütəxəsislərinin işləyib hazırladığı xüsusi klip və filmlərdən istıfadə edib, Y.Qaydar, G.Burbulis, A.Çubays, A.Kozırev, Poltoraninin antirus siyasəti zərərsiz formada xalqa çatdırılırdı. Bütün bunlara baxmayaraq, "Vıbor Rossii" bloku məğlubiyyətə uğradı. Hər ehtimala qarşı ehtiyyat variant Q. Yavlinskinin "Yabloko" bloku idi. Bu blok da xaricdən (ABŞ-dan) maliyyələşirdi. Ancaq Lu-

kin Amerikadan on milyon dollar vəsait gətirmişdi. "Vıbor Rossii" məğlub olandan sonra bütün xarici və daxili demokratlar və onların kütləvi informasiya vasitələri Q.Yavlinskinin imicinə xidmət etməyə başlayırlar.

**Rusiyada masonluğun yenidən dirçəlməsi.** XX əsrin 80-ci illərində xaricdə yaşayan rus masonları Rusiyada masonluğun tarixə çevrilməsindən çox narahat olmağa başlayırlar. Bu problem həm də Qərb masonlarını narahat edirdi. Məsələ həm Fransada yaşayan rus masonları arasında, həm də Qərb mason lojalarında müxtəlif görüşlərdə müzakirə edilməsinə baxmayaraq bir nəticə əldə edilmir. 1988-ci ildə "Rus birliyi" yaradılır və həmin birliyə qırx nəfər müxtəlif dərəcəli mühacirətdə olan mason daxil edilir. Bu birliyin vəzifəsi Rusiyada mason lojaları yaradıb, masonluğu dirçəltməkdən ibarət idi. Lakin birlik Rusiyada masonluğu yenidən dirçəltmək və inkişaf etdirmək sahəsində əməli iş görə bilmədi. Bunun bir səbəbi rus mason birliyində əsl birliyin olmaması idisə, digər səbəbi Rusiyada müxtəlif maneələrin olması idi. Bundan başqa yeni yaradılmış rus mason birliyində fəaliyyət göstərən müxtəlif lojalardan olan müxtəlif dərəcəli masonların müstəqil fəaliyyət göstərirdi. Bu sahədə Fransa "Böyük Şərq" lojası da çox çalışırdı. Fransanın "Böyük Şərq" lojasının böyük magistri **Jan-Pyer Raqaş** "Pravda" qəzetinin müxbiri V.Bolşakova müsahibə verərək demişdir: **"Biz Rusiyada mason lojaları yaratmaq üçün çox-**

**dan iş aparırdıq. Bu məqsədlə Parisdə Sovet səfirliyinin birinci katibi Y.Rubinski ilə əlaqə saxladıq və ondan soruşduq ki, Rusiyada masonluğun fəaliyyəti üçün münasib şərait var, ya yox. Y.Rubinski dedi ki, indiki yenidənqurma şəraitində Sovet İttifaqında masonluğun fəliyyəti üçün hər cür şərait vardır. O, həmçinin, qeyd etdi ki, müəyyən riskdə vardır. Ona görə ki, Rusiyada güclü antimason hərəkatı mövcuddur. Onlardan "Pamyat" təşkilatını göstərdi. Biz başladıq işçi qrupu olan rus qardaşları hazırlamağa. Həmin işçi qrupu Moskva rayonu ətrafında mason lojası yaratmalı idi. Baxmayaraq, Rusiyada mason təşkilatının fəaliyyətinə dövlət orqanları rəsmi icazə vermişdilər, biz işimizi ehtiyatla görürdük".** Sonra Jan-Pyer Raqaş masonluğun hakimiyyətə qarşı heç bir ziyanı olmadığını qeyd edərək demişdir: "**Masonlar qarşılarına hakimiyyəti ələ almaq məqsədi qoymurlar. Əsas məsələ hakimiyyətdə olanlarla əl-bir işləyib, onların köməyi ilə ideyamızı həyata keçirməkdən ibarətdir. Onların masonluğa cəlb olunması könüllü prinsip əsasında həyata keçirilir".**

Fransız və rus masonların ideyalarının gerçəkləşməsinə Rusiyada masonluğun fəaliyyətə başlamasına təsadüf kömək edir. Keçən əsrin 90-cı illərin əvvəlində Yaroslavi şəhərində Fransa "Böyük Şərq" lojasının masonu işgüzar səfərdə olur və təsadüfən Moskvadan olan cavan fəlsəfə müəllimi ilə tanış olur. Cavan filosof masonluğa böyük maraq göstərir. Sonradan məlum olur ki, onun baba-

sı mason təşkilatının üzvü olub. Fransız tanışının mason olmasını öyrənən gənc filosof mason olmaq istəyini bildirir.

Parisə qayıdan fransız masonu özünün yeni tanışı barədə "Böyük Şərq" lojasına məlumat verir. "Böyük Şərq" lojasında qərara alırlar ki, gənc filosofu Parisə dəvət etsinlər. "Qardaşlıq əməyi" lojasında onunla söhbət etdikdən sonra, birdən-birə 3-cü usta dərəcəsinə qəbul edirlər. Bir müddətdən sonra Parisə onun tanışı, ikinci namizəd gəlir. Ikinci namizəd rəssam olur. Onu da bir neçə söhbətdən sonra "Qardaşlıq əməyi" lojasında üçüncü usta dərəcəsinə qəbul edirlər. Hər iki masona təklif edirlər ki, Rusiyada mason lojası yaratmaq üçün beş nəfər də namizəd tapsınlar. Namizədlər tapılandan sonra Fransanın "Böyük Şərq" lojasının yüksək səviyyəli nümayəndə heyəti Moskvaya yola düşür. Nəticədə 70 illik kommunist rejimindən sonra Rusiyada birinci mçason lojası "Severnaya Zvezda"nın 1991-ci ilin aprel ayının 28-də açılışı olur. Ondan sonra masonliğun yayılması və yeni-yeni lojaların açılması üçün geniş meydan yaranır. 1992-ci ilin iyulunda Fransanın "Böyük Şərq" lojasının Böyük Magistri Jan-Pyer Raqaş Moskvaya səfər edir və Ostonkino televiziya kanalının "İtoqi" proqramına müsahibə verir. Yeni yaradılmış Rusiya masonluğu ilə əlaqə saxlamaq və onların işini istiqamətləndirmək məqsədi ilə Parisdə "Qriqori Vırubov" adlı xüsusi inzibati loja təsis edilir. Bir neçə il ərzində bu loja dirçəlməkdə olan Rusiya ma-

sonluğuna əvəzsiz xidmət göstərir. Xüsusilə, mason ritual mətnlərinin, simvolizm üzrə ədəbiyyatın rus dilinə tərcümə edilməsi və Rusiyanın gənc masonlarının təcrübə keçmək məqsədilə Fransa mason lojalarına ezam edilməsi təşkil olunur.

Rusiyada mason lojaları təşkil etmək məqsədilə Fransanın "Böyük Şərq" lojası 1991-ci ilin avqust ayında Fransadan Rusiyaya iki maşın mason ləvazimatı (şamlar, qılınc, mason geyimləri, mason emblemləri, mason nişanları və.s) göndərirlər. Maşınların Rusiyaya gəlməsi 1991-ci ilin avqust hadisələrinə (Fövqəladə Vəziyyət Komitəsinin yaradılması) təsadüf edir. Fransa və rus mason qardaşlar bərk qorxuya düşürlər və həmin ləvazimatlarla dolu maşınları Moskvaətrafı bağların birində gizlədirlər. Dövlət Fövqaladə Vəziyyət Komitəsi məğlub olur və demokratlar (masonlar, MKİ və s.) qalib gəlirlər. Bundan sonra masonlar həmin ləvazimatları yeni mason lojalarının yaradılmasına istifadə edirlər.

1993-cü ildə Rusiyada "Devyat muz", "Severnie bratya" və Arxangelskdə "Polyarnaya zvezda" lojaları açılır. Rusiyada öz mason lojalarını açmaq üçün Fransanın Böyük Lojası da çox səy göstərir və Parisdə A.S.Puşkin lojasına təsir edir ki, rus masonlarını və slavyanları həmin lojaya cəlb edirlər. Məlumdur ki, A.S.Puşkin Kişinyovda sürgündə olarkən masonluğa daxil olmuş, sonradan masonluğu tərk etmişdir. Onun adına mason lojasının təsis edilməsi zahiri görkəm yaratmaq və slavyanları

masonluğa cəlb etmək məqsədi daşıyır."Puşkin" lojasının rəhbərliyi "Azadlıq" radiostansiyasında bir neçə dəfə veriliş aparandan sonra Rusiyadan və başqa respublikalardan çoxlu müraciət edirlər. Həmin masonlar Rusiyaya qayıdır, yeni-yeni namizədlərlə iş aparıb, onları "Severnaya zvezda" lojasına qəbul edirlər. Sonralar Fransanın Böyük Lojasının rəhbərliyi altında 1992-ci ildə Sankt-Peterburqda "Sfinks", Xarkovda "Geometriya", 1993-cü ildə Moskvada "Lyutsiya" lojalarının açılışı olur.

Həmçinin, Fransanın "Böyük Milli" lojası da öz fəaliyyətini gücləndirir və İngilis mason ənənələrinə uyğun işləyərək öz lojalarını yaratmağa başlayır. 1992-ci ildə Moskvada "Harmoniya" lojasını və 1993-cü ildə "Lotos" lojasını açaraq, "Severnaya zvezda" lojasından çıxan masonları ora cəlb edir. Georgi Derqaçovun təşəbbüsü və rəhbərliyi altında 24 iyul 1995-ci ildə Rusiyada "Rusiya Böyük Lojası" yaradılır və Rusiyada fəaliyyət göstərən 10-dan çox mason lojaları birləşdirilir. Beləliklə, Rusiyada masonluq yenidən vüsət alır və nəzərə çarpmadan öz "yaradıcı" fəaliyyəti ilə məşğul olur. Rusiya Böyük lojasının əsasını Rusiyanın müxtəlif şəhərlərində fəaliyyət göstərən mason lojaları təşkil edir. Rusiya Böyük Lojası mason qardaşların yığıncaq keçirdiyi mərkəzdir. Rusiya Böyük Lojası masonluğun mərkəzi təşkilatıdır və digər mason lojaları birbaşa onun rəhbərliyinə tabedirlər.

Rusiya Böyük Lojasının ali orqanı ildə bir dəfə keçirilən Assambleyadır.

Assambleyaarası dövrdə Rusiya Böyük Lojasının rəhbərliyindən təşkil olunmuş Böyük Rəhbər Komitəsi işə rəhbərlik edir. Bu qurum Böyük zabitlərdən ibarətdir. Dərəcə etibarilə Rusiya böyük zabitlərin aşağıdakı vəzifələrini nəzərdə tutur.

1-Böyük ustad

2-Böyük ustadın müavini

3-Böyük ustadın köməkçisi

4-Birinci böyük mühafizəçi

5-Ikinci böyük mühafizəçi

6-Böyük natiq

7-Böyük katib

8-Böyük katibin müavini

9-Böyük ekspert

10-Böyük xəzinədar

11-Böyük xəzinədarın müavini

12-Böyük qapıçı (qapıya nəzarətçı)

13-Böyük mərasim rəhbəri (mərasimə nəzarət edən)

14-Böyük mərasim rəhbəri müavini

15-Böyük arxivarius

16-Böyük bayraqdar

Bu vəzifələrin adlarında böyük sözünün olması bir daha göstərir ki, masonlarda böyüklüyə potoloji meyl çox güclüdür.

Rusiya Böyük Lojasında (RBL) təmsil olunan Böyük zabit üçillyə seçilir və sonra üzvü olduğu lojada öz fəaliyyətini davam etdirir. Rusiya Böyük Lojası dünya masonluq zəncirinin bir hissəsidir və Fransa milli lojasının xəttini davam etdirir. Hazır-

da RBL-nı dünyanın 90-dan çox Böyük Lojaları tanıyıb. RBL-dan başqa Rusiya ərazisində heç bir müntəzəm mason təşkilatı fəaliyyət göstərmir və göstərə bilməz. RBL Sankt-Peterburqda, Moskvada və s. şəhərlərdə fəal iş aparır. Onun tərkibində 33-dərəcəli (ən yüksək) masonlar da vardır. RBL müntəzəm masonluğu təmsil edir. Bu lojanın masonları ancaq Kainatın Ulu Memarını qəbul edir. Özlərini ateist saymasalarda onların Allahı Kainatın Ulu Memarıdır.

Hazırda RBL-nın tabeliyində 17 mason lojası fəaliyyət göstərir. RBL özlüyündə 300 masonu birləşdirir. Onların tərkibində çoxlu siyasətçilər və biznesmenlər vardır.

G.Derqaçov Rusiya Böyük Lojasına 2002-ci ilin aprel ayına kimi rəhbərlik edir və onu bu vəzifədə Dmitri Denisov əvəz edib. Bu yaxınlarda (2006-cı ilin birinci yarısı) D.Denisovu adı gizli saxlanılan Böyük Usta əvəz edib. Mason lojasının rəhbəri illik Assambleyada seçilir. Mason lojasında tütün və spirtli içkiyə qadağa qoyulmayıb. Bayram ziyafətində (aqapa) müxtəlif sağlıqlar deyilir, xüsusilə hakimiyyət və Böyük Ustadın sağlığına badələr qaldırılır əgər mason qardaşlardan kimsə sərxoşdursa, onda daxili mühafizə zabiti onu zaldan çıxarır və deyir: "Qardaş çox yorulub, ona istirahət lazımdır". Lojanın iclasında heç kəs papiros çəkmir. Iclasdan sonra Böyük Zabit elan edir: "Tütünə icazə verilir". Assambleyanın iclasına mason qardaşlar qara pencək və qalustukda gəlməlidirlər.

Tarix elmləri doktoru, masonluq üzrə mütəxxəsis **Sergey Karpaçev** yazır: "**Bu gün bir Böyük Loja vardır ki, onu dünyanın bütün Böyük Lojaları tanıyır. Bu, Rusiyanın Böyük Lojasıdır. Onun rəhbərliyi altında 10-dan çox mason lojaları fəaliyyət göstərir. Qalan mason lojaları özbaşına yarananlardır. Onlar nə istəsələr, deyə bilərlər, hər hansı ritualları keçirə bilərlər, lakin onların masonluğa aidiyyatı yoxdur.**" Əsrlərlə xarici masonluğun təsiri altında fəaliyyət göstərən rus masonluğu Rusiya Böyük Lojası timsalında müstəqil fəaliyyət göstərməyə başlayır. Rusiya Böyük Lojasının aqibəti necə olacaq və siyasi şəraitə necə təsir göstərəcək? Onu zaman bilər. Avropa masonluğuna nisbətən cavan olan Rusiya masonluğu intensiv inkişafda olmaqla, qızğın fəaliyyətdədir.

Rusiyada masonluq dirçəlir. Lakin Rusiyada masonlar hələlik Amerikada və Avropada olduğu kimi, özlərinin mason təşkilatına mənsub olduqlarını açıqlaya bilmirlər. Ona görə ki, əhalinin bir qismi bu məsələyə qəzəbli münasibət bəsləyir. Sosializm psixologiyası çoxunun şüurunda hələ də qalıb. Həmçinin, tarix boyu hakimiyyət belə gizli təşkilatları təqib edib. Ona görə, mason ordeninə mənsub olanların siyahısı, mason ritualları, gizli sözlər, tanınma işarələri məxfi saxlanılır. Mason rituallarının gizli saxlanılmasının xüsusi əhəmiyyəti vardır. Mason qardaşlar mason ritualları ilə ancaq masonluğa qəbul və masonluq dərəcələrinin artırılması zamanı tanış olurlar. Ona görə, həyata ke-

çirilən rituallar masonluğa yeni qəbul edilən, dərəcəsi artırılan masona qeyri-adi təsir göstərir və xüsusi effekt verir. Belə vəziyyət dərin təsir göstərməklə, daxili mənəvi gərginlik yaradır.

**Rusiya Böyük Lojasının əsas qanunları.** Rusiya Böyük Lojasının əsas qanunları (konstitusiyası) 1 fevral 1997-ci ildə Böyük Lojanın illik Assambleyasında qəbul edilib. Assambleya Moskva şəhərində keçirilib. Rusiya Böyük Lojası Fransanın Milli lojasının rəhbərliyi altında yaradılıb və onu özünə ana loja hesab edir, Fransa Milli Lojasının konstitusiyasını, masson adətlərini, mənəvi təsirini və fasiləsiz mason zəncirini davam etdirir.

**Əsas prinsipləri:** Masonluq öz başlanğıcını orta əsr operativ bənnalıqdan götürüb və onun rituallarının əsasında tikinti işlərinin simvolizmi durur.

**Masonluq** - onun üzvlərinin Allaha, Kainatın Ulu Memarına olan inamına əsaslanır. Masonluğun dünyagörüşünün prinsipləri iki əsas məsələyə yönəlir: "**Özün-özünü dərk elə**" və "**Özünə arzuladığını başqası üçün elə**". Masonluq öz vəzifəsini insanlığın mənəvi cəhətdən təkmilləşməsində və həqiqi, praktiki xeyirxah əməllərində görür. Masonluq - öz üzvlərinə tövsiyə edir ki, başqasının fikrinə hörmətlə yanaşsınlar. Siyasət və dinə aid məsələlərin müzakirəsi qəti qadağan edilir.

Mason lojasına toplananlar öz ölkəsini sevməli, onun qanunlarına və qanuni hökumətinə sadiq olmalı, əməyi insanın əsas vəzifəsi hesab etməlidir, bütün varlığı ilə mason sirrini qorumalıdır.

Həqiqi mason hətta şəxsi həyatı təhlükə qarşısında olsa belə, mason qardaşlarına daim kömək etməlidir. Hər cür təhlükə qarşısında özünü sakit aparmalı və ələ almağı bacarmalıdır.

**Müntəzəm masonluğun on iki prinsipi:**

1. Masonluq qardaşlıq cəmiyyətidir, Allaha-Kainatın Ulu Memarına inama əsaslanır.

2. Masonluq qədim qardaşlıq ritualı və Landmarkaya əsaslanır. Qədim ritual və Landmarka özündə ordenin xüsusi ənənələrini cəmləşdirib. Həmin ənənələrə riayət etmək hər bir orden üzvü üçün məcburidir.

3. Masonluq ordeni öz sıralarına azad və qüsursuz adamları qəbul edir. Həmin adamlar könüllü olaraq, sülh, məhəbbət və qardaşlıq naminə çalışmalıdırlar.

4. Masonluq öz vəzifəsini öz üzvlərinin və bütövlükdə cəmiyyətin mənəvi təkmilləşdirilməsində görür.

5. Masonluq bütün qardaşlara tövsiyyə edir ki, bütün rituallara riayət etsinlər, mason simvolizmini qoruyub, saxlasınlar.

6. Masonluq bütün qardaşlara tövsiyə edir ki, bir-birinin təklif və inamına hörmətlə yanaşsınlar. Masonluq siyasi və dini qarşıdurma yaradan məsələlərin müzakirəsini qardaşlara qadağan edir.

7. Masonlar inam bəslədikləri müqəddəs kitaba və qanuna təntənəli sürətdə and içirlər ki, orden qarşısında götürdükləri öhdəlik müqəddəs gücə malikdir və dönməzdir.

8. Masonlar profanlar dünyasını tərk edib, lojalarda yığışırlar ki, konstitusiya və ümumi reqlamentə uyğun əzmlə işləsinlər.

9. Masonlar öz lojalarına ancaq nümunəvi əxlaq və hörmət sahiblərini qəbul edirlər. Lojaya qəbul olunanlar bütün sahədə qardaşlığa layiq olmalı və Kainatın Ulu Memarının böyük yaradıcı qüvvəsinə inanmalıdırlar.

10. Masonlar lojalarında öz vətəninə, onun qanuni hakimiyyətinə və qanunlara hörmət təlqin edirlər. Onlar əməyi bütün formada insanın yüksək və şərəfli vəzifəsi hesab edirlər.

11. Masonlar öz nümunəvi fəaliyyəti və gərgin əməyi ilə ordenin çiçəklənməsi naminə mason sirlərini qoruyub saxlayırlar.

12. Masonların vəzifə borcu hətta bu iş onların həyatına təhlükə törətsə belə, bir-birinə kömək edib, qorumaqdan ibarətdir. Onlar bütün şəraitdə təmkinli olmalı, özlərini idarə etməyi bacarmalıdırlar.

## MASONLARIN VƏZİFƏLƏRİ

Masonlar təntənəli and içib, öhdələrinə götürürlər ki, ordenin heç bir sirrini həqiqi, qanuni qardaşlardan başqa kimsəyə açmasınlar. Onlar həmçinin, mason qardaşlarına məhəbbət bəsləməli, lazım olanda köməyini əsirgəməməlidirlər. Həmçinin, onlar yuxarıda qeyd olunan on iki prinsipə əməl etməli, hörmətlə yanaşmalıdırlar.

- Masonlar hesab edirlər ki, bütün adamlar, onların ictimai vəziyyəti və qabiliyyətindən asılı olmayaraq, eyni hüquqa malikdirlər. Onlar özlərinə borc bilirlər ki, öz nümunəvi fəaliyyəti ilə cəmiyyətdə qardaşlıq, bərabərlik və adamlara qayğıkeşlik nümayiş etdirsinlər,

- Masonlar çalışırlar ki, orden üzvlərini mənəvi və zehni cəhətdən təkmilləşdirsinlər. Təcrübədə insanpərvərlik nümayiş etdirsinlər. Bu məqsədlə simvolik tövsiylərdən və universal sistemdən, xeyriyyə fəaliyyətindən istifadə edilsin.

- Mason lojası elə bir yerdir ki, orada harmoniya və qardaşlıq məhəbbəti hökm sürür. Orada heç bir profan ehtirasına yol yoxdur. Mason iclasları zamanı bütün qardaşlar özlərini elə aparmalıdırlar ki, öz hərəkətləri və ya sözləri ilə iclasın harmoniyasını pozmasınlar.

- Masonlar ordenə ancaq azad və yüksək mənəvi keyfiyyətə malik adamları qəbul edirlər ki, onlar öz ruhi və mənəvi təkmilləşdirmə yolunda fəal işləsinlər. Onlar öz fəaliyyətlərini dinindən, irqindən, millətindən və ictimai vəziyyətindən asılı olmayaraq, həyata keçirirlər.

- Heç bir masona icazə verilmir ki, öz mason əşyalarını, fartuk (önlük), fərqlənmə lentini, başqa nişanlarını lojadan kənar nümayiş etdirsin. Bunlardan ancaq lojada iclasda istifadə etmək olar.

- Heç bir masona icazə verilmir ki, istər mason nəşriyyatında və istərsə profan nəşriyyatında ordenə aid sənədləri dərc etdirsin. Xüsusilə, mason qanunlarına zidd, ordenin hörmətinə xələl gətirən və orden üzvlərinin fəaliyyətinə aid sənədlərin dərc edilməsi qadağandır.

- Bütün mason qardaşlar öhdələrinə götürürlər ki, Rusiya Böyük Lojası tərəfindən tanınmamış mason lojalarının işində iştirak etməsinlər.

- Bütün mason qardaşlar Rusiya Böyük Lojası tərəfindən tanınmış və onun inzibati ərazi dairəsində yerləşən mason lojalarına hörmət etməyə borcludurlar.

**Böyük Lojanın tanınmasının əsas prinsipləri.** Böyük Lojaların tanınması üçün Rusiya Böyük Lojası qərar qəbul edərkən İngiltərənin birləşmiş Böyük Lojalarının 4 sentyabr 1949-cu ildə qəbul etdiyi qaydaları əsas tutur:

1. Yaranmasının müntəzəmliyini: hər bir Böyük Loja qanuna müvafiq yaradılmalı və qanuni yara-

dılmış Böyük Loja tərəfindən və yaxud qanuni yaradılmış üç loja tərəfindən tanınmalıdır.

2. Kainatın Ulu Memarna və onun iradəsinə inam ordenə mənsubluğun əsas şərtlərindən biridir.

3. Ordenə qəbul olunanlar açıq müqəddəs qanun kitabına and içməlidirlər.

4. Böyük Lojanın və yaxud başqa lojanın üzvləri ancaq kişilərdən ibarət olmalıdır. Heç bir Böyük Lojanın üzvü qadın olan qarışıq loja ilə mason əlaqəsində olmamalıdır.

5. Böyük Loja öz inzibati ərazi dairəsində bütün lojalara və masonluğun simvolik dərəcələrinə (şagird, usta köməkçisi və usta) müstəqil və qeyd-şərtsiz rəhbərlik edir.

6. Masonluğun üç böyük atributu (müqəddəs qanun kitabı, pərgar, nauqolnik) Böyük Lojanın və ona tabe olan lojaların iclası zamanı lojada olmalıdır. Onlardan əsası müqəddəs qanun kitabı sayılır.

7. Dini və siyasi məsələlərə dair müzakirə lojada qəti qadağan olunur.

8. Qədim landmark (ritual) prinsipinə, adət-ənənəsinə ciddi əməl edilməlidir.

Böyük Ustad, Böyük Katib, Böyük Natiq imzaları göründüyü kimi, Rusiya Böyük Lojasının fəaliyyətinin əsasını təşkil edən qanun və prinsiplər humanist xarakter daşıyır və simvolik masonluq (birinci üç dərəcə - şagird, usta köməkçisi və usta) üçün nəzərdə tutulub. Simvolik masonluq mason siyasətinin müəyyənləşdirilməsində iştirak etmir, ancaq mason siyasətinin icraçıları kimi iştirak edir-

lər. Mason siyasətini isə mason piramidasının lap yuxarıdərəcəli masonları müəyyənləşdirirlər.

Rusiya Böyük Lojasında tətbiq edilən rituallar qədimdir və yüzillərlə heç bir dəyişikliyə məruz qalmayıb. Lakin bir çox ölkələrin mason lojaları sadələşdirilmiş ritualları tətbiq etməyə başlayıblar. Xüsusilə, Amerika masonluğunda sadələşdirilmiş rituallar tətbiq edilir. Belə vəziyyət Şotland Nizamnaməsi əsasında fəaliyyət göstərən mason lojalarına da aiddir. Rusiya Böyük Lojası müntəzəm masonluğun tərkib hissəsi kimi, dünyanın 90-dan çox mason lojası tərəfindən qəbul edilib və onunla İngiltərənin birləşmiş Böyük Lojası, Şotlandiyanın Böyük Ana Lojası, İrlandiyanın Böyük Lojası, Fransanın Böyük Milli Lojası, Almaniyanın Birləşmiş Böyük Lojası, Avstriyanın Böyük Lojası, Türkiyənnin Böyük Lojası, Nyu-Yorkun Böyük Lojası və s. Lojalar qardaşlıq əlaqəsi saxlayıb, işləyirlər. M.S.Qorbaçov və onun kimilər haqqında.

B.Oleynik "Zülmət sultanı" kitabında SSRİ-yə rəhbərlik edənlərin, başda M.S.Qorbaçov olmaqla, satqın və xəyanətkar əməllərini açıb göstərir. Onlardan A.Yakovlev, V.Bakatin, B.Yeltsin, Y.Primakov, G.Arbatov, E.Şevardnadze, V.Medvedev və b. xüsusilə fərqlənirdilər. Adları çəkilən şəxslər SSRİ rəhbərliyində M.Qorbaçovdan sonra yuxarı vəzifə sahibləri idilər. Onların vətənə, ölkəyə və rəhbərlik etdikləri dövlətə xəyanət edib, xarici qüvvələrə xidmət göstərmələri bəşəriyyət tarixində görünməyən hadisədir. Dəxli yoxdur, hansı iç-

timai-siyasi quruluş olursa-olsun, hansı ölkə olursa olsun belə xəyanətin bir adı var-vətən xaini, dövlətə xəyanət. M.S.Qorbaçov iblis oyunlarında axırıncı piyada olsa da, onun şeytani əməli quruluşun dağılmasında həlledici rol oynayıb. M.S.Qorbaçovun SSRİ rəhbərliyinə gəldiyi ilk vaxtlarda xalq arasında belə bir şaiyə gəzirdi ki, güya xallı Mixayil gələcək və cəmiyyətə fəlakət gətirəcək. Hətta mətbuatda bu fikrin Nostradamusun olduğu da yazılırdı. Həqiqətən əsrin sonunda SSRİ kimi, böyük bir dövlətə rəhbər təyin edilən M.S.Qorbaçovun başında çəhrayı rəngdə iri xal var idi. Minilliyin və əsrin sonunda dağıdıcı prosesin vüsət alması təbiətdə baş verən proses və kataklizmlərə uyğun gəlirdi. Cəmiyyətdə milli münaqişə, müharibə ocaqlarının yaranması milyonlarla adamların evindən-eşiyindən didərgin düşüb, qaçqınlıq problemi yaranması, on minlərlə günahsız adamların qanına qəltan edilməsi, şəhər və kəndlərin dağıdılıb, viran qalması, bir çox ölkələrdə dövlət quruluşunun dəyişdirilməsi və digər problemlərin təbiətdə baş verən kataklizmlərlə eyni vaxta düşməsi təsadüfi xarakter daşımır.

Elm sübut edir ki, hər minilliyin və əsrin sonunda və əvvəlində Kosmosda və Günəşdə keyfiyyət dəyişikliyi baş verir. Nəticədə bizim planetdə kataklizmlər artır, zəlzələ, daşqın, vulkan püskürməsi, və s. hallar çoxalır. Eyni zamanda cəmiyyətdə də müharibə, milli münaqişə, çəkişmə, vuruşma halları fürsət alır. Həqiqətən diqqət yetirsək, görə-

rik ki, ikimininci ilin sonunda və ya üçüncü minilliyin əvvəlində dünyanın bir çox ölkələrində İranda, Türkiyədə, Ermənistanda, Hindistanda, Azərbaycanda, Cənubi Amerika ölkələrində və s. ölkələrdə bir-birinin ardınca baş verən zəlzələlər, Avropanın bir çox ölkələrində-İngiltərə, İtaliya, Almaniya, Rumıniya, Ukrayna, Çexoslavakiya, Rusiya, Çin, Yaponiya, Efiopiya və s. ölkələrdə güclü daşqınlar, bir sıra ölkələrdə vulkan püskürməsi çoxlu insan təlafatına səbəb olmuşdur.

Çox maraqlıdır ki, M.S.Qorbaçovun hakimiyyətə gəlmiş təbiətdə və cəmiyyətdə baş verən dağıdıcı proseslərə təsadüf edir. Onun hakimiyyətə gəlməsi nəinki rəhbəri olduğu ölkə xalqları ümumilikdə bəşəriyyət üçün böyük fəlakət gətirdi. Müharibə, milli münaqişə, ərazi işğalı, qaçqın problemi baş alıb gedirdi. Qarabağda, Sumqayıtda, Bakıda, Oşda, Fərqanədə, Tiraspolda və Şərqi Avropa ölkələrində minlərlə günahsız adamların qanı töküldü, milyonlarla adam qaçqın düşdü. Üstəlik, bədbəxt hadisələr bir-birinin ardınca baş verməyə başladı, gəmilər toqquşub, dənizdə batır, qatarlar qəzaya uğrayır, qasırğalar baş verir.

Çernobıl Atom Elektrik Stansiyası partlayır, yaşayış binaları, ictimai obyektlər partlayış nəticəsində dağıdılır və s. Belə vaxtlarda okultizmə (fövqəltəbii qüvvə) meyl güclənir. Çoxlu falabaxanlar, cadugərlər, görücülər, ovsunçular, sehrbazlar, gözbağlayıcılar, bir sözlə, şarlatanlar meydana gəlir.

Dağıdıcı qüvvələr (masonlar, xarici xüsusi xidmət orqanları) bütün bunlardan bacarıqla istifadə edirlər. Keçən əsrin 90-cı illərin axırlarında Ümumittifaq televiziyası ilə Kaşpirovskinin teleseansları bütün ittifaq üzrə aparılırdı. Kaşpirovski və Çumakın televiziya ilə apardıqları seanslar adamlara güclü təsir edirdi. Dağıdıcı qüvvələr (masonlar) məqsədlərinə çatıb, SSRİ-ni dağıdandan sonra Kaşpirovski və Çumaka ehtiyac qalmadı. O vaxtdan onlar bir daha görünmədilər.

İsveçrə filosofu **Deni Derujmon "Şeytanın payı" kitabında (Nyu-York 1956)** Şeytanın fəlsəfi formulunu və müasir cəmiyyətdə Şeytanın fəaliyyətinin xülasəsini verib. Onun formullarını nəzərdən keçirəndə M.S.Qorbaçovun və onun məsləkdaşlarının xəyanətkar fəaliyyəti diqqəti cəlb edir.

**Şeytanın fəlsəfi formulu aşağıdakılardır:**

1. Şeytanın birinci fəndi özünün yoxluğunu sübut etməkdir. M.Qorbaçov da çalışıb sübut etsin ki, quruluşun və dövlətin dağıdılmasında onun günahı yoxdur. Heç kəs öz dağıdıcı fəaliyyətini etiraf etməz. Etiraf etsə, müqəddəs olar. M.Qorbaçovda Şeytan fəndindən istifadə edib, məsuliyyətdən kənarda qalır.

2. Şeytan dağıdıcı işinə haqq qazandırmaq üçün külli miqdarda əsas tapır və üstəlik, Nobel mükafatına layiq görülür. Rəhbəri olduğu ölkəni, dövləti xarici qüvvələrə satan, onminlərlə günahsız adamların qaçqın düşməsinə səbəb olan şeytani əməllərinə görə, cinayət məsuliyyətinə cəlb

olunmaq əvəzinə Nobel mükafatı alır. Bu hansı məntiqə və sağlam düşüncəyə uyğun gəlir?

3. Şeytan dünyaya hakim olmaq istəyir. M.Qorbaçov, A.Yakovlev, B.Yeltsin və başqaları mason siyasətinə uyaraq, dünya hökmranlığına can atırlar. M.Qorbaçov mason siyasətini (qlobal siyasət) həyata keçirən Beynəlxalq Münasibətlər Şurasının həmsədridir. Onun mənzil - qərargahı Nyu-Yorkda Karneqi Fondu məskunlaşan binada yerləşir.

4. Şeytan zülmət sultanıdır. B.Oleynik "Zülmət sultanı" kitabını M.Qorbaçovun dağıdıcı və şeytani fəaliyyətinə həsr edib. Kitabın sonunda B.Oleynik M.Qorbaçovdan soruşur: M.Qorbaçov, siz kimsiniz və nə üçün bu dünyaya gəlmisiniz?

5. Şeytan işıq mələyi kimi görünməyə çalışır. Işıq mələyi - Lyusifer Allaha müxalif çıxan İblisdir. Bəzi yuxarıdərəcəli masonlar Lyusiferə sitayiş edirlər. M.Qorbaçov da özünü mələk kimi qələmə verməyə çalışır.

6. Şeytan deyir, mənim adım Legiondur. Ona görə ki, biz çoxuq. Beşinci Koloniya nəzərdə tutulur. Buraya dissidentlər, nüfuz agentləri (Amerika Mərkəzi Kəşfiyyat İdarəsi SSRİ-də beş minə yaxın nüfuz agentləri (agenti vliyaniya) hazırlayıb), masonlar və s. xəyanətkar ünsürlər daxildirlər. M.Qorbaçov bütün bunlara şərait yaratmaqla, onlara qəyumluq edib. Deməli, ən böyük Şeytandır.

7. Şeytan yalançı və yalanın atasıdır. M.Qorbaçov sözdə yenidənqurmadan, demokratiyadan, yeniləşdirilmiş sosializmdən danışa-danışa onu dağıtdı.

8. Şeytan qaranlıqda, arxada, tərsinə iş görməyi sevir. M.Qorbaçovun əməllərinin əksəriyyəti indi də qaranlıq qalır. Məsələn, onun Maltada, gəmidə Amerika prezidenti C.Buşla görüşü və müzakirə olunan məsələlər o qədər xəyanətkar və məxfi xarakter daşıyıb ki, iki superdövlətin prezidentləri düz və rahat yer tapa bilməyiblər, Maltada, dənizdə, gəmidə görüşüblər.

M.Qorbaçovun şeytani əməli ölkə rəhbərliyində yüksək vəzifə tutan məsləkdaşlarına da uyğun gəlir. Bu sahədə B.Yeltsin ondan geri qalmır. B. Yeltsin də onun kimi, mason oyunlarına uyub, ölkəsinin marağını qurban verib. Onun rəhbərliyi (1991-1999) dövründə Rusiya xarici qüvvələr tərəfindən idarə edilib, varidatı hərraca qoyulub, iqtisadi, siyasi, sosial və hərbi vəziyyəti acınacaqlı hala düşüb. B.Yeltsinin ailə klanına yol tapan Berezovski, Qusinski, Xodorkovski, Smolenski, Abramoviç və başqa yəhudi əsilli fırıldaqçılar milyardlarla varidata sahib olublar. Rəhbəri olduğu ölkəyə xəyanət edib, mason andına sadiq qalanlardan biri də E.Şevardnadze olub. O, SSRİ kimi super dövlətin xarici işlər naziri, Siyasi Büronun üzvü olduğu ölkəsinin marağını Amerikaya satdığı üçün külli miqdarda rüşvət alıb. E.Şevardnadze xarici işlər naziri işləyən zaman M.Qorbaçovun məktubunu Tehranda Ayətullah Xomeyniyə təqdim edərkən, xəstə yatan imam Xomeyni ona oturmağa yer təklif etməyib, E.Şevardnadze gedəndən sonra deyib: “Bir adam ki, rəhbəri olduğu

ölkənin marağını xarici qüvvələrə sata, ona yerdə oturmaq haramdır". Sonra əlavə edib ki, bu cənab təkcə xarici işlər naziri deyil. 2002-ci ilin sonunda Rusiya Dövlət Duması E.Şevardnadzenin SSRİ xarici işlər naziri işləyəndə Protokola imza atıb, Uzaq Şərqdə dəniz ərazisinin Amerikaya verməsi məsələsini müzakirə edib. Sonralar onun barəsində cinayət işi qaldırmaq təklif olundu. Lakin E.Şevardnadze müstəqil dövlətin prezidenti olduğundan, o iş bağlandı.

İsveçrə filosofu Deni Derujmonun yazdığı Şeytanın fəlsəfi formulu çoxdur və bu formullar M.Qorbaçovun məsləkdaşlarına çox uyğun gəlir. Sağlam düşüncə və məntiqə sığmır ki, böyük dövlət başçısı və yaxud nazir olasan, nəyə görəsə ölkənin marağını xarici qüvvələrə satasan. Niyə belə adamlar imkan ola-ola xeyirxah işlərlə yox, dağıtmaq, adamlara bədbəxtlik gətirməklə məşqul olurlar? Deni Derujmonun yazdığına görə, belə adamlar başqa cür hərəkət edə bilməzlər, çünki onların təbiəti Şeytanın təbiətinə uyğun gəlir. Axı Şeytanı da Allah yaradıb, onların da yaşamağa haqqı var.

Başqa bir filosof Dilon yazır ki, yer üzərində yaşayan adamların yarısı Allah partiyasının üzvüdürlər, haqq yolunda çalışır, xeyirxah işlərlə məşğul olurlar, yarısı Şeytan yolunda. Bu iki partiyanın mübarizəsi Xeyirlə Şərin mübarizəsidir. Bu mübarizə Həzrəti Adəmlə Həvvanın cənnətdən qovulduğu gündən bu günədək davam edir. Biz şeytan

əməlli şəxslərin fəaliyyətini nəzərdən keçirəndə belə nəticəyə gəlirik ki, onlar masonluğa cəlb olunmuş, Kainatın Ulu Memarına sədaqətlə xidmət edəcəklərinə and içmişlər. And içdikləri üçün mason lojasından verilən tapşırıq onların ölkələrinin maraqlarına zidd olsa belə, əməl edirlər. Burada Bolqarıstan Kommunist Partiyasının rəhbəri G.Dmitrovun dedikləri təkrar da olsa, bir daha yerinə düşür. O, deyir: "**İctimaiyyət tez-tez təəccüblənir ki, məhşur dövlət xadimləri milli və dövlət əhəmiyyətli məsələlərdə tələsik və əsassız olaraq öz mövqelərini dəyişirlər, sözdə bir şey deyirlər, əməldə tamamilə əksinə hərəkət edirlər. Zahiri müşahidəçilər üçün bütün bunlar məntiqsiz və anlaşılmaz görünür. Mason təşkilatının işi ilə tanış olanlar üçün hər şey aydındır. Onlar adətən müvafiq lojaların göstərişlərini və tapşırıqlarını icra edirlər. Hətta belə göstərişlər rəhbərlik etdiyi xalqın və ölkənin zərərinə olsa belə. Belə ki, üzvü olduğu lojanın intizamına danışıqsız əməl etmələri barədə and içiblər**".

G.Dmitrovun bu sözləri müasir dövr üçün, xüsusilə SSRİ-də yenidənqurmanın müəllif və icraçıları üçün aktual olaraq qalır.

# TƏSİR AGENTLƏRİ
## (agenti vliyaniya)

Beynəlxalq mason təşkilatları Amerika və Qərbi Avropa ölkələrinin xüsusi xidmət orqanları ilə birgə fəaliyyəti nəticəsində SSRİ ərazisində beş minə qədər təsir agentləri hazırlanmışdır. Bu proses ikinci dünya müharibəsindən sonra başlanmış və Stalinin ölümündən sonra sürətlənmişdir. Ikinci dünya müharibəsindən sonra, 1947ci ildə Amerika Strateji Xidmət İdarəsinin Amerika Mərkəzi Kəşfiyyat İdarəsinə çevrildiyi iclasda Amerika prezidenti (Amerika ali masonluğunun rəhbəri) Qarri Trumen Amerika kəşfiyyatı qarşısında vəzifə qoyaraq demişdir ki, komunist rejimini xaricdən gücilə dağıtmaq olmaz, onu ancaq daxildən dağıtmaq mümkündür. O vaxtdan Amerika Mərkəzi Kəşfiyyat İdarəsi beynəlxalq mason təşkilatının imkanlarından istifadə edərək, bu vəzifənin icrasına başlayıb.

Kəşfiyyat xidməti terminində "təsir agenti"- bir dövlətin vətəndaşı başqa dövlətin mənafeyinə xidmət edir, bu məqsədlə hakimiyyətin yuxarı eşalonunda, ölkə rəhbərliyində, siyasi partiyada, parlamentdə, kütləvi informasiya vasitələrində, elmdə, incəsənətdə, mədəniyyətdə və s. tutduğu mövqedən istifadə edir. Bu problemlə işləyən mütəxəsis-

lər Amerika xeyrinə çalışan təsir agentlərinin bir sıra xarakterik xüsusiyyətlərini qeyd edirlər.

**Birinci** - ictimai şüura, bütövlükdə ictimaiyyətə və ya ayrı-ayrı regional qruplara təsir etmək imkanına malik olmaq.

**Ikinci** - mütləq müəyyən şəbəkənin tərkibinə daxil olmaq və fəaliyyət göstərmək.

**Üçüncü** - məqsədə çatmaq üçün obyektiv çalışqanlıq nümayiş etdirmək və xarici ağanın tapşırığını yerinə yetirmək. Bu işi öz ölkəsinin mənafeyinə xidmət kimi nəzərə çatdırmaq.

**Dördüncü** - mütləq qrup halında və ya fərdi qaydada təlimatı kurs keçmək. Bu iş müxtəlif metod və forma üzrə aparılır. Adi mühazirədən tutmuş, intim, fərdi söhbətə kimi. Bu barədə xüsusi təlimatlar mövcuddur.

**Beşinci** - arxa plana aid böyük funksionerlərin işi xüsusi əhəmiyyət kəsb edir. Agent nə qədər güclüdürsə, bir o qədər dərində gizlədilir. Onlar siyasətdə və idarəetmədə "boz kardinal" adlanırlar və icra yox, idarə edir, xarici ağalarının tapşırıqlarını özündən aşağı agentlərə çatdırır və işin icrasına nəzarət edirlər.

Maraqlıdır ki, keçən əsrin altmışıncı illərində Mərkəzi Kəşfiyyat İdarəsinin tərbiyyə edib, hazırladığı təsir agentləri ilə 80-ci illərin axırlarında meydana gələn yenidənqurma icraçılarının iş üsulu və metodlarında heç bir fərq yoxdur. SSRİ-nin dağıdılmasında iştirak edən təsir agentlərinin ideya və iş üsulları barədə İkinci dünya müharibəsinin sonun-

da Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru A.Dalles belə demişdi: **"Müharibə qurtarar, hər iş qaydasına düşər. Biz bütün resursları, qızıl və maddi vəsaitləri adamların düz yoldan sapdırılmasına yönəldərik. Insan beyni və şüuru dəyişməyə qadirdir. Biz insanların şüurunda xaos yaradıb, hiss olunmadan onu saxta dəyərlərə inanmağa məcbur edəcəyik. Biz öz məsləkdaşlarımızı, köməkçilərimizi Rusiyanın özündə taparıq. Epizod-epizod təkəbbürlü rus xalqının keçmişini unutdurub, mənəvi dəyərlərini yaddaşlardan silərik. Bütün bunlarla ədəbiyyat və incəsənətdən onların sosial mahiyyətini silərik. Ədəbiyyat, teatr, kino aşağı insani hissləri təbliğ edəcək. Biz o sənətkarları müdafiə edəcəyik ki, insan şüuruna seks, zorakılıq, sadizm, satqınlıq, xəyanətkarlıq, əxlaqsızlıq və s. bu kimi keyfiyyətləri yeritsinlər. Biz dövlətin idarə ounmasında xaos və qarışıqlıq yaradarıq.**

**Şərəf və ləyaqət gülüş obyekti olacaq, onlara keçmişin qalığı kimi baxılacaq. Biz işimizi gənc nəsldən, uşaqlardan başlayacağıq. Həyasızlıq, yalan, sərxoşluq, narkomaniya, satqınlıq, millətçilik, xalqlar arasında düşmənçilik - bax, bütün bunları cəld və hiss olunmadan yayacağıq. Beləliklə, biz nəslləri ardıcıl olaraq pozacağıq. Uşaq və gəncləri pozmaqla, onları casus və kosmopolit edəcəyik". ("Pravda" 11.3.1994.)** 1953-cü ildən 1962-ci ilədək Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru işləyən A.Dalles bir sıra məxfi proqram hazırlayır və həmin proqramı Amerikanın Milli

Təhlükəsizlik Şurası təsdiq edir. Həmin proqramda yuxarıda deyilən məsələlər xüsusi yer tutur.

Həmin proqramın əsas bəndlərindən biri Rusiyada məsləkdaşların, müttəfiqlərin və köməkçilərin hazırlanmasına həsr olunub. Bu sahədə Amerika xüsusi xidmət orqanların uğurlu olan ilk təşəbbüsü keçən əsrin altmışıncı illərinə təsadüf edir. Həmin illərdə sovet vətəndaşlarından A.Yakovlev və O.Kalugin (sonralar DTK-nin generalı, hazırda Amerikada yaşayır) Kolumbiya Universitetində birillik kurs keçərkən Amerika xüsusi xidmət orqanları tərəfindən əməkdaşlığa cəlb ediliblər.

Keçən əsrin 70-ci illərində Sov.İKP Mərkəzi Komitəsinin rəhbərliyi yanında təsir agentləri F.Burlatski, G.Arbatov, Y.Primakov, A.Bovin, G.Şahnəzərov (hamısı yəhudi, bir erməni) müşavir kimi fəaliyyət göstərərək, ölkənin siyasi rəhbərliyini yanlış istiqamətdə qərar qəbul etməyə yönəldirlər. Getdikcə təsir agentlərinin hazırlanması planlı xarakter alır. 1980-90-cı illərdə qrup halında Amerikaya, təlimati kurs keçməyə gedənlərin sayı artır və onların bütün xərclərini Kribla İnstitutu, müxtəlif fondlar, komissiyalar ödəyir.

Bu proqramın sovet dövləti əlehinə həyata keçirilməsi o vaxtki, sovet rəhbərliyinə, şəxsən M.S.Qorbaçova bəlli idi.

SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sədri V.Kryuçkovun yazdığına görə, "Amerika Kəşfiyat İdarəsinin Sovet vətəndaşlarından təsir agentləri hazırlanması planı " haqqında M.Qorbaçova mə-

lumat təqdim edir. Heç bir tədbir görülmür. Əksinə, M.Qorbaçovun, A.Yakovlevin ətrafına V.Korotiç, G.Arbatov və s. bu kimi, tanınmış şəxslərdən ibarət təsir agentləri toplaşır.

İlk vaxtlar belə agentlərin dairəsi çox dar idi. M.Qorbaçovun və A.Yakovlevin siyasi hakimiyyətə gəlməsi və onlara qəyyumluq göstərmələri agentləri inamlı fəaliyyət göstərməyə sövq edirdi. Belə vəziyyət Amerika xüsusi xidmət orqanlarının işini asanlaşdırırdı. Ölkədə tam cəzasızlıq şəraiti hökm sürürdü. Eyni zamanda təsir agentləri özlərini yeni ideya uğrunda mübarizlər kimi təqdim edirdilər. Bu işdə MKİ-nin yaratdığı müxtəlif vasitəçi qurumlar (Rusiya islahat üzrə ictimai komitə, demokratiyaya Amerika milli yardımı, Kribla İnstitutu, müxtəlif fondlar, komissiyalar və s.) Rusiyada geniş fəaliyyət göstərirdilər.

Kribla İnstitutu Rusiyada və digər respublikalarda öz nümayəndəliklərinin şəbəkəsini yaradır. Bu nümayəndəliklərin vasitəsilə 1989-cu ilin noyabr ayından 1992-ci ilin mart ayına can yüzə qədər elmi konfrans keçirilir. Kofranslar Moskva, Leninqrad, Sverdlovsk, Voronej, Tallin,Vilnüs, Riqa, Kiyev, Minsk, Lvov, Odessa, Yerevan, İrkutsk, Tomsk və s, şəhərlərdə təşkil edilir. Təkcə Moskvada 6 belə konfrans keçirilir. Kribla İnstitutunun təbliğat xaraterli işinin təsiri güclü olur. Onun təsir gücünü G.Burbulisin fəaliyyətində müşahidə etmək mümkündür. 1988-ci ilə qədər kommunist partiyasının rəhbər rolundan danışan G.Burbulıs

Kribla İnstitutunun təlimatı kursunu keçəndən sonra yorulmadan təkrar edirdi ki, sovet imperiyası dağılmalıdır.

Kribla İnistitutu və başqa yeni yaradılmış qurumlar vasitəsi ilə yüzlərlə sovet vətəndaşı Amerikaya ezam edilirdi. Ezam edilənlər Amerika kəşfiyyatının rezidenturası tərəfindən seçilir və onların antisovet meylli olması nəzərə alınırdı. Onlar qrup halında Amerikaya gedir, hazırlıq kursu keçib, müvafiq təlimat alırdılar. Hazırlıq kursu və təlimat SSRİ-nin dağılması sahəsində müxtəlif istiqamətləri əhatə edirdi. B.Yeltsin hökumətində vəzifə tutanlardan Q.Popov, Q.Staravoytova, M.Poltoranin, A.Muraşov, S.Stankeviç, Y.Qaydar, Q.Yavlinski, Y.Bolderev, V.Lukin, A.Çubays, A.-Nuykin, Şabad, Bokser və s. Amerikanın təsir agentlərinin aparıcı mərkəzinin və B.Yeltsin hökumətinin kadr potensialını təşkil edirdilər. Bura məhşur jurnalistləri və televiziya işçilərini də əlavə edəndə SSRİ-də beşinci koloniya (vətən xainləri) əmələ gəlirdi. Bunların əksəriyyəti regionlararası deputat qrupunda və "Demokratik Rusya" blokunda fəaliyyət göstərirdilər. Dövlət başçısı M.Qorbaçov Dövlət Təhlükəsizlik Komitəsinin məlumatından bilirdi ki, xarici xüsusi xidmət orqanları ölkədə ictimai-siyasi quruluşu dağıtmaq məqsədilə təsir agentləri və beşinci koloniya yaradıblar. Hətta onların dəqiq siyahısı və fəaliyyət proqramı da məlum idi. Lakin M.Qorbaçov dövlət başçısı kimi, heç bir tədbir görmədi ki, rəhbə-

ri olduğu dövlətin təhlükəsizliyini təmin etsin və xəyanətkar qüvvələrin dağıdıcı fəaliyyətinin qarşısını alsın. Əksinə, DTK-nin sədri V.Kryuçkovdan məlumat alan M.Qorbaçov qəti tapşırıq verir ki, onlara qarşı heç bır tədbir görməsin. Bu barədə DTK-nin sədri V.Kryuçkov yazır: **"1990-cı ildə DTK-nin kəşfiyyat və əkskəşfiyyat xətti ilə məlumat daxil olur ki, Mərkəzi Komitənin katibi A.Yakevlev xarici xüsusi xidmət orqanlarının tapşırığı ilə ölkədə beşinci koloniyaya rəhbərlik edir. Belə məlumat alan M.Qorbaçov tədbir görmək əvəzinə A.Yakovlevi hər vasitə ilə müdafiə edir"**. M.Qorbaçovun bu hərəkəti sübut edir ki, o da Beynəlxalq mason təşkilatının üzvüdür. V.Kryuçkovun yazdıgına görə, SSRİ-də təsir agenti kimi fəaliyyət göstərən demokratların əksəriyyəti, xüsusilə, liderləri mason təşkilatının üzvü olublar. Onlardan biri - lap yekəsi keçən əsrin 70-ci illərində Sovet rəhbərliyi aparatında müşavir işləyən, Amerika və Kanada İnistitutunun direktoru G.Arbatov idi. Ölkənin siyasi rəhbərliyini yanlış qərar qəbul etməyə yönlədənlərdən biri də G.Arbatov olub. G.Arbatov 1970-ci illərdə Azərbaycanın Şamaxı rayonundan SSRİ Ali Sovetinə deputat seçilib. Amerika dövlət katibinin müavini Tolbot açıq etiraf edir ki, G.Aratov 1970-ci ildən Amerikanın dostudur. A.Yakovlevin Kanadadan gətirilməsində və yüksək vəzifəyə təyin edilməsində G.Arbatovun xüsusi xidmətləri olub. Amerika kəşfiyyatı və beynəlxalq masonluq o vaxtdan SSRİ-nin da-

ğılmasının əsasını qoymuşlar. Onların gördüyü işlərdən biri də 1970-ci illərin əvvəlindən amerikanın təsir agentlərinin mühüm elementi kimi, A.-Saxarovun və onun yəhudi əsilli arvadı Y.Bolnnerin fəaliyyəti olub. 1984 və 1986-cı illərdə A.Saxarov institutları yaradılıb. 1986-cı ildə yaradılan inistitut sovet təhsil sistemindən narazı olanlar üçün nəzərdə tutulub. Ümumiyyətlə, SSRİ-də Amerikanın beş minə qədər təsir agentləri fəaliyyət göstərib və sovet xalqının marağına xidmət etmək məqsədilə başlanan yenidənqurmanı Amerikanın xeyrinə başa vurublar.

Beynəlxalq mason təşkilatı Rusiyanın müasir hakim rejimini qoruyub, saxlamaq məqsədilə inadkar və ardıcıl iş aparır. Hakimiyyətin təsadüfən başqa ələ keçməsinin qarşısının alınması və Rusiyada demokratik islahatların davam etdirilməsi məqsədilə Qərbə yarayan siyasətçilər axtarıb tapır və onlarla iş aparır. Siyasi imicini itirmiş və tam iflasa uğramış Qorbaçov, Yeltsin, Çernomırdin, Qaydar, Çubays, Nemtsov, Kiriyenko və b. yerinə yeni favoritlər hazırlanır, onların arasında Yavlinski ilə yanaşı, general Lebedə xüsusi yer verilirdi. General Lebedin simasında Yeltsinin oxşarı və eyni imicə malik namizəd görülürdü. Az savadlı və məhdud, prinsipsiz, dünya siyasətindən başı çıxmayan general Lebed siyasi dəstəyə görə, Qərbə hər cür güzəştə getməyə hazır olduğunu bəyan edirdi.

1995-ci ildə etibarlı mənbədən məlum oldu ki, Amerikanın nüfuzlu siyasi dairəsində Lebedin

Yeltsinin əvəzinə prezident seçilməsi məsələsi müzakirə edilir. Bu dairənin siyasətçiləri Lebedin prezident seçilməsinə bir milyard dollar vəsaitin ayrılması da nəzərdə tutulurdu.

1996-cı ilin oktyabrında A.Lebed Beynəlxalq Münasibətlər Forumunda iştirak etmək üçün Nyu-Yorka getdi. Forumda A.Lebedin yenidənqurmanın memarları, Amerikanın keçmiş prezidenti C.Buşla, keçmiş dövlət katibi C.Beykerlə, general B.Skoukroftla və b. görüşü keçirildi. Onlar A.Lebedi müzakirə olunan məsələlərlə, Rusiyada aparılan islahatların məzmunu və məqsədi ilə tanış etdilər. 18 noyabrda A.Lebed Beynəlxalq Münasibətlər Forumunun iştirakçıları sırasına qatıldı.

A.Lebedi forum iştirakçılarına H.Kissincer təqdim etdi. Forumda A.Lebedin iştirakı ilə beş saat müzakirə aparıldı. İclasda D.Rokfeller, Z.Bzejinski, Amerikanın Rusiyada keçmiş səfiri, peşəkar kəşfiyyatçı D.Metlok və s. çıxış etdilər. Dünyanın gizli hakimləri general A.Lebedin şəxsiyyətinə yüksək qiymət verib, onu prezidentliyə namizədliyə layiq bildilər. A.Lebed iclasda çıxış edib, dünyanın gizli hakimlərini inandırçağa çalışdı ki, Rusiyada Yeltsin tərəfindən başlanmış bütün islahatlar davam etdiriləcək, imperiya və antisemit ənənələrə son qoyulacaq, NATO ilə əməkdaşlıq sürətləndiriləcək, Rusiya Şimali Qafqazdan gedəcək, Şimali Qafqazın Qərbin nəzarətinə keçməsinə etiraz olmayacaq. A.Lebed hətta Rusiya nüvə obyektlərinin NATO himayəsinə verilməsinə də ra-

zılıq verib. Bir gün sonra A.Lebed Ümumdünya Yəhudi Təşkilatının müşavirəsində iştirak edib və söz verib ki, Rusiyada imperiya və antisemit ənənələrinə qarşı var gücü ilə mübarizə aparacaq. Eyni zamanda xahiş edib ki, onun Rusiya prezidentliyinə namizədliyini müdafiə etsinlər.

Provoslav mətbuatının yazdığına görə, A.Lebed 1999-cu ildə Fransanın ən böyük "Böyük Şərq" mason lojasını ziyarət edib. Onun iştirakı ilə qədim mason ritualı həyata keçirilib və ona fəxri mason nişanları təqdim edilib.

# PARTİYANIN QIZILI

Xarici qüvvələr və onların SSRİ-dəki dayaqları massonlar, təsir agentləri ölkədə aparıcı qüvvə olan Kommunist Partiyasını nüfuzdan salmaq məqsədilə müxtəlif şayələr və iftiralar uydurub, yayırdılar.

Onlardan biri də Kommunist Partiyasının qızılı və vəsaiti haqqında idi. Əhali arasında belə bir şayə yayılırdı ki, guya Kommunist Partiyasının qızılı və külli miqdarda vəsaiti Siyasi Büronun qərarı ilə Dövlət Təhlükəsizlik Komitəsinə təhvil verilib. Partiya vəsaitini saxlayan və idarə edən Kruçina ona görə özünü pəncərədən atıb öldürüb.

**Müxbirin suallarına cavab verən V.Kryuçkov yazır:**

1. Partiyanın qızılı və pulu barədə şayiə təxribat xarakteri daşıyır və Yərb ölkələrinin xüsusi xidmət orqanları uydurub, təsir agentlərinin əlilə yayırlar. Məqsəd Sovet dövlətini və Kommunist Partiyasını nüfuzdan salmaqdan ibarətdir.

2. Kommunist Partiyasının vəsaiti və qardaş partiyalara etdiyi yardım haqqında rəsmi arayış təqdim olunub. Bu vəsait 10 il ərzində 200 milyon dollar təşkil etdiyi halda Amerika xarici ma-

raqlarını həyata keçirdiyi ölkələrə on milyardlarla dollar vəsait sərf edir. Partiya vəsaiti isə rubldan ibarət idi.

3. Partiya nizamnaməsinə əsasən, üzvlük haqları, nəşriyyatdan və partiya sanatoriyalarından, istirahət evlərindən vəsait daxil olurdu.

1980-cı ilin axırlarında ölkədə əmək haqlarını ödəməyə vəsait çatmırdı. M.Qorbaçov Siyasi Büronun qərarı ilə partiya xəzinəsindən xalq təsərrüfatının ehtiyacına beş milyard manat ayırdı.

4. Partiyanın xəzinəsində heç vaxt qızıl olmayıb. Bu barədə M.Qorbaçovda daha yaxşı məlumat olar. O, çoxdan partiyanın düşmənidir və sağa-sola partiyanı "ifşa" etməyə çalışır. Mən həbsdə yatanda bu məsələ ilə əlaqədar prokurora 30 səhifəlik məlumat yazmışam və həmin məlumat itib, batıb. Eyni zamanda mən müstəntiqdən xahiş etmişəm ki, partiya qızılı və vəsaiti ilə əlaqədar məni və M.Qorbaçovu dindirsinlər. Onlara sərf etmədiyi üçün bu işi də görmədilər və dedilər ki, bu dövlət sirridir.

Onu da qeyd etmək lazımdır ki, SSRİ-nin dağıdılması istiqamətində aparılan işlər qabaqcadan işlənib, hazırlanır və planlı sürətdə həyata keçirilirdi. Bu istiqamətlərdən biri də Kommunist Partiyasını nüfuzdan salmaq üçün müxtəlif ittihamlar, böhtan və yalançı şüarlardan ibarət idi.

## UKRAYNADA MASONLUQ

Tarixi faktlar sübut edir ki, Ukranyada mason lojaları Rusiyaya nisbətən xeyli sonralar meydana gəlibdir. Məşhur tarixçi Pıpinin yazdığına görə, Ukraynada ilk mason lojası "Bessmertiya" Rusiya zabitləri tərəfindən 1784-ci ildə yaradılıb və Rusiyadan çox Polşa masonluğu ilə bağlı olub. Ona görə ki, Ukrayna masonluğu Polşa "Böyük Şərq" lojasına tabe olub. Həmin dövrdə Ukranyada ondan çox mason lojaları fəaliyyətə başlayıb. Bütün bu masonlar Polşa masonluğunun rəhbərliyi altında işləyirlər. Ona görə də 1794-cü ildə Polşa "Böyük Şərq" lojası öz fəaliyyətini dayandıran kimi, Ukrayna masonluğu da donur. Ukraynada masonluğun dirçəlməsinin yeni mərhələsi XIX əsrin ortalarına təsadüf edir. Bu dövrdə istər Polşada və istərsə Ruminyada baş verən siyasi şərait masonluqla yanaşı, çoxlu gizli təşkilatların yaradılmasına səbəb olur. Kiyevdə "Birləşmiş slavyanlar", Poltavada "Həqiqətə məhəbbət" lojaları açılır. Ukrayna mason lojaları Rusiya mason qardaşları ilə sıx əlaqə saxlayaraq, dekabristlərin üsyanının hazırlanmasında iştirak ediblər. Bolşevik inqilabı ərəfəsində Ukraynanın müstəqilliyinin əldə edilməsində masonlar fəal iştirak edirlər. Masonlardan Ukray-

na Radasının sədri, Ukraynanın birinci prizdenti, tarixçi Mixail Truşevski, qaydamakların rəhbəri Semyon Petlyura, getman Pavel Skoropadski və b. müstəqillik uğrunda fəal mübarizə aparıblar.

Sovet İttifaqı yaranandan sonra Ukrayna masonluğu öz fəaliyyətini dayandırır və mühacirətə. 1991-ci ildə Ukrayna müstəqillik qazanandan sonra Ukraynada masonluq dirçəlməyə başlayır. Ukranya masonluğunun dirçəlməsində Fransa, İtaliya, Avstriya masonluğu yaxından köməklik edirlər. 1993-cü ildə Kiyevdə "Üç koloniya " yaradılır. Onun ardınca Fransa milli lojasının rəhbərliyi altında Xarkovda, Lvovda, Odessada lojalar açılır. Fransa Böyük Milli Lojası bu lojaların timsalında Ukrayna böyük vilayət masonluğu yaratmaq istəyir. Lakin Amerika, Kanada, Avropa, Latın Amerikası, Rusiya, Türkiyə, İsrail, Almaniya, Ukrayna Böyük Lojasını qəbul etmədilər. Buna baxmayaraq, Ukrayna masonluğu dirçəlməkdədir və öz təbliği ilə məşğuldur. Ukrayna masonluğunun tərkibi demək olar ki, siyasətçilərdən, oliqarxlardan, dövlətdə yüksək vəzifə tutanlar və s. ibarətdir. Mətbuatda yazılanlardan aydın olur ki, mason lojaları prezident və deputat seçkilərində öz namizədlərini irəli sürürlər. Məlumat var ki, mason qardaşlar prezident aparatının rəhbərinə məktubla müraciət edib, xahiş ediblər ki, Ukraynada masonluğun sıxışdırılmasına imkan verməsin.

Çox maraqlı bir fakta diqqət yetirin. 2000-ci ilin noyabr ayında Milli İnstitutda Ukranya-Rusiya

münasibətləri müzakirə olunanda **Ukrayna Təhlükəsizlik Şurasının katibi Marçuk "Seqodnya" qəzetindəki "dünya hökumətinin "Xasid-Masen" qrumu haqqında məqaləyə münasibət bildirərkən deyib ki, dünya Xasid-Masen hökuməti Rusiyaya qarşı tədbir görmür və energetika sahəsində Ukraynaya kömək etmir. "Dünya hökuməti" Moskvanın planlarına qarşı tədbir görmür. Ona görə, masonlarla Kiyevin əməkdaşlığına son qoyulmalıdır.** Ukrayna Təhlükəsizlik Şurasının katibi Marçukun belə qəribə və açıq söhbətin maraqlıdır. Bu fakt bir daha göstərir ki, masonların Ukrayna siyasətinə təsiri günü-gündən artır. Ukraynada Malta ordeninin müxtəlif təşkilatları da fəaliyyət göstərir ki, buraya da Ukranyanın elitası cəlb edilib.



Müxtəlif mason və s. gizli təşkilatlarla yanaşı, Ukraynada dağıdıcı gizli təşkilatlardan biri olan "İblis ordeni" diqqəti cəlb edir. Bu təşkilat mürəkkəb və çox sahəlidir. Bu yaxınlarda hüqüq-mühafizə orqanları Zaparojyedə İblis təriqəti "Qara şəfəq" təşkilatlarını cinayətə cəlb ediblər. Bu təşkilat iki il ərzində fəaliyyət göstərib və qrupa cavan qız rəhbərlik edib. Bundan başqa Ukraynada digər İblis təşkilatları da fəaliyyət göstərir. Faktlar sübut edir ki, Ukranyada uzun müddət iblis təşkilatları qəbirləri və abidələri təhqir etməklə yanaşı, ölüm mərasimləri həyata keçiriblər. Ukrayna həftəlik "2000" qəzetində vaxtaşırı iblis təskilatlarının mərasimləri haqqında məlumat dərc edilir. Simferopolda ölüm mərasimini həyata keçirən 19 yaşlı

Krım rəssamının evində axtarış aparanda laklanmış kəllə tapılıb. Həmin mətbuatın məlumatına görə, Ukranyada onlarla İblis təşkilatları vardır. Onlardan "Qara dairənin ordeni", "Ölüm ulduzu", "İblis partiyası", "İblis kilsəsi", "Qara qardaşlar", "Zülmət leqionu" və s. göstərmək olar. Onu qeyd etmək lazımdır ki, belə dağıdıcı təşkilat və təriqətlərin nümayəndələri Ukranya siyasətində iştirak etməklə, hakimiyyət orqanlarına, xüsusilə deputat kreslosuna can atırlar.

Ukraynada həmçinin, qapalı elitar klub "Rotarı interneyşnl" də fəaliyyət göstərir. "Rotarı interneyşnl" klubu mason təşkilatlarının nəzarəti altında və onun filialı kimi fəaliyyət göstərir. Ukrayna prezidenti Leonid Kuçma bu klubun medalı ilə təltif edilib. Ukrayna radiosunda Sosialist Partiyasının lideri A.Morozun çıxışı aydın səmada şimşək təsiri bağışladı. A.Moroz paralamentdə çıxış edərək, Ukraynanı 300 yaxın vəzifəli şəxslərin mason təşkilatlarının üzvü olduqlarını bildirir. Həmin masoin təşkilatlarının mərkəzi xaricdə yerləşir, onun nizamnaməsi ölkə qanunlarından üstün tutulur. Söhbət Müqəddəs Stanislav ordenindən gedir. Bu ordenə hökumətin 23 üzvü, 90 general, 3 qubernator, 40 nəfər iri iş adamları, 17 professor və akademiklər daxildirlər. Maraqlıdır ki, Ukraynanın Milli Akademiyasının prezidenti, Ukraynanın Milli Qəhrəmanı, millətin vicdanı sayılan Boris Paton da həmin təşkilatın üzvüdür. Sağlığında Kiyevdə, Dnepropetrovskda, Lvovda və s. şəhərlərdə ona

heykəl qoyulub. Boris Patona bir nömrəli ordeni Müqəddəs Svyatoslav ordeninin Böyük Ustadı Pavel Byalov təqdim edib. B. Patonun dediyinə görə o, bilməyib ki, bu orden mason təşkilatıdır. Deyir ki, məndə dünyanın bir çox ölkələrinin ordeni var. Birini də bunlar verdilər, mən də aldım. Deməli belə çıxır ki, mason təşkilatları məşhur adamları öz sıralarına cəlb etməklə, öz imicini qaldırmaq məqsədi güdür.

Ukraynanın keçmiş prezidenti, sosial-demokratların parlament fraksiyasının lideri Leonid Kravçuk da bu təşkilatın üzvüdür. 1999-cu ildə L. Kravçukun ordenə qəbul mərasimi video-kasetə çəkilib və foto-şəkilləri mətbuatda dərc edilib. Müxalifət bu materialları sübut kimi təqdim edərək, Ukraynada mason sui-qəsdin olmasını və Ukraynanı masonların idarə etməsini bəyan edir. Hətta sağ müxalifətin lideri Y. Timoşenko bu məsələyə kəskin münasibət bildirərək, ölkədə belə təşkilatın fəaliyyət göstərməsini qanundankənar hesab edir. Qanuna görə, mason təşkilatlarının üzvü olan şəxs dövlət işində yüksək vəzifə tuta bilməz. Ukraynada siyasi qüvvələr çoxdur. Masonlar, demokratlar ölkənin NATO-ya, Qərbə, sol qüvvələr Şərqə, Rusiyaya tərəf sürükləyirlər. Yazıq xalq qalıb arada, bilmir hara getsin.

## AMERİKADA MASONLUQ

Dünyada elə bir ölkə yoxdur ki, masonluğun inkişafı, cəmiyyətdə rolu və fəaliyyəti Amerika ilə müqayisə edilsin. Ancaq SSRİ-də Kommunist Partiyası həm say tərkibinə və həm də cəmiyyətdə aparıcı roluna görə, çoxmilyonlu Kommunist Partiyası Amerikada mason təşkilatı ilə müqayisə edilə bilər. Dünya mason ensklopediyasına görə, Amerikada beş milyona yaxın mason fəaliyyət göstərir. Amerikada mason olmayan şəxsin prespektivi və karyerası olmur. Əgər İngiltərə masonluğun beşiyi sayılırsa, Amerika masonluğun mərkəzi sayılır.

Vaxtilə Şərqi Almaniyada Sovet diplomatı şişlənmiş, 1970-ci illərdə Qərbi Berlinə, oradan da Amerikaya qaçmış, Harvard Universitetində SSRI-yə qarşı psixoloji müharibə proyektinin hazırlanmasında iştirak etmiş **Qriqori Klimov "Qırmızı müdriklər protokolu"** kitabında yazır: **"1965-ci ildə Nyu-Yorkda ümümdünya sərgisi keçirilirdi. Şəxsən həmin sərgidə iştirak etmişəm. Sərginin ərazisində dini paviliyonlarla yanaşı, mason paviliyonu da fəaliyyət göstərirdi. Mason paviliyonunun üstündə iri hərflərlə yazılmışdı: "Biz dini deyil,**

qardaşlıq cəmiyyətiyik". Mən həmin paviliyona daxil oldum və bələdçidən 50 sentə bələdçi kitabçası aldım. Kitabça Corc Vaşiqtonun masonluğu haqqında məlumatla başlayır.

Kitabçanın 13-cü səhifəsində Amerikanın məşhur masonları haqqında məlumat dərc edilmişdir. Bunlardan məşhur aktyor Edvin But, onun qardaşı prezident Linkolnun qatili Con But, Amerika avtomobil sənayesinin atası Henri Ford, Atlantik okeanın üzərindən ilk dəfə uçan pilot Çarlz Linberq, Amerikanın XX-ci əsr prezidentlərindən Kulidan, Quver, Ruzvelt, Trumen, Nikson, Karter, Reyqan, Ford, Buş mason olmuşlar. Klinton isə "De moley" gənclik mason təskilatının üzvü olub. Prezidentlərdən C.Kennedi mason olmayıb, onun da aqibəti məlumdur. Ən maraqlı məlumat mason sərgisinin bələdçi kitabçasının 14-cü səhifəsində rast gəlir. Burada Amerika hökumətində, Ali Məhkəmədə, Senatda, Konqresdə və s. ali orqanlarda olan masonların adları və soyları göstərilir. 1964-65-ci illərdə Amerika Ali Məhkəməsinin üzvlərinin, 50 ştat qubernatorlarının, Senat və Konqres üzvlərinin əksəriyyəti mason təşkilatının üzvü olmuşlar. Ali Məhkəmənin sədri Erl Uorren mason olub. Ona görə də prezident C.Kennedinin ölümünü o, araşdırmış və örtbasdır etmişdir".

Prezident C.Kennedi mason olmamış və masonların xəbis və hiyləgər siyasətini müdafiə etməmişdir. Prezident C. Kennedi onların siyasətinə

qarşı çıxmış və 1962-ci ildə, noyabr ayının 15-də Milli Təhlükəsizlik Şurasında Vyetnama ordu göndərməkdən imtina etmişdir. Çoxları belə hesab edir ki, C.Kennedi bununla da özünə ölum hökmü çıxarmışdır. Belə fikri bir də onunla izah etmək olar ki, C.Kennedinin ölümündən dərhal sonra onun yerini tutan vitse-prezident L.Conson Vyetnama ordu göndərmək barədə sərəncam vermişdir. Bundan sonra C.Kennedinin xarici siyasəti silah istehsalı ilə məşğul olan maqiatları narahat edirdi. Xüsusilə, 25 iyun 1963-cü ildə nüvə silahlarını qadağan edən müqavilə və həmin müqavilənin 24 sentyabr 1963-cü ildə senatda təsdiq edilməsi müharibə partiyasının qəzəbinə səbəb olmuşdur. Belə nəticə çıxartmaq olar ki, ABŞ-da mason təşkilatının siyasətinə qarşı çıxışların kimliyindən asılı olmayaraq, aqibəti C.Kennedinin aqibəti kimi olur. Amerika və digər aparıcı dövlət başçılarının kənardan təzyiqə məruz qalmaları, məcburi qərar qəbul etmələrinə dair faktlar çoxdur.

Amerika, İsrail müharibələri buna əyani sübutdur. Karterin prezidentliyi dövründə bütün Amerika belə bir münaqişənin şahidi olmuşdur. Amerika dövlət strukturlarında böyük fiqur sayılan **Birləşmiş Qərargahlar rəisi general C.Braun** tələbələrlə görüş zamanı açıq bildirmişdir: **"Şioinsit mafiyası çox güclüdür. İsraillilər Pentaqona gəlib, ən muasir texnika tələb edirlər. Biz onlara deyirik ki, Konqresin razılığı olmadan biz heç nə edə bilmərik. Onlar bizə cavab verirlər ki, Konqres sizin**

**qayğınız deyil. Konqreslə özümüz bacararıq. Bu adamlar başqa ölkəyə mənsub olduqları halda Amerikada istədiklərini edirlər".** C.Braun bu sözləri deyən kimi Amerikanın kütləvi informasiya vasitələri bir ağızdan onu antiseminizimdə günahlandırıb, güclü təzyiqə məruz qoyurlar. Bu hələ harasıdır. Prezident Karter dərhal onu çağırıb, kəskin tənqid etmiş və məcbur etdirmişdir ki, ictimaiyət qarşısında onlardan üzr istəsin. Bununla da general C.Braunun kariyerasına son qoyulur.

Vaxtilə Fransanın "**Mond**" qəzeti yazıb: "**Amerika prezidenti sioniset lobbisi ilə mübarizə aparsaydı, təhqiramiz məğlubiyyətə məruz qalardı".** Bu poqnoz tezliklə özünü doğrultdu. ABŞ-ın BMT-dəki nümayəndəsi İsrailin işğal etmiş Ərəb torpaqlarında apardığı siyasətə görə tənqid edən qətnaməyə səs vermişdi. Dərhal Amerika təbliğat maşını işə düşür.

"Nyu-York deyli Nyus" qəzetinin yazdığına görə, İsrailin Amerikadakı səfirinin Amerika prezidenti ilə məxfi görüşü keçirilir və prezident məcbur olur ki, BMT-dəki mövqeyini dəyişsin. Bundan sonra prezident Karter Nyu-Yorkun bələdiyyə işçiləri qarşısında çıxış edərək, BMT-dəki nümayəndəsinin İsrailin əleyhinə səs verməsini səhv hesab etmişdir.

Məsələ onda idi ki, bir neçə gündən sonra Nyu-Yorkda seçki kampaniyasının müqəddəratı sionist lobbisindən, mason lojalarının fəaliyyətindən asılı olacaqdı. Amerikada yəhudilər əhalinin

üç faizini təşkil etdikləri halda, yəhudi kapitalı demokratların seçkiqabağı fondunun 60 faizini, respublikaçıların 40 faizini təşkil edir. Başqa bir fakta diqqət yetirmək kifayətdir ki, Amerika kimi qüdrətli bir dövlət başçısının kənar təzyiqə məruz qalmasının şahidi olaq. 1998-ci ildə Amerika prezidenti B.Klinton İsrailə səfər etmiş, yəhudilərin müqəddəs məbədlərini ziyarət etmişdir. B.Klinton Amerikaya qayıdan gecə dərhal İraqı bombalamaq barədə sərəncam vermişdir. B.Klintonun İsrailə səfəri və müqəddəs yerləri ziyarət etməsi televiziya ilə nümayiş etdirilmişdir. Aydın məsələdir ki, İsrailin dünya dövlətləri arasında düşmən saydığı üç-dörd dövlətdən biri də İraqdır. İsrail İraqın kütləvi qırğın silahi istehsalından çox qorxur və ona görə də Amerikanın əlilə İraqı bombalatdırıb ki, kütləvi qırğın silahı istehsalının qarşısını ala bilsin. Eyni vəziyyət C.Buşun prezidentliyi vaxtında davam edir. C.Buşun İraqa aqressiv münasibətinin kökü masonluqla əlaqədardır. **2002-ci ilin 26 sentyabr tarixli "İzvestiya"** qəzetində **"Buş mason oyuncağıdır"** adlı məqalə dərc edilib. Məqalədə göstərilib ki, C.Buş masonların əlində oyuncaqdır. Masonluğun mərkəzi isə İsraildir. Masonların üç benddən ibarət planı var.

**Birinci bənd** - Sovet İttifaqını dağıtmaqdan ibarətdir. Onlar bu planı yerinə yetiriblər.

**İkinci bənd** - Ərəb dünyasıdır. Onlar bu planı yerinə yetirməyə başlayıblar. İraqı məğlub etmədən Ərəb dünyasını məğlub etmək olmaz.

**Üçüncü bənd** - Çin dövlətini məğlub etməkdən ibarətdir. Şübhəsiz, bu siyasət dünya hökmranlığına nail olmaq məqsədi güdür. Bundan başqa bu siyasətin tərkibində Amerikanın maddi marağı, xüsusilə, neft məsələsi də vardır.

**Başqa bir misal.** Amerikanın BMT-daki nümayəndəsi E.Janr Fələstinin BMT-dəki nümayəndəsi ilə görüşmüşdür. Belə qəbahətə görə, E.Janr ilə dərhal xudahafizləşdilər və o, vəzifəsini itirdi.

Belə misalları mason lojasının üzvü olan bir çox aparıcı dövlət başqalarının həyatından gətirmək olar. M.Qorbaçov, B.Yeltsin, Misir prezidenti Ə.Sədat, İran şahı M.R.Pəhləvi, İordaniya kralı Hüseyn Ben Talal və s. mason olduqları üçün rəhbərlik etdikləri ölkənin mənafeyinə zidd qərar qəbul edib, müqavilə imzalayıblar. Xüsusilə, Misir prezidenti Ə. Sədat ərəb ölkələrinin mənafeyinə zidd olan İsraillə separat müqavilə bağladı və İordaniya çayının qərb sahilini İsrailə güzəştə getdi. Nəticədə həyatına sui-qəsd edib, qətlə yetirdilər. Bütün bunlar G.Dmitrovun dediklərini bir daha təsdiq edir.

İndi isə Amerika masonluğunun tarixinə nəzər salaq. Vaşinqton yaxınlığında Aleksandriya adlandırılan yerin Şuters təpəliyində Corc Vaşinqtonun mason milli memorialı yerləşir. Memorialın girişi Amerikanın birinci prezidenti Corc Vaşinqtonun 8 tonluq bürünc heykəli ilə bəzdilmişdir. Corc Vaşinqton mason geyimində, əynində önlük (fartuk), əlində çəkic mason emblemlərində təsvir

edilmişdir. Bütün bunlar sübut edir ki, C.Vaşinqton qədim frank-mason təşkilatının üzvü olub.

C.Vaşinqtonun mason milli memorialının tərtibatı və açılışı barədə maraqlı məlumat mövcuddur.

C.Vaşinqton Britaniya ordusunda mayor rütbəsində xidmət edəndə, 7 noyabr 1752-ci ildə Fredrikeburqda mason təşkilatına, "bənnalığa" qəbul edilmişdir. Sonradan o, birinci usta olmuş və 22 N-li lojaya sədirlik, eyni zamanda Amerikanın müstəqilliyi uğrunda mübarizəyə rəhbərlik etmişdir. C.Vaşinqton dəfələrlə mason prinsipinə sadiq qaldığını söyləmişdir. Memorialın divarında onun aşağıdakı sözləri yazılıb: **"Qəti əminəm ki, masonluğun prinsipləri ədalətli əsaslar üzərində qurulub, şəxsi ləyaqətin və ictimai inkişafın tərəqqisinə xidmət edir. Mən xoşbəxt olaram ki, ictimaiyyətin mənafeyinə xidmət edim və mason qardaşlığının layiqli üzvü olum. C.Vaşinqton".** C.Vaşinqtonun Amerika qarşısında xidmətlərinə görə, 1910-cu ildə Amerikanin 18 Böyük Lojası onun şərəfinə memorial-muzeyinin açılmasını qərara almış və vəsait toplamağa başlamışdır.

1923-cü ildə Amerika prezidenti Kulidan və Ali Məhkəmənin sədri Taftl (hər ikisi masondur) memorialın birinci daşını qoymuşlar. Doqquz il sonra 1932-ci ildə Amerika masonluğunun ali rəhbəri, Amerika prezidenti Quver memorialın təntənəli açılışını keçirmişdir. Nəhayət, 1950-ci ildə ən böyük mason, Amerika masonluğunun ali rəhbəri Harri Trumen C.Vaşinqtonun mason libasında hey-

kəlini xalqa təqdim etmişdir. Beləliklə, mason memorial-muzeyin çoxillik tərtibatı başa çatmışdir. Bu bir daha gösərir ki, Amerikada masonluğunun tarixi qədimdir, çox böyük gücə malikdir.

Amerikanın müstəqilliyinin əsasını qoyanlar mason olmuşlar. Şübhəsiz, Amerikanın müstəqilliyi uğrunda mübarizə aparan və onun ilk prezidenti olan C.Vaşinqtonun mason olması gələcək prezidentlərin həyatına və onların mason təşkilatına münasibətinə öz təsirini göstərmişdir. Belə ki, Amerika prezidentlərinin əksəriyyəti mason təşkilatının üzvü olmuşlar. **"Komsomolskaya pravda" qəzetinin 13 may 1992-ci il tarixli nömrəsində Amerika prezidenti Uorc Buşun (ata) şəkli** dərc edilmiş və onun franko-mason ordeninin "Kəllə və sümük" lojasının qrossmeystri olması göstərilmişdir. C.Buş fəxr edir ki, lojada onu "Osa" (Eşşəkarısı) adlandırırlar. "Kəllə və sümük" mason lojası Amerikada həm qədim və həm də elit loja sayılır. Uzun müddət Amerikanı bu gizli təşkilatın üzvləri idarə ediblər. Amerikanın indiki prezidenti C.Buş (oğul) tələbəlik illərində, Yel Universitetində oxuyanda, gizli cəmiyyət olan "Kəllə və sümük" lojasına daxil olub. Ona görə də tələbəlik illəri ona xoş təəsürat bağışlamır. Bir dəfə də olsun, Universitetin tədbirlərində iştirak etməyib, özünün etirafına görə, orada mövcud olan atmosferi xatırlayanda xoşagəlməz təsirə məruz qalır. O, 1999-cu ildə tərcüməyi-halında yazır: **"Mən yuxarı kursda oxuyarkən gizli təşkilat olan "Kəllə**

**və sümük" cəmiyyətinə daxil oldum. Cəmiyyət o qədər gizli və məxfidir ki, mən o barədə daha heç nə deyə bilmərəm".** C.Buşun atası da, babası da nəsillikcə "Kəllə və sümük" lojasının üzvü olublar.

2000-ci ildə C.Buş prezidentlik kampaniyası apararkən "Yuniversal Pikçers" "Kəllə və sümük" filmini nümayiş etdirməyə hazırlaşırdı. Filmin nümayişinə imkan verilmədi. Filmin qəhrəmanı gənc jurnalist "Kəllə və sümük" lojasının sirlərini öyrənməyə çalışır. Onun bütün cəhdi ölümü ilə nəticələnir. Deyilənlərə görə, cəmiyyətin mənzil - qərargahında otaqların birində şüşə yeşikdə qana bulanmış bıçaq saxlanılır. Həmin bıçaqla gənc jurnalist öldürülüb. Maraqlı faktlardan biri də ondan ibarətdir ki, 2004-cü ildə prezident seçkilərində prezidentliyə namizədlərin əksəriyyəti "Kəllə və sümük" cəmiyyətinin üzvləri olmuşlar. Demokrat namizədlərin üçü həmin cəmiyyətin üzvü idi. Onlardan Qovar Din, senator Co Liberman və senator Con Kerrini də prezidentliyə namizəd həmin cəmiyyət irəli sürüb ki, işdir, C. Buş keçməsə, qoy hakimiyyət başqa əlinə keçməsin.

Regional lojaların birində Böyük Magistr və 32-ci dərəcəli mason Xyum Xazardın dediyinə görə, hazırda Amerika senatorlarının 53 nəfəri masondur.

Masonluqda hərbi təbəqə əsas yer tutur ki, buda təsadüfi deyildir. Mason siyasətinin həyatda keçirilməsi və onun qoruyub saxlamasında hərbi gücə böyük ehtiyac vardır. Ona görə də Amerika

Mərkəzi Kəşfiyyat İdarəsinin yüksək rütbəli əməkdaşları, yüksək rutbəli hərbiçilər, NATO-nun yüksək rütbəli hərbiçiləri, bankirlər, prespektivli siyasətçilər və s. mason təşkilatına cəlb edilirlər. Məşhur Üçtərəfli Komissiya və Bilderberq klubunun aparıcı üzvləri "Malta ordeni"nin üzvüdürlər.

Qeyd etmək lazımdır ki, ordenə üzv olmaq beynəlxalq siyasi və işguzar qaynaqla əlbir olmaq deməkdir.

## YAXIN ŞƏRQDƏ MASONLUQ

Yaxın Şərq və Ərəb ölkələrində də masonluq daxili və xarici siyasətə güclü təsir edir. Masonluğun təsir gücündən istifadə edən İsrail ərəblərə qan uddurur. 2006-cı ildə ilin ortalarında İsrail Livana raket və hava zərbələri endirməklə, min beş yüzə qədər dinc vətəndaşı öldürmüş, Livanın paytaxtı Beyrutu xarabazara çevirmiş, hava limanı, yol və körpüləri sıradan çıxarmışdır. Eyni zamanda Fələstinin yaşayış məntəqələrini bombardman edərək, dinc əhalini qanına qəltan edir. Ərəb və digər müsəlman ölkələrinin rəhbərləri cəsarət edib, İsarilə qarşı çıxa bilmirlər. İsrailin işğalçılıq siyasətinin arxasında Amerika və İngiltərə durur. Bütün bunlar mason siyasəti ilə bağlıdır. Bir faktla deyilən fikri əsaslandırmaq olar. 2000-ci ilin sonunda İordaniya kralı Hüseyn Ben Təlal vəfat etdi. Onun dəfn mərasimində Amerika prezidenti ilə yanaşı, keçmiş prezidentlər Karter, Ford, Buş da iştirak etmişlər. Rusiya prezidenti B. Yeltsin xəstə olduğu üçün ayaq üstə dura bilmədiyi halda dəfn mərasimində yarımcıq da olsa, iştirak etmişdir. Bütün bunları bir-birinə bağlayan mason təşkilatının fəaliyyətidir. İordaniya kralı Hüseyn Ben Təlalın mason təşkilatı ilə gizli əlaqəsi barədə aşağıdakı məlumat çox

məsələnin üstünü açır. İordaniya kralı Hüseyn Ben Təlal 25 il ərzində İsrail rəhbərləri ilə, müxtəlif gizli təşkilatlarla məxfi əlaqə saxlayırmış. İsrailin keçmiş baş naziri Şimon Peresen dediyinə görə, Kral Hüseynlə gizli görüşləri olurmuş. Belə görüşlərdən biri London merinin evində keçirilib. Görüşü tam məxfi saxlamaq üçün mer bütün xidmətçilərini buraxır. Görüş sona çatdıqdan sonra nahara yeməyi merin xanımı verir. Nahardan sonra stolu yığışdırmaq və qabları yumağa Kral Hüseyn də dəvət olunur. Belə gizli danışıqların və münasibətin nəticəsində İsrailə güzəştə getdiyi üçün İordaniya İordan çayının qərb sahilini və Şərqi Yerusəlimi itirdi. Misir prezidenti Camal Əbdül Nasir Kral Hüseyni "qısa tumanlı Kral və beynəlxalq imperializmin əlində oyuncaq" adlandırıb. Qərb dövlət liderləri və İsrail rəbərləri onu "Ərəblər sırasında yeganə yaxşı oğlan", "dünyada ciddi siyasətçi" adlandırıblar. Ərəb dünyasının maraqlarına zidd olaraq, İsarilə və Qərbə güzəştli münasibətinə görə, Kral Hüseynə iyirmi dəfə sui-qəsd edilib. Bütün bunları Kral Hüseyn yumorla danışarmış. **"Elə bil özümü canlı dedektivin baş qəhrəmanı kimi hiss edirəm"**, - deyirmiş.

Kral Hüseyn Şekspirin sözlərini tez-tez təkrar edərmiş: **"Kimin başında tac var, o, rahat yata bilməz". ("Ən böyük həkimlər", səh. 437).** Misirin keçmiş prezidenti Ə. Sədatın dəfn mərasimində yerli əhali az iştirak edib. Xarici qonaqlar yerli əhalidən çox olublar. Lakin Misirin sabiq prezi-

denti Camal Əbdül Nasir vəfat edəndə milyondan çox adam onun dəfn mərasimində və tabutunu məzara yola salanda nümayişdə iştirak edib. Birinci mason olduğu üçün xalqının marağını xarici qüvvələrə və sionistlərə güzəştə gedib və aqibəti də faciə ilə nəticələndi. Camal Əbdül Nasir ərəb xalqlarını birləşdirmək sahəsində əzmlə mübarizə aparıb, xalqın məhəbbətini qazana bilib. Belə vəziyyət müasir şəraitdə də davam edir. İsrailin Livana və Fələstinə hərbi əməliyyatları zamanı Səudiyyə Ərəbistanı, Suriya və İrandan başqa digər islam ölkələrinin rəhbərləri etiraz səslərini çıxarmadılar. Bütün bunlar masonluqla əlaqədardır.

## İNGİLTƏRƏDƏ MASONLUQ

Müasir masonluğun vətəni və beşiyi İngiltərədir. 1717-ci ildə bir neçə mason lojasının ümumi yığıncağı İngiltərə Böyük Lojasının yaranmasını elan edir və Böyük Ustad seçilir. Bu mühüm hadisə müasir masonluğun möhkəm başlancığın qoyur. Ona görə də İngiltərə müasir masonluğun beşiyi adlanır. İngiltərə Böyük Lojasının təşkilindən sonra masonluq Avropada geniş yayılmağa başlayır. Minlərlə xaricilər Londona gəlib, Böyük Lojanın işi ilə tanış olub, vətənə qayıdandan sonra İngiltərə mason lojası əsasında masonluğu təşkil ediblər. Masonluğun geniş yayılmasına XVIII əsrin intellektual səviyyəsi də təsir edib. XVIII əsr ağlın inkişafı əsri idi. Hər yerdə azadlıq, bərabərlik və qardaşlıq ideyası təbliğ edilirdi. Mason lojaları bu şüarı həyata keçirmək, keçmişlə bütün əlaqələri kəsmək və yeni ədalətli cəmiyyət yaratmaq uğrunda geniş kütlə ilə güclü iş aparırlar. Nəticədə İngiltərə masonluğunun Fransa azad fikrinin birləşməsindən Fransa inqilabı (1789) doğdu. Bundan da əvvəl masonlar İngiltərə inqilabı haqqında ictimai rəyi formalaşdırıblar. İngiltərə inqilabı nəticəsində masonlar və onların prinsipləri tam qələbə qazandılar. Vilhelm Oranski tacı masonların əlindən alır və İngiltərə sözün tam məna-

sında mason dövlətinə çevrilir. İngiltərədə masonluq monarxın qanadı altında inkişaf etməyə başlayır. Sonralar İngiltərə burjuaziyası müntəzəm olaraq, öz himayədarlığını masonlara əsirgəmirdi və onlardan öz məqsədləri üçün istifadə edirdi. Masonların fəailyyət mərkəzi Britaniya cəmiyyətində hüquqşunaslıq, bankçılıq, siyasət və hakimiyyət elitası idi. Beləəri üçün masonluqdan kənarda qalmaq, balığı sudan çıxarmaq kimi bir şeydir. Xüsusilə, iş adamları və siyasətçilər üçün masonluğun qapalı klublarına üzv olmamaq heç bir prespektiv vəd etmirdi. Böyük Britaniya Ensklopediyası masonluğa belə anlayış verir: **"Masonluq nəhəng ümumdünya təşkilatı olan qardaşlıq ordeninin nəzəriyə və praktikasıdır".** 1717-ci ildə Londonda İngiltərə Böyük Lojası yaradılandan sonra masonluq cox sürətlə Avropa, Şimali və Cənubi Amerikada yayılmağa başladı. İngiltərədə baş nazirlər arasında ən məşhur mason Uinston Çörçill olmuşdur.

U.Çörçill 1903-ci ildə parlamentin üzvi olanda masonluğa qəbul edilib. XX əsr İngiltərə masonluğunun inkişaf mərhələsi olur. Birinci dünya müharibəsindən sonra İngiltərə mason lojaların sayı dörd min idisə, 1950-ci ildə yeddi minə, 1981-ci ildə doqquz minə çatmışdir. Məhz buna görə, İngiltərə İsrailin işğalçı siyasətini dəstəkləyir və Amerika ilə birgə dünya qlobal siyasətinə başçılıq edir. Bu siyasət həm beynəlxalq mason təşkilatının və həm də həmin ölkələrin dövlət maraqlarına uyğun gəlir.

## FRANSADA MASONLUQ

"Dünyada elə qara qüvvələr var ki, onların öhdəsindən gəlmək olmur. Milli münaqişələri onlar törədir".

**F.Mitteran, Fransa prezidenti.**
**Dünya Parlament Assambleyasının konfrasındakı çıxışından,**
**Paris, 1995 mart.**





Ümumdunya mason zəncirində Fransa masonluğu xüsüsi yer tutur. Fransa frank-masonluğu İngiltərə masonluğunun ögey qızı sayılır. İngiltərə XVII əsrin azad fikri və masonluğundan Fransa frank- masonluğu doğulub.

II İakov və onun tərəfdarları-mühacir yakobistlər və İngiltərə İçtimai qaydalarının tərəfdarları Fransada ilk mason lojalarının əsasını qoyurlar. Yakobist zədəganları ilə yanaşı, İngiltərə nümayəndələri mason lojalarını təşkil edirlər. Artıq XVIII əsrin 30-cu illərində Parisdə beş loja fəaliyyət göstərirdi. Mason təşkilatı böyük uğur qazanırdı. 11 dekabr 1743-cü ildə Parisdə 16 ustadın iclasında qraf Klermon ömürlük Böyük Ustad se-

çilir. Qraf Klermon Kral Lüdviq Burbon nəslindəndir. 1773-cü ildə Böyük Milli Loja "Fransanın Böyük Şərqi" adlanmağa başlayır. Masonluq hakimiyyətin yüksək dairəsində himayə olunurdu. Xarici görkəm üçün masonlar dinə və krala sadiqliyini nümayiş etdirirdilər. Əslində, onların fəaliyyəti monarxiya və dinə qarşı yönəlmişdi. Zahirən masonlar xeyriyyə işləri ilə, krala dua etməklə, illik ziyafətlərdə əylənməklə diqqəti cəlb edirdilər. Masonlar o qədər ustalıqla hərəkət edirdilər ki, heç kəsdə onların əsl məqsədləri şübhə doğurmurdu. Ona görədə Kral və Kraliçə Mariya Antuanetta masonluğun daxili mahiyətini bilmədikləri üçün onlara qəyyumluq göstərir və hər cür ittihamlardan mudafiə edirdilər.

27 fevral 1771-ci ildə **Kraliçə Mariya Antuanetta** bacısı Mariya Kristinaya yazır: "**Mənə elə gəlir ki, siz Fransada masonluğa çox böyük əhəmiyət verirsiniz. Masonluq bizdə başqa ölkələrdəkindən böyük rol oynamır. Ona görə burada hamı masonluğa meyl edir və beləliklə, bizə orada baş verənlər hamısı aydındır. Siz nədə təhlükə görürsünüz? Mən başa düşürəm, əgər masonluq gizli təşkilat olsa idi, təhlükə törədə bilərdi. Ancaq bu təşkilat xeyriyyə işləri və əylənməklə məşğul olur. Onlar orada çoxlu yeyib, içirlər, oxuyurlar və müzakirə aparırlar. Kral deyir ki, yeyib, içən və oxuyan adamlar sui-qəsdçi ola bilməzlər. Həmçinin, onları Allahsız adlandırmaq olmaz. Mən eşitmişəm ki, onlar daim Allahdan danışırlar, fəqir-fü-**

**qəraya yardım edirlər, kasıb və ölən mason qardaşların uşaqlarını tərbiyyə edir, onların qızlarını ərə verirlər. Mən doğrusu, burada pis bir şey görmürəm. Mənə elə gəlir ki, belə xeyrxah işləri mərasimsizdə etmək olar".**

Doqquz il keçəndən sonra 17 avqust 1790-cı ildə Mariya Antuanetta qardaşı imperator II Leopolda yazır: "**Bağışlayın əziz qardaş, bacınızın nəcibliyinə inanın. Başlıca məsələ odur ki, siz hər cür mason cəmiyyətindən özünüzü gözləyin. Bu yolla buradakı əcaib qüvvələr bütün ölkələrdə eyni məqsədə can atırlar".** Xeyrxahlıq və əylənmək üçün fəailiyət göstərən cəmiyyət (masonluq) 2 sentyabr 1792-ci ildə prinsessa de-Lemblı, 16 oktyabr 1793-cü ildə Kralın özünü qətlə yetirdi.

Yüksək humanist prinsiplərlə pərdələnən masonluq "**Böyük Fransa inqilabını təşkil etdi, hazırladı və həyata keçirdi".** Nis yazır: "**Masonluq olmadan Fransa inqilabı baş tutmazdı".** Fransa inqilabının hazırlığını masonluqa cəlb edilmiş alim və filosoflar aparırdı. Kral Fransanın dövlət əsasını masonlardan Volter, Didro, Monteskyö, J.J.Russo, D.Alaber və b. apardıqları təbliğat və azadlıq, qardaşlıq, bərabərlik ideyaları ilə sarsıdırdı. Volter öz siyasi nəzəriyyəsində bütün ictimai münasibətlərin islahatını tələb edirdi. Mason təliminin xalq arasında yayılmasında ədəbiyyat toplusu, curnal, roman, broşura, teatrdan istifadə olunurdu. Mason Qolbaxın məşhur klubu təbliğat materiallarının fabriki hesab olunurdu. Hökumət və din əleyhinə

təbliğat materiallarının xalq arasında yaymaq üçün sistem fəaliyyət göstərirdi və bu iş əsasən məktəb müəllimləri və xüsusi paylayıcılar vasitəsilə həyata keçirirdi. Monarxiyanı devirmək üçün hərəkat süni xarakter daşıyırdı. Mason lojalarının tərkibində öz ordularını yaradırdılar. 14 iyun 1789-cu il tarixdə mason sui-qəsdi nəticəsində Bastiliya alındı. Bastilyanın alınması inqilabı hərəkatın başlanmasına siqnal oldu. Paris balta, nizə meşəsinə çevrildi. Üsyan əyalətlərədə yayıldı.

10 avqust 1792-ci il tarixdə monarxiya devrildi, Lüdviq XVI həbs edildi və Respublika elan edildi. Amansız terror erası başlayır və inqilabdan narazı olanlar məhv edilir. 1792-ci ilin yanvarın 21-də Kral Lüdviq XVI öz mənliyini və yüksək ləyaqətini axıradək qoruyub saxladı və ölüm ayağında son sözünü dedi: **"Qoy Allah eləsin ki, mənin qanım Fransanın xeyrinə axsın".** Kralın nahaq ölümü qızmış inqilabçıları ağıllandırmadı. Ölümə məhkum olanların başını gilyotində kəsirdilər. Gilyotini icad edən mason idi. Gilyotində kraliçə Mariya Antuanetta, hersoq Orleanskinin başı kəsildi. Masonlar Orleanskini bağışlaya bilmirdilər. Ona görə ki, hersoq Orleanski 1792-ci ilin dekabr ayında Böyük Ustad vəzifəsindən imtina edib və masonların iç üzünü açmışdı. Məsələ burasındadır ki, Orleanski Eqalite 20 il mason lojasının Böyük Ustadı olub. Masonluqdan çıxarkən aşağıdakı ifşaedici bəyanat verib: **"Mən masonluğa daxil oldum və masonluq mənim üçün bərabərlik, qardaşlıq zə-**

**manəti idi. 20-il ərzində mən başa düşə bilmədim "Böyük Şərq" lojası kimlərdən ibarətdir. Hesab edirəm, Respublika belə gizli təşkilatları qadağan etməlidir. Ona görə mənə bəlli olmayan "Böyük Şərq" lojası ilə, masonların iclası ilə heç bir əlaqədar olmaq istəmirəm".** Bu bəyanatla şahzadə etiraf etdi ki, "Böyük Şərq" lojasında 20 il ərzində ən Böyük Ustad vəzifəsini tutmağına baxmayaraq, heç nə başa düşməyib, kor və müti oyuncaq kimi, başqalarının məqsəd və istəklərini icra edib. Belə bəyanat onun ölümünə səbəb oldu. Onu masonluqdan vəzifəsindən kənarlaşdırdılar, hüzürunda mason qılıncını sındırıb, başını kəsdilər. Masonlar andını pozan qardaşları ilə belə rəftar edirlər.

Anarxiya, inqilabların özbaşınalığı və xalqın yorğunluğu Napoleonu hakimiyyətə gətirdi. Öz yüksəlişi ilə Napoleon masonluğa və yəhudiliyə borcludur. Napoleonun tarixi masonluğun çiçəklənməsi dövrünü əhatə edir. O dövrdə "Böyük Şərq"in tabeliyində 826 loja və 337 kapitul fəaliyyət göstərirdi. Sicilya və Neapolun kralı İosif Böyük Ustad idi. Şahzadələr Kanbaseres və Pyurit onun köməkçiləri idilər. Marşallardan Kellerman, Hann, Sult, Morte və b. masonluqda böyük vəzufə sahibləri idilər. Ümumi polis naziri Fuşe, böyük hakim Rene, baş prokuror Merlen mason idilər. Masonluq Napoleonu mason prinsiplərinin təbliğat mühərriki kimi, yüksəklərə qaldırırdı. Fransa inqilabı din və kilsəyə qarşı, kral hakimiyyətinə qarşı, köhnə ənənələrə qarşı yönələrək, kilsənin

hakimiyyətdən ayrılmasına, konstitutsya ilə monarxiyanın məhdudlaşdırılmasına və kosmopolitiznə gətirib çıxartdı. Mason prinsipləri "Azadlıq, bərabərlik və qardaşlıq" zəfər caldı. Masonluq eyni zamanda öz son məqsədini beynəlmiləl inqilabda görürdü. Mason gizli təşkilatı 1775-ci ildə Böyük Fransa inqilabı qarşısında dünya mason hakimiyyəti planını qoymuşdur. Həmin planda yazılıb: **"Knyaz, kral və millət yer üzündən silinəcək. Bütün millətlər vahid ailə olacaq".**

Fransada müasir masonluq açıq fəaliyyət göstərir və onların adları və ünvanları telefon kitabçalarında açıq göstərilir. 1995-ci ildə biz parlament nümayəndə heyətinin tərkibində Parisdə olanda frank-mason lojasının reklamına rast gəldik. Fransada əsasən üç frank-mason lojası və həmin lojaların nəznində bir neçə yarımloja fəaliyyət göstərir.

Fransanın Milli Lojası Parisin 17-ci Arondisman Pyuta küçəsinin 9 N-li evində yerləşir. Fransanın Böyük Milli lojasının mənzil-qərargahı Paris ətrafında, Heyn rayonu, Bino bulvarı 66 N-li binada yerləşir.

Fransanın ən böyük mərkəzi lojası - "Böyük Şərq" Parisin Ryu Kadasit küçəsində, 16 N-li qədim qalanı xatırladan möhtəşəm binada yerləşir.

Böyük Şərq lojası bir neçə lojanın mərkəzi kimi fəaliyyət gösərir və 1991-ci ildə 35-min üzvü olan yarım lojaları birləşdirərək, masonluğun əsas qüvvəsini təşkil edir. Lojanın nəzdində mason muzeyi də fəaliyyət gösərir. Böyük Şərq Lojası Şərqi Avropa və Rusiyada mason lojalarının yara-

dılmasında böyük rol oynayıb.

"Böyük Şərq" lojasının nəzdində uzun illərdən bəri "Puşkin" lojası da fəaliyyət göstərir. Bu lojaya adətən Rusiyadan Şərqi və mərkəzi Avropadan olan slavyanlar daxil olurlar. A. S. Puşkin masonluqa daxil olandan son-ra qısa müddət Kişinovda "Ovidiy" lojasında fəaliyyət göstərib və masonluğun mahiyyətini başa düşərək, onu tərk edib. Cəlbedici görünsün deyə, onun adına mason lojası yaradılıb. Bolşevik inqilabından sonra Rusiyadan qaçan masonlar da bu lojada fəaliyyətlərini davam etdiriblər.

# İTALİYADA MASONLUQ

Avropanın digər ölkələri kimi, İtaliyada masonluq ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayır. Bununla yanaşı, İtaliya masonluğu son illərdə (sosializm dağılandan sonra) Şərqi Avropa ölkələrində, xüsusilə, Ruminya, Yuqoslaviya və s. ölkələrdə masonluğun bərpasına və inkişafına yaxından köməklik göstərib. İtaliyada mason lojaları və hərbi təbəqə üçün xüsusi lojalar fəaliyyət göstərirlər. Lakin İtaliyanın ictimai-siyasi həyatında P-2 (Propaqanda-2) lojası xüsusi rol oynayır. Bu loja ikinci dünya müharibəsi vaxtında Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin xeyr-duası ilə yaradılıb və İtaliyadan çox Amerika maraqlarına xidmət edir. Çoxlarının yadına gələr, 1990-cı illərin əvvəlində mətbuatda P-2 lojası haqqında çoxlu yazılar dərc olunurdu. Hətta P-2 lojasının fəaliyyətini araşdırmaq məqsədilə parlament komissiyası yaradılmışdı və cinayət işi açılmışdı. P-2 lojasının rəhbəri L.Celli idi məsələ belə olmuşdu. 1981-ci ilin mart ayının 18-də polis Kastilon Fibokki şəhərində Liço Cellinin evində axtarış aparırdı. Axtarışın məqsədi Sicilya bankiri Mikelini

Sindoninin maliyyə fırıldağı ilə əlaqədar cinayət işi ilə bağlı idi. Həmin vaxtda M. Sindoni ABŞ-da həbs edilmişdi. M.Sindoninin maliyyə fırıldağı nəticəsində Amerikanın "Franklin" bankı iflasa uğramışdı. Cinayətin izi İtaliyaya gedib çıxırdı. Liço Cellinin evində aparılan axtarış partlayış təsiri bağışladı və böyük qalmaqala səbəb oldu. Axtarış zamanı bir neçə siyahı tapıldı.

Siyahıda familiyalar, üzvlük haqlarının məbləği, bilet nömrələri göstərilirdi ki, bunlara da polis əməkdaşları lazımi əhəmiyyət vermirdilər. Siyahı İtaliyanın baş nazirinin əlinə düşəndə o, çox çıxılmaz vəziyyətdə qalmışdı. Tapılan sənədlər daha çox partlayış vəziyyəti yarat-mışdı, nəinki Sindoninin maliyyə fırıldaqları, həm də siyahılar və sənədlər İtaliyanın məşhur mason lojası olan P-2 lojası üzvlərinin siyahısı idi. Baş nazir Forlani siyahını dərc etdirməyə tərəddüd edirdi. O, yaxşı başa düşürdü ki, sənədlər aşkarlansa, hökumət böhranı baş verə bilər. Ona görə ki, aşkar edilmiş siyahıda hökumətin üç naziri, üç hakim Partiyasının (Xristian-Demokrat, Sosial-Demokrat və sosialist) nümayəndələrinin adları vardı. Sosial-Demokrat Partiyasının katibi Laiqo, İtaliya prezidentinin müşaviri Purella, onlarla parlament üzvləri və s. siyahıda yer almışdı. Siyahıda həmçinin, İtaliya məxfi xidməti rəisləri general Qrasseli, daxili işlər naziri Pelozi, xidmət rəislərinin müşavirləri, general Maketti və Muçelli də vardır. Muçelli neofaşist partiyasından deputat seçilmiş və dəfələrlə döv-

lət çevrilişinə cəhd göstərdiyinə görə məhkəməyə cəlb edilmişdi. O, qarşısına məqsəd qoymuşdu ki, İtaliyada hərbi-faşist diktaturası yaratsın. Siyahıda Xəzinədarlıq Nazirliyindən 67 nəfər, Mailiyyə Nazirliyindən 13 nəfər, Xarici İşlər Nazirliyinin bir sıra yüksək rütbəli əməkdaşları, hərbi nazirlikdən 195 nəfər yüksək rütbəli hərbiçilərin də adları var idi. Hərbçilər arasında bir kapitan vardı. Qalanları pokovniklər, generallar, admirallar idi. P-2 lojası ilə əlaqədar İtaliya parlament komissiyası iki ilə yaxın təhqiqat apardı və belə rəyə gəldi ki, P-2 lojası hökumət üzvlərindən və yüksək rütbəli hərbçilərdən ibarət olaraq, ölkənin yaxın tarixində və idarə olunmasında əsas rol oynayıb. Loja özü qərargah şəkildə təşkil edilmiş və 18 sektora bölünmüşdür. Loja ölkənin hərtərəfli idarə olunması üçün nəzərdə tutulmuşdur. Lojanın fəaliyyəti ancaq İtaliyanı əhatə etmir. Lojaya Arqentinadan, Braziliyadan, Liberyadan və s. ölkələrdən yüksək rütbəli hərbçilər və siyasi xadimlər daxil idilər. Loja ilə həmçinin, Misirin prezidenti Ə. Sədat, İran şahı M. P. Pəhləvi yaxından əlaqə saxlayıblar. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, şahın vaxtında İranda mason lojası fəaliyyət göstərib. Biz, Azərbaycan parlament nümayəndə heyəti 1994-cü ildə İran parlamentinin fəaliyyəti ilə tanış olarnda İran parlamentinin köhnə binasında frank-masonların iclas keçirdikləri otağı göstərdilər. Otaq (loja) böyük, uzun otaqdan, qara, ağır, hündür oturacaqlardan, qara-qəhvəyi

uzun mizdən ibarət idi. Dedilər, bu otaqda masonlar iclas keçirərdilər.

İndi də P-2 lojasının rəhbəri, fəxri magistri Liço Celli haqqında bəzi maraqlı faktlara nəzər salaq. Liço Celli İtaliyanın Toskana vilayətinin Pistoya şəhərində doğulub. Mussolininin pərəstikarı olub, könüllü faşist briqadasına yazılıb. 1944-cü ildən Amerika hərbi kəşfiyyatı ilə əməkdaşlığa başlayıb. Amerika və NATO-nun hərbi bazalarını mal və avadanlıqla təmin edib, qısa müddətdə varlanıb. L.Cellinin yüksəlməsində Amerika Mərkəzi Kəşfiyyat İdarəsi mühüm rol oynayıb. Ona görə də P-2 lojası Amerika maraqlarına xidmət edib. Demək olar ki, P-2 mason lojasını Amerika Mərkəzi Kəşfiyyat İdarəsi idarə edir. Parlament komissiyası müəyyən edir ki, P-2 lojası ölkədə siyasi vəziyyəti gərginləşdirmək məqsədi ilə bir çox terror aktları həyata keçirib, Cənubi Afrikadan qızıl qaçaqmalçılığı ilə məşğul olub və bir çox fırıldaq işlərdə əli var. L.Celli o qədər böyük nüfuz sahibi idi, Amerika hökuməti onu İran İslam inqilabı vaxtı Tehranda Amerika səfirliyini girovdan azad edilməsi əməliyyatına cəlb edib. Hətta L.Celli Amerika prezident seçkilərində və Amerika prezidentlərindən Fordun, Karterin, Reyqanın inaqurasiyasında iştirak edib. O.Platonov "Rusiyanın alaq çələngi" kitabında yazır ki, M.S.Qorbaçov 1990-cı illərin əvvəlində ailəsi ilə birlikdə İtaliyada istirahət edəndə Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin tapşırığı əsasında P-2 lojası tərəindən masonluqa cəlb edilib.

M.S.Qorbaçov masonluğa yenidənqurmadan xeyli əvvəl cəlb edilib. Yenidənqurma isə onların ideyası əsasında əmələ gəlib.

Amerika Mərkəzi Kəşfiyyat İdarəsinin yaradıcıları A.Dalles və U.Donovan mason olduqları üçün və təşkilatın yüksək rütbəli əməkdaşlarının mason olduqlarından, MKİ-nin Avropa mason lojaları isə sıx əməkdaşlığa, onların işinə nəzarətə ediblər. P-2 lojasının işi bunu bir daha sübut edir. Beləliklə, Amerika Mərkəzi Kəşfiyyat İdarəsi beynəlxalq mason təşkilatının əsas əməliyyat silahı hesab olunur.

## TÜRKİYƏDƏ MASONLUQ

Dünyanı idarə etmək, dünya gizli dövlətini qurmaq işində masonluq əsas rol oynayır və demək olar ki, dünyanın əksər ölkələrini hörümçək torutək əhatə edir. Amerika, İngilərə və Avropa ölkələri ilə yanaşı, islam ölkələrində, o cümlədən, Türkiyədə masonluq qədim vaxtlardan fəaliyyət göstərir. Türkiyə müsəlman ölkəsi olduğu üçün güman etmək olardı ki, burada masonluq çox da inkişaf etməyib.

Lakin əksinə, Türkiyədə masonluq XVIII əsrin ortalarından başlayaraq, bu günə qədər çox geniş yayılıb, güclü fəaliyyət göstərir. Türkiyədə masonluq çox güclüdür və dövlət strukturları, dövlət və siyasi xadimləri, yüksək rütbəli hərbiçiləri, mətbuat və biznes sahəsini əhatə edir. Ona görə, masonlar gizli fəaliyyətə ehtiyac görmür və açıq fəaliyyət göstərir.

Türkiyədə masonluq və missionerlik ta qədimdən islam dininə, Türk xalqının birliyinə qarşı mübarizə aparır. Bu məqsədlə Amerika, Avropa ölkələri, xüsusilə, İngiltərə İslam dünyasını daxildən parçalamaq məqsədi ilə misonerlik fəaliyyətini geniş tətbiq edirlər. XVIII əsrin əvvəllərindən başlayaraq, İngiltərə İslam ölkələrinə minlərlə missio-

ner və casus göndərib ki, həmin ölkələri daxildən parçalasınlar və İslam dinini təriqətlərə bölüb, zəiflətsinlər. Belə missionerlərdən biri Hemfri olub. Hemfri özünə çoxlu tərəfdarlar taparaq, vəhhabi təriqətini yaradıb. 1877-ci ildə Türkiyə-Rusiya müharibəsi dövründə İngiltərə Hindistanı öz koloniyası elan edib. Buna qədər ingilislər Midhət Paşanın dəstəyini qazanıblar. Midhət paşa Şotland lojasında mason və eyni zamanda ingilis agenti olub. Midhət paşanın xəyanətkarlığı Türkiyə-Rusiya müharibəsinin başlaması və Sultan Əbdüləzizin ölümünə səbəb olub. Xarici qüvvələrin apardığı işin nəticəsində ölkədə milli dəyərlər əhəmiyyəini itirir, dövlət vəzifələrinə vətəni sevənlər yox, xarici monarxlara xidmət edənlər təyin edilir. London planına əsasən idarəçilik, iqisadi və hərbi islahatlar aparırlar, islami dəyərlər və milli birliyi aşılamağa başlayırlar. Masonluğa cəlb olunanlar ölkənin dövlət və milli maraqlarını qoruya bilmirlər. Onlardan İslam dininə və Osmanlı imperiyasına ən çox ziyan vuran şəxs Mustafa Rəşid paşa olub. Ona görə, islamın və türk dünyasının düşmənləri onu tərifləyib, yüksək qiymələndiriblər". **(Prof. İsmət Miroğlu, "Türkiyə" qəz., 2/VIII-1993).** Son illərdə Türkiyə xalqı masonluqun məkrli mahiyyəinin dərk edib, ona qarşı ciddi mübarizə aparırlar. Televiziya və mətbuat məlumat yazır ki, 2004-cü ildə İstanbulda mason dərnəyində partlayış baş verib və nəticədə 6 nəfər həlak olub. Bundan başqa Türkiyədə istehsal olunan "Qurdlar vadisi" filmi ANS te-

lekanalı ilə nümayiş etdirildi. Filmdə mason lojasının rəhbərini öldürüb, meydanda asırlar. Onun yaxasında "vətən xaini" sözlərin yazırlar. Bütün bunlar və s. hərəkətlər göstərir ki, Türkiyədə masonluq ifşa edilir və ona qarşı mübarizə aparılır.

Masonluq barədə ən önəmli bilgi mənbəyi türk yazarı **Harun Yəhyanın** 1992-ci ildə buraxılmış **"Yəhudilik və masonluq"** kitabıdır. Müəllif çoxillik zəhməti nəticəsində masonluqun kökünü, tarixini, mahiyyətini şərh edir. Kitabda çoxlu faktlara, fotoşəkillərə və sənədlərə istinad etməklə yanaşı, masonluğun quruluşu, ritualları, simvolları, masonluğu qəbul qaydaları, nizamnamə tələbləri, yəhudiliklə bağlılığı və s. məsələlər açıqlanır. Kitab yəhudilik və masonluq, masonluq və əxlaq, masonluq və din, masonluq və siyasət, masonluq və iqtisadiyyat və s. bölmələrini əhatə edir. Kitabı oxuyan hər bir şəxs belə qənaətə gələ bilər ki, masonluğa ən çox Türkiyə siyasətçiləri, dövlət adamları, mətbuat sahibləri, yüksək rütbəli hərbiçilər və s. cəlb edilmişlər.

Kitabda həmçinin, XVIII, XIX, XX əslərdə türk masonlarının siyahısı və fotoşəkilləri verilir. Türkiyənin keçmiş baş naziri B.Ecevitin mason simvolu ilə 325-ci səhifədə fotoşəkli verilmişdir. Həmin səhifədə Sosial-demokrat Xalqçı Partiyasının sədri Erdal İnönü əks etdirilir. Keçmiş baş nazir, Doğru Yol Partiyasının sədri Məsud Yılmazın mason olması barədə Türkiyə Böyük Millət Məclisində deputatlar fikir söyləyiblər. Məsud Yılmaz isə ca-

vabında deyib ki, sübut edin ki, mən masonam, onda mən siyasətdən əl çəkirəm. Belə qənaətə gəlmək olar ki, Türkiyədə bəzi şəxslərin təkrar-təkrar hakimiyyətə gəlmələri gizli təşkilatın fəaliyyəti ilə əlaqədardır. Təsadüfi deyil ki, Türkiyədə bir neçə şəxs uzun illər hakimiyyətdə rəhbər vəzifə tuturlar və təkrar-təkrar həmin vəzifəyə seçilirlər. Kitabın 250-ci səhifəsində 1961-1965-ci illərdə Türkiyə hökumətində olan mason nazirlərin siyahısı verilib. Onlardan İbrahim Dərilər enerji naziri, Səlahəddin Tılığ köy işləri naziri, İsmət Sezgin gənclik və idman naziri, Vedat Əli səhiyyə naziri, Nihat Gurşad turizm naziri, Əhmət Turkel ticarət naziri və s. göstərmək olar.

Baş nazirlərdən Həsən Saka (1886-1960), Əli Fateh Əkyar (1880-1943) 1924-cü ildə birinci Böyük Millət Məclisinin sədri, sonradan ədalət naziri olmuşlar.

Mason paşalardan Camal Paşa (1872-1922) türk ordu komandanı, Məhəmməd Rauf Paşa (1832-1908) Sultan Əbdüləzizin baş yavəri, Kazım Paşa (1880-1968) türk komandanı, 1950-ci ildə Van üzrə millət vəkili seçilib. Türkiyədə mason paşaları saymaqla qurtarmaq mümkün deyil.

Türkiyədə yuxarı eşalonda vəzifə tutanlar, nazirlər, dövlət məmurları, mətbuat sahibləri və s. masonluğa cəlb olunduqları kimi yüksək rütbəli hərbiçilər də masonluğa cəlb edilirdilər. Hərbçilər üçün xüsusi hərbi lojalar fəaliyyət göstərir. Türkiyədə üç hərbi mason lojası vardır.

Ankarada "Dikmen", İstanbulda "Fridom", İzmirdə "Efesis" lojalarında Türkiyənin yüksək rütbəli hərbiçiləri, NATO və Amerika hərbiçiləri masonluqla məşğul olurlar. Başqa ölkələrdə olduğu kimi, Türkiyədə də transmilli şirkətlərə, korparasiya və iqtisadi durumlara mason təşkilatları rəhbərlik edirlər. Çox vaxt onların fəaliyyəti nəzərə çarpmır, vasitəçilərlə idarə edirlər. Təsadüfi deyil ki, onların maliyyə imkanlarına heç bir məhdudiyyət yoxdur. Sorosun məşhur kəlamı - "Tarixi böyük pullar yaradır" onların şuarıdır. Ona görə, beynəlxalq maliyyə qurumlarına, şirkətlərə, banklara, müxtəlif fondlara onlar nəzarət edirlər. Bu qurumlara rəhbərlik edənlərin əksəriyyəti mason təşkilatının üzvüdürlər. Türkiyədə bu sahədə masonlar böyük imkanlara malikdirlər. Aşağıda adları göstərilən transmilli beynəlxalq şikətlərə yəhudi masonları rəhbərlik edirlər.

**Aliminum məmulatı istehsalı və istehlakı ilə məşğul olan şirkətlər.** Onlar dünya üzrə bu sahəyə nəzarət edirlər.

**Enerji daşıyıcıları üzrə sahə** onların nəzarəti altındadır. Türkiyədə maye qazlar-Ankaraqaz, Ayqaz, Bursaqaz, Mobilqaz və s., marqarin yağı Vita, Sana, Samella, Turyağ və s., avtobus üzrə Man, Mersedes, Manurus, Bussind və s. koka-kola, pepsi-kola, elvan, fruko və s, spirtli içkilər üzrə Efes Pilzen, Tuborq, bəzi viski növləri və s. şirkətlərə onlar nəzarət edirlər. Onların bu sahədə fəaliyyət göstərməsi üçün hər cür şərait yaradılır.

Türkiyədə xarici sərmayədarların fəaliyyətinə 1976-cı ildə 6224 saylı qanunla icazə verilmişdi. Qısa müddətdə spirtli içki istehsalı artır. Əgər 1981-ci ildə 320 milyon litr alkoqollu içki satılırdısa, 1985-ci ildə bir milyard litr olur. Alkoqollu içki istehsalı beş dəfə artmış və ağır nəticələrə səbəb olmuşdur. Yalnız İstanbulda nəqliyyat qəzası təhlil olunanda aydın olur ki, qəzaya düşənlərin yüzdə 65 nəfəri alkoqollu içki təsiri altında olmuşdur. Boşanma halları təhlil edildikdə aydın olur ki, hər yüz boşanmanın 60-nın səbəbi alkoqollu içkidir. Dünyada alkoqollu içkilərin və tütün məmulatının istehsalı, istehlakı və reklamı yenə beynəlxalq mason təşkilatının nəzarəti altında aparılır, milyardlarla gəlir götürülür və nəticədə milyonlarla adamlar bədbəxt olur. Ailələr pozulur, adamlar nəqliyyat qəzasından həlak olur, intihar edir, müxtəlif xəstəliklərə tutulur və s.

Türk yazarları arasında mason olanlar az deyil. Bizim uşaqlıqdan kitablarını sevə-sevə oxuduğumuz bir sıra yazıçıların mason lojasının üzvü olmaları təəccüb doğurur. Belələrindən Rəşad Nuri, Mustafa Nicat, İrahim Nəcmi, Fazil Əhməd Aykac, Nazim Hikmət və s. göstərmək olar.

Nazim Hikmət (1902-1963) böyük dədəsi (babası) Fərid Mustafa Cəlaləddin Paşa-əsl adı Konstantin Borjenski olan Polşa yəhudisidir. "Sion müdrüklərinin protokolu"na əsasən dünya hökmranlığına çatmaq yolunda əsas vasitələrdən biri kütləvi informasiya vasitələridir. Məhz Sion müd-

riklərinin tövsiyəsinə əməl edən masonlar dünyada ictimai rəy yaratmaq üçün iş apardıqları ölkələrdə mətbuatı və digər kütləvi informasiya vasitələrini öz nəzarəti altına alırlar və istədikləri istiqamətdə iş aparır, ictimai rəy yaradırlar. Türkiyədə də qəzetlərin çoxu onların nəzarətilə çıxır və onların mənafeyinə xidmət edirlər. Bu məqsədə çatmaq üçün qəzet sahiblərini mason lojalarına cəlb etmək zəruruyyəti yaranır. Aşağıda adları gösərilən qəzet sahibləri buna əyani misaldır.

Yunis Hadi Abakioğlu (1880-1945) "Cümhuriyyət" qəzetinin qurucusu, 1918-ci ildə "Yeni gün" qəzetini qurub. 1924-cü ildə Ankarada "Cumhuriyyət" qəzetini qurub. 1918-ci ildən 1924-cü ilədək Türkiyə Böyük Millət Məclisinin deputatı seçilib. Nadir Hadi - "Cumhuriyyət" qəzetinin sahibi, 1950-1954-cü illərdə millət vəkili, Abdi İnəkçi "Millət" qəzetinin sahibi, yəhudi əsillidir. Əhməd Emin Yalman (1988-1973) - "Vətən" qəzetinin sahibi, yəhudi əsillidir. Yazılarında bir qayda olaraq, İsrailin təbliğinə üstünlük verib. 33-dərəcəli ən yüksək masondur. Nazim Hikmətin əfvi üçün kampaniyaya rəhbərlik edib. Belələri çoxdur, saymaqla qurtaran deyil.

Qəzetlərdən "Sabah", "Axşam", "Barış", "Yeni İstanbul", Söz", "Son posta" və s. o qəbildəndir. Bir sözlə, Türkiyədə masonluq qədimdən kök salıb və ölkənin ictimai-siyasi həyatında fəal rol oynayır.

## AZƏRBAYCANDA MASONLUQ

XX əsrin sonunda, xüsusən, 1990-cı illərdə dünyada gedən siyasi proseslər və baş verən hadisələr dünyanı təkbaşına idarə etmək istəyən qüvvələr tərəfindən planlaşdırılıb, onların nəzarəti altında həyata keçirildi. Bu qüvvələrin mərkəzində beynəlxalq mason təşkilatı və Amerika Mərkəzi Kəşfiyyat İdarəsi dururdu. Sosializmin və SSRİ-nin dağıdılması planı yenidənqurmadan xeyli əvvəl mason lojalarında və Amerikanın onlarla elmi-təhqiqat institutlarında elmi əsaslarla işlənib hazırlanmışdır. Bu elmi mərkəzlərdən ən çox "Reid korporeyşn" inistitutu SSRİ-də, Şərqi Avropa ölkələrində, müttəfiq respublikalarda siyasi, milli, iqtisadi, sosial, hərbi və s. məsələləri araşdırıb, proqram hazırlamışdır. Proqramın əsas bölmələrindən biri SSRİ-də milli münaqişələrə həsr edilmişdir.

SSRİ-nin 70-ə yaxın regionunda milli münaqişə nəzərdə tutulmuşdur. Milli münaqişələr birinci növbədə Qarabağ, Abxaziya, Osetiya, Çeçenistan, Dağıstan, Tiraspol, Başqırdıstan, Tatarıstan, Orta Asiya və s. bölgələrdə planlaşdırılmışdır. Bunların ən əhəmiyyətlisi (Qərb siyasətinə görə) Qarabağ müharibəsi hesab olunur. Qarabağ mü-

haribəsi onların planına əsasən həm SSRİ-də gərginlik yaradar, SSRİ-nin dağılmasını sürətləndirər, həm də Azərbaycanı təsir altına alıb, onun yeraltı sərvətlərinə sahib olmaq üçün şərait yaradardı.

Tarix boyu ermənilərin Azərbaycana qarşı torpaq davası, bir neçə dəfə müharibə aparması təcrübəsindən bu dəfə bacarıqla istifadə etdilər. bu mənfur və xəbis planı həyata keçirmək üçün xarici xüsusi xidmət orqnları həm Ermənistanda, həm də Azərbaycanda hakimiyyətə müxalif qüvvələrə liderlik edənlər arasında həm masonluğa cəlb edilən şəxslər və həmdə xarici qüvvələrə xidmət edən şəxslər yer tutur.

Qarabağ münaqişəsi hər iki respublikada süni sürətdə qızışdırılır, ayrı-ayrı yerlərdə təxribatlar törədilir. Belə təxribatlar Azərbaycan xalqını milli azadlıq hərəkatında fəal iştirak etməyə sövq edirdi. 1989-cu ilin Noyabr ayında yarım milyondan çox adam azadlıq meydanında davamlı şəkildə gecə-gündüz Azərbaycanın müstəqilliyi və Qarabağ münaqişəsinin ədalətli həllini tələb edirdi.

Azərbaycanın aparıcı ziyalıları B.Vahabzadə, Xəlil Rza, Ziya Bünyadov, Ə.Əylisli, S.Rüstəmxanlı, İ.Şıxlı, Y. Səmədoğlu, S.Əhmədov, Anar, Elçin, və s. milli azadlıq hərəkatında fəal iştirak edirdilər.

Lakin müxalifət qüvvələrin bir sıra liderlərinin xarici qüvvələr tərəfindən idarə edilməsi ziyalılarda peşmançılıq hissi yaratmaqla, milli azadlıq hərəkatına xələl gətirirdi.

Yadımdadır İ.Şıxlı Milli Məclisdə Y.Səmədoğluna dedi ki, Yusif, biz nə böyük qəbahət etmişik, bu gədaların ardınca getmişik. Bunlar xalqı uçuruma aparırlar. "Həqiqətən AXC hakimiyyəti vaxtında respublikada ictimai-siyasi, iqtisadi, hərbi vəziyyət çox ağır və təhlükəli həddə çatmışdı. Allah bu xalqın üzünə baxdı ki, H. Əliyev kimi dünyəvi siyasətçi 1993-cü ilin ortalarında hakimiyyətə gəldi və ondan sonra respublikada sabitlik, qayda-qanun yarandı, hərci-mərcliyə, xaosa, xəyanətkar siyasi fəaliiyətə son qoyuldu.

Keçmiş SSRİ məkanında, o cümlədən Azərbaycanda gedən dağıdıcı proses carici qüvvələr və SSRİ-nin mason rəhbərliyi, başda M. S. Qorbaçov, A. Yakovlev olmaqla idarə olunurdu. Mən bu vəziyyəti öz iş təcrübəmdə görmüşəm. 1989-cu ilin noyabr ayının 20-də Lənkəranda ilk böyük mitinq keçirildi. Mitinqdə "Talış-Muğan Respublikası"nın "lideri" Ələkrəm Hümbətov elan verdi ki, indi də Astaraya yürüş edirik. Ə. Hümmətov altı yüzə yaxın peşə məktəbinin tələbələri ilə yürüş etdi. Lənkərandan Astaraya piyada gələ-gələ qışqırırdılar ki, Qarabağ bizimdir. Mən o zaman Astara rayon partiya komitəsinin birinci katibi işləyirdim. Səhər saat 6-da gəldilər Astaraya. Mitinq təşkil elədik. Mitinqdən sonra gedib İran-Astara yolunu bağladılar. Rayon camaatı həqiqətən inanırdı ki, bunlar Qarabağa görə siyasi aksiya keçirirlər. Ona görə də onlara qayğı ilə yanaşanlar və onlara qoşulanlar da oldu. Sən demə, onların məqsədi rayonda hakimiy-

yəti devirib, ələ almaq imiş. Bir həftədən sonra, noyabrın 26-da, saat 12-də Ələkrəm Hümmətov dəstəsi ilə rayon partiya komitəsinə hücum etdi. Əlinə iki yaylıq alıb ki, birini mənim (birinci katibin), birini də rayon İcraiyyə Komitəsinin sədrinin başına bağlayıb, bizi rayon rəhbər kimi rüsvay edib, xalqın gözündən salsın və rayonda hakimiyyəti ələ alsın. Deməli, Ə. Hümmətovun Astara rayonunda həyata keçirdiyi siyasi aksiya bütövlükdə SSRİ-nin dağılmasına yönəlmiş xarici qüvvələr, və SSRİ-nin mason birliyi tərəfindən idarə olunurdu. Birinci növbədə Mərkəzi Komitənin ikinci katibi B. P. Polyaniçkoya zəng vurub, vəziyyəti bildirdim. O, dedi ki, demokratik qüvvələrin işinə qarışmağa Moskva icazə vermir, gör özün nə edə bilərsən. Qardaşım Aydın Məmmədov respublika daxili işlər naziri idi. Ona zəng vurdum və dedim ki, Ə. Hümmətov beş yüz nəfərlə raykoma hücum edir. O da eyni sözləri dedi. Sonra sərhəd dəstəsinin komandiri R.R.Tarasenkoya zəng vurdum. Dedi ki, Moskva bizə qəti tapşırıb ki, bu işlərə qarışmayaq.

Yaxşı ki, raykomun ətrafına xeyli rayon əhalisi toplaşmışdı. Onlar bir nəfər kimi əl-ələ verib, Ə. Hümmətovun quldur dəstəsinin qabağını kəsdilər və onları geri oturtdular. Əhali Ə. Hümmətovun son məqsəd və niyyətini biləndən sonra onu güclü təzyiqə məruz qoydular və rayondan qovdular. Ə.Hümmətov Astaradan gedib, Lənkəranda rayon partiya komitəsini bağladı. Bu fakt bir daha sübut edir ki, ölkəyə rəhbərlik edən M. Qor-

baçov, A. Yakovlev, E. Şevardnadze, V. Bakatin və s. xəyanətkar mason siyasəti güdüblər.

Ə.Hümmətov vətən xaini kimi ömürlük həbs cəzasına məhkum edildi. Lakin Avropa Şurasının tələbi və təkidi nəticəsində siyasi dustaq kimi, vaxtından əvvəl həbsdən azad edildi və hazırda Hollandiya vətəndaşlığını qəbul edib, orada yaşayır. Xarici ağaları ona borclu qamadılar. Azərbaycan ana müxalifətinin fəal liderləri arasında Əliəkrəm Hümmətov kimi, xarici qüvvələrə xidmət edənlər olub.

## YEZUİTLƏRİN MALTA ORDENİ

Ən qədim mason ordenidir. Maltada mason ordeni, rıtsar cəmiyyətləri və s. gizli təşkilatlar çoxdur. Yezuitlərin malta ordeni 1534-cü ildə Parisdə ən xırda İspan mülkədarı İqnatisi lojala tərəfindən yaradılıb. 1540-cı ildə Roma papası III Pavel tərəfindən təsdiq edilib. Masonluğun katolik qanadını təşkil edir və məqsədi Papa hakimiyyətini müdafiə edib, möhkəmləndirmək, katolik dinini yaymaqdan ibarətdir. Müasir şəraitdə onun vəzifələri daha da genişlənib. Dünya siyasətində fəal iştirak edir, missionerliyi genişləndirmək, inqilabi islahatlar, katolik dinin təbliği və yayımağı və s. məsələlərlə məşğul olur. Demək olar ki, bütün sahələrə - elmə, təhsilə, iqtisadi, hərbi məsələlərə müdaxilə edir. Bir çox məsələlərə təşkilatları vasitəsilə təsir göstərir.

Əsas prinsipi məxfilik, ciddi intizam, kiçiyin böyüyə danışıqsız tabe olması və mərkəzdən idarədir. Ordenin başçısı ömürlük seçilən qara generalıdır və o, ancaq Papaya tabedir. Onun sözü orden üzvləri üçün qanundur. Ali məqsəd naminə hər cür cinayətə haqq qazandırılır. Orden üzvləri mənəvi sistemə uyğunlaşmır və şəraitə görə hə-

rəkət edirlər. İşdə müvəfəqiyyət qazanmaq üçün orden üzvlərinə hər cür həyat tərzi sürməyə icazə verilir. Ordenə məxsusluq və ordenin fəaliyyəti məxfilik prinsipi əsasında aparılır.

Malta ordeni yaradılandan sonra qısa müddətdə güclü inkişaf etmiş və dünyanın bir çox ölkələrinə yayılmışdır. Orden SSRİ-nin dağılmasında fəal iştirak edib və hazırda Rusiyanın hərbi-sənaye kompleksini zəiflətmək istiqamətində iş aparır.

Yezuitlərin Malta ordeni ilə yanaşı, Amerika və qərb dövlətlərin kəşfiyyat orqanları Rusiya hərbi sənaye kompleksini ələ keçirmək məqsədi ilə gecə-gündüz iş aparırdılar.

B.Yeltsinin hakimiyyəti dövründə Rusiya xarici kəşfiyyatçılar üçün cənnət idi.

Amerika səfirliyinin axırıncı mərtəbəsində milli təhlükəsizlik agentliyinin müasir kompüterləri gecə-gündüz işləyirdi.

Nəticədə 1992-94-cü illərdə on milyardlarla qiyməti olan, ən yeni texnologiyaya malik hərbi sənaye kompleks müəssisələri dəllallar vasitəsi ilə ucuz qiymətə xarici kampaniyalara satılırdı. Belə acınacaqlı vəziyyət Hesablama Palatasının hesabatında əks etdirilib.

**"Rusiya hərbi sənaye kompleksində acınacaqlı vəziyyət yaranıb. Xarici firmalar Rusiyanın aparıcı müəssisələrin aksiyalarına sahib olublar. Amerika və İngiltərə firmaları "Miq", "Suxoy", Yakovlev adına konstuktor bürosunun, İlyuşin adına avia-kompleksin aksiya paketini alıblar. Almaniyanın**

**"Simens" firması Atom sualtı qayıqlar üçün müasir avadanlıq istehsal edən Kaluqa zavodunun 20%-aksiyasını alıb. Rusiya həmin müəssisələrə dövlət hüququnu itirməklə yanaşı, dövlət əhəmiyyətli müdafiə qabiliyyətini də itirir".**

Eyni məsələ barədə Dövlət Təhlükəsizlik Komitəsi və Xarici Kəşfiyyat İdarəsi də dövlət başçısı B. Yeltsinə məktubla müraciət edib: **"Hərbi sənaye kompleksi müəssisələrinin xarici firmalar tərəfindən özəlləşdirilməsi yeni məxfi texnologiyaların xaricə axmasına səbəb olub. Ümumiyyətlə, Qərb o qədər havayı hərbi sirr olan texnologiyalar əldə edib ki, NATO onların işlənməsi üçün xüsusi proqram hazırlayıb".** Qərbdə Rusiya hərbi texnologiyaları işləmək üçün xüsusi proqram hazırlanır, Rusiyada prezident B. Yeltsinin başı sərxoşluqdan ayılmır.

Beləliklə, təqdim edilən həyəcanlı məlumatlara heç bir reaksiya verilmir.

Nəticədə silah və hərbi texnika istehsalı on dəfədən çox azalıb, olan-qalan müasir texnika və silahda xaricə satılıb. Lakin B. Yeltsindən sonra hakimiyyətə gələn V. Putin hərc-mərcliyə, xəyanətə son qoydu. 2000-2004-cü illərdə Rusiya silah və hərbi texnika istehsalı və satışında dünyada birinci yerə çıxaraq, Amerikanı geridə qoyub. Nəhayət, Rusiyanın mason rəhbərliyinin xəyanətkar fəaliyyətinə son qoyuldu.

Malta ordeni XVII-XVIII əsrlərdə təkcə Avropaya yox Hindistan, Çin, Yaponiya, Fillipin, Praqvay və s. ölkələrdə yayılmışdır. Bu ölklərin siyasi həya-

tına o dərəcədə müdaxilə etmişdir ki, bir sıra Avropa ölkələri orden ilə hesablaşırdılar. 1773-cü ildə Papa Klimentiy XIV məcbur qalıb, formal olaraq ordeni buraxmışdır. 1814-cü ildə islahat və inqilablara qarşı mübarizə məqsədi ilə yenidən bərpa edilmişdir. XX əsrdə Yezuitlərin Malta ordeni masonluqun ən güclü aparıcı dəstəsi olaraq, dünya siyasətinə fəal təsir göstrir. Sosializmin iflasında digər quvvələrlə birlikdə fəal iş aparıb. 1971-ci ildə Malta ordeni 34 min üzvü birləşdirirdi, ən çoxu Amerikanın payına düşür. Amerikanın keçmiş vitse-prezidenti Albert Qor, Rusiyanın keçmiş prezidenti B. Yeltsin yezuitlərin Malta ordenin üzvüdür.

Malta ordeninin mənzil-qərargahı 1992-ci ildən Moskvada fəaliyyət göstərir və "humanitar" məsələlərlə məşğul olur. Ordenin maliyyə, maddi və ideoloji iş aparmaq imkanları çox genişdir. Ordenin ixtiyarında 1300 qəzet, telekanal, nəşriyyat və s. vardır. Onların əlində ölkələrin təbii sərvətləri, transmilli şirkətləri, maliyyə və maddi vasitələri cəmlənmişdir. Bir sözlə, yezuitlərin Malta ordeni masonluğun aparıcı qüvvəsidir və dünyanın bir çox ölkə başçılarını, siyasətçilərini, bankirlərini və s. əhatə edir, sanki hörümçək toru tək bütün sahəni bürüyür.

Malta ordeninin digər qolu Müqəddəs İoan Yerusəlim ordenidir. Bu orden özünü Katolik ordeninə qarşı qoyur və mənzil-qərargahı Vatikanda yerləşir.

Bu orden iddia edir ki, cəngavər-qospitaler qolun davamçısıdır. Fransada, İspaniyada və Ameri-

kada mənzil-qərargahı vardır. SSRİ-i dağılandan sonra bu ordenin rəhbərliyi çox çalışırdı ki, Rusiya ilə diplomatik əlaqəni bərpa etsin. Rusiya prezidenti B. Yeltsin İspaniyada müalicə olunarkən Müqəddəs İoan Yerusəlim ordeninin nümayəndələrini qəbul edib, onlara vəd vermişdi ki, Rusiyanın bu ordenlə rəsmi münasibəti bərpa olunacaq. Görünür, B. Yeltsin sərxoş olduğundan, Malta ordeninin müxtəlif mason qollarını qarışıq salaraq, Malta ordeninin Katolik qolu-Yezuitlərin Malta ordeni ilə Rusiya arasında münasibətləri bərpa etmək barədə 7 avqust 1992-ci il tarixdə fərman imzalanmış və ona diplomatik status verilmişdir.

Müqəddəs İoan Yerusəlim ordeninin rəhbərliyi incikliklərini gizlədərək, məqsədlərinə çatmaq üçün səylərini artırmış və müxtəlif vasitələrə əl atmışlar. 1995-ci ilin iyun ayında Müqəddəs İoan Yerusəlim ordeninin Böyük Magistri şahzadə Georq I (İspaniya kralının qohumu) Rusiya prezidenti Boris Yeltsinə və Rusiya Xarici İşlər naziri Y.Primakova məktub göndərərək, onlara prezident seçkilərində uğur arzulamaqla, münasibətlərin bərpa ediləcəyi təqdirdə Rusiya iqtasiyyatına böyük məbləğdə investisya qoyulacağını vəd etmişdir. Bu məktuba heç bir reaksiya verilməmiş və məktub cavabsız qalmışdır. Onda Müqəddəs İoan Yerusəlim ordeni Fransa vətəndaşı Vladimir Pavlenko başda olmaqla, Rusiyada nümayəndəlik açır. V. Pavlenko Rusiya vətəndaşı olub, akademik S. Şatalninin rəhbərliyi alında işləyib, Moskva

Dövlət Universitetində dərs deyib, orada oxuyan fransız qızı ilə evlənib və Parisə köçüb. Onu Fransa kəşfiyyatına götürüb, Müqəddəs İoan Yerusəlim ordeninə təyin edirlər.

1996-cı ilin fevral ayından bütün instansiyalara aramsız olaraq məktublar yazılır və tələb edilir ki, Müqəddəs İoan Yerusəlim ordeninə diplomatik status verilsin. Prezident aparatına, Xarici İşlər Nazirliyinə, Dumaya, Federasiya Şurasına, prezident B. Yeltsinin qızı Tatyana Dyaçenkoya və s. yazılan məktublar cavabsız qalır. 1996-cı il 9 iyul tarixdə T. Dyaçenkoya yazılan məktubda qeyd edilir ki, MİY ordeni ilə Rusiya Federasiyası arasında diplomatik maneləri aradan götürüb, məsələni həll etmək üçün təcili və obyektiv tədbirlər görsün.

Bu məsələnin həlli çox vacibdir və təcili həll edilməlidir. Belə ki, söhbət əhaliyə çoxmilyonluq köməkdən və iqtisadiyyata qoyulan investisyadan gedir. V. Pavlenko Xarici İşlər Nazirliyin işçilərin inandırmağa çalışır ki, diplomatik status həll edilən kimi, 7 milyard dollardan keçməyə hazırdır. Söhbət birinci növbədə Malta ordeninin Rusiyanın 1917-ci ildə Amerika banklarında dondurulmuş 23 milyard dollar məbləğdən gedir. Bu məsələnin həllinə Malta ordeninin cəngavəri, Amerikanın vitse-prezidenti Albert Qor söz verib. Bütün cəhdlər baş tutmayandan sonra Malta ordenin rus şöbəsinin rəhbəri Cak Massonun göstərişi əsasında V. Pavlenko başqa yollara əl atır.

26 noyabr 1996-cı ildə Lixtenşteyn şəhərində yüksək ulduzlu "Vadusa" mehmanxanasında Kremlin yüksəkrütbəli məmurları ilə ordenin nümayəndələri arasında görüş keçirilir. Görüş çox məxfi şəraitdə keçir. Görüşdə Rusiya Nazirlər Kabineti sədrinin birinci müavini Potaninə dəyəri 400 min dollar olan üçüncü minilliyə aid heykəltaraşlıq əsəri (sitatuetka) hədiyyə edilir. Başqa məmur, B. Yeltsinin iqtisadi məsələlər üzrə müşaviri cənab İqnatyevə dəyəri bir milyondan çox olan, eramızdan üç əsr əvvəl hazırlanmış qızıl medalyon hədiyyə edilir. Hədiyyələr onların həqiqiliyini təsdiq edən sertifikatlarla təmin edilmişdir. İki başqa adları məlum olmayan məmurların hər birinə Malta ordeninin rəmzi və dəyəri dörd min dollar olan qızıl saatlar verilmişdir. Ümumiyyətlə, Rusiya nümayəndələrinin qəbulu mason qardaşlara 2112480 dollara başa gəlmişdir. Kreml məmurları aldıqları hədiyyələri Avropada satıb, Rusiyaya qayıdırlar. Vaxt keçir, məsələ öz həllini tapmır. Mason ordeninin qərargahında narahatçılıq artır. Nəticədə V. Pavlenkonu işin öhdəsindən gələ bilmədiyi üçün Rusiya nümayəndəliyindən geri çağırırlar. Malta ordeni öz axtarışından əl çəkmir və yeni-yeni yollar axarır. V. Pavlenkodan sonra məsələnin həlli ilə Xarici İşlər Nazirliyinin sabiq məsul işçisi və M. Qorbaçovun yaxın silahdaşı, yenidənqurmanın memarı A. Yakovlev məşğul olur. A. Yakovlevə söz verirlər ki, əgər məsələ müsbət həll olarsa, onun fonduna Amerikadan bir neçə milyon dollar

vəsait keçiriləcək. Malta ordeni ilə Rusiya arasında diplomatik münasibət və status məsələsi isə həll olmur ki, olmur. Səbəb isə ondan ibarətdir ki, Xarici İşlər Nazirliyinin məsul işçiləri Malta ordeninin fəaliyyətindən məlumatlı olub, hökumət rəhbərliyinə xəbərdarlıq ediblər ki, Müqəddəs İoan Yerusəlim ordeni klassik mason təşkilatıdır, onunla hər hansı münasibət təhlükəlidir.

# MASONLUQ VƏ MİSSİONERLİK

Mason təşkilatları öz fəaliyyətində və nəzərdə tutduqları məqsədlərin həyata keçirilməsində Missionerlikdən geniş istifadə edirlər. Missioner təşkilatları zahirən humanist fəaliyyətlə məşğul olan qeyri-hökumət qurumlarıdır. Əslində, onların fəaliyyəti və məqsədi fəaliyyət göstərdikləri ölkələrdə dinə qarşı mübarizə aparmaqla, azsaylı xalqların hüquqlarını müdafiə etmək adı altında milli münaqişə törətmək, dövlətin əleyhinə iş aparmaq, xarici kəşfiyyat orqanları üçün casusluq yuvası kimi və s. iş görməkdir. 1992-ci ildə yezuitlərin Malta ordeni Moskvada öz mənzil-qərargahını açaraq, guya xeyriyyə və humanitar işlərlə məşğul olacaq. Əslində, həmin təşkilat Rusiyanın hərbi-sənaye kompleksini dağıtmaq, rus millətçi vətənpərvər qüvvələri parçalayıb, zəiflətmək, xristianlığa qarşı təbliğat aparmaq, milli münasibətləri pozmaq və s. dağıdıcı işlərlə məşğul olur.

Son illərdə (SSRİ dağılandan sonra) Azərbaycanda da xarici ölkələrin missioner təşkilatları geniş fəaliyyət göstərməyə başlamışlar. Mətbuatda verilən məlumata əsasən Azərbaycanda 110-dan çox missioner təşkilatı vardır ki, bunların da 56-sı Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. Missio-

ner təşkilatları əsasən Amerika, Qərbi Avropa və Rusiyanı təmsil edirlər. Heç şübhə yoxdur ki, missioner təşkilatları mason siyasətinə xidmət etməklə yanaşı, xarici ölkələrin xüsusi xidmət orqanları üçün yuva mərkəzi rolunu oynayırlar. Onların əksəriyyəti humanist məqsədlərə xidmət etdiklərini və humanitar məsələlərlə məşğul olduqlarını bəyan edirlər. Müşahidə göstərir ki, bu təşkilatların çoxu humanist yox, şeytani fəaliyyət göstərirlər. Açıq-aşkar islam dininə qarşı çoxşaxəli iş aparırlar. Xalqlar arasında azadlıq, müstəqillik şüarı altında milli münaqişəyə rəvac verirlər, xalqların milli, dini, mənəvi hislərini zəiflətmək istiqamətində iş aparırlar. Məqsəd ölkəni, xalqı zəiflədib, təsir altına almaqdır. Bu da son nəticədə beynəlxalq mason siyasətinə xidmət edir.



Keçmiş fransız masonu **Konen Alboşselli** yazır: **"Çoxları belə fikirləşirlər ki, ölkəni ancaq silah gücünə təslim etmək olar. Bu ciddi səhvdir. Belə yaralar var ki, xalq qanını tökməkdən də güclü təsir edir. Bu yaralar xalqın qəlbinə vurulan yaralardır. Xalqın qəlbi onun ənənələri və əsrlərlə davam edən adətləri ilə bağlıdır. Bu adət və ənənələr xalq həyatının həqiqi mənbəyini təşkil edirlər. Ağac öz kökləri ilə münbit torpaqdan qidalanıb, yaşadığı kimi, xalq da keçmiş milli və mənəvi dəyərləri ilə, milli yaddaşı ilə keçmiş nəslin ənənələri və şücaəti ilə qidalanıb, yaşayır. Bütün bunlar həyatın gücünü təşkil edir ki, keçmiş nəsil gələcək nəsil üçün miras qoyub, gedir.**

**Ona görə bir xalqın qəlbini və ya xalqın özünü məhv etmək istəyəndə yaşayan nəsli onun keçmişindən ayırmaq, keçmiş ənənələri xalqın yaddaşından silmək, xalqda keçmişinə nifrət yaratmaq kifayətdir. Bu ona bənzəyir ki, ağacı qurudub, məhv etmək üçün ona qida verən kökləri kəsəsən və ağac münbit torpaqdan qidalana bilməsin, məhv olub, getsin".** Bax missionerlərin mason siyasətini həyata keçirmək üçün apardıqları iş belə mahiyyət kəsb edir və ilahi imperiya yaratmaq məqsədi daşıyır.

Konkret olaraq, Azərbaycanda missioner təşkilatlarının fəaliyyəti barədə bir neçə fakta nəzər yetirmək kifayətdir. Həmin faktların bir qismi "Şərq"lə "Yeni Azərbaycan" qəzetlərində dərc edilmişdir. Ədliyyə Nazirliyində qeydiyyatdan keçən "Mnimiya" və "Mədh kilsəsi" (Sobor Xvalı) və s. missioner təşkilatları diqqəti cəlb edir. Adı çəkilən missioner təşkilatlarının qeydiyyatdan keçməsi məhz ABŞ hökumətinin tələbi nəticəsində mümkün olmuşdur. 1999-cu ilin noyabr ayının 9-da ABŞ səfiri S. Eskudera dini azlıqların hüququnun pozulması ilə əlaqədar ABŞ dövlət departamentinin bəyanatını və dörd senatorun məktubunu ölkə başçısına təqdim etmişdir. Bunlardan başqa Azərbaycanda "Həyatverici lütf", "Beynəlxalq bibliya" cəmiyyəti, "Yəhva şahidləri", "Həyat sözü" kilsəsi fəaliyyət göstərirlər. "Həyatverici lutf" təriqətinin mərkəzi ABŞ-ın rəsmi qeydiyyatından keçib. Fəaliyyət göstərdiyi müddətdə "Bakı Bibli-

ya" institunu yaradıb, Nizami adına Ədəbiyyat Tarixi Muzeyi, Şəhriyar adına klubda, Kirxa zalında tədbirlər keçirir. İslam dininə qarşı güclü təbliğat və mübarizə aparırlar. Azərbaycana xaricdə nəşr olunmuş on minlərlə ədəbiyyat gətirirlər.

**"Allah və İslam" kitabında müsəlmanların inam** gətirdikləri Allahı İblis adlandırırlar, Quranı-Kərimi İblis kəlamı, Məhəmməd Peyğəmbəri İblisin qulu adlandırıb, təhqir edirlər. Xristanlığı qəbul etməyən müsəlmanların cəhənnəmə gedəcəkləri iddi olunur. **"Yolunu azmışların duası"** kitabında müsəlmanlar yolunu azmışlar adlandırırlar. Qurani Kərimin Fatihə sürəsi təhqir olunur. Çox vaxt xristianlaşma prosesində maddi maraq prinsipi tətbiq edilir. Bu işdə ingilis dili kuslarından da geniş istifadə olunur. Bu məqsədlə xeyli ingilis dili kursları təşkil olunur və kursa gələnlər dini təbliğə məruz qalırlar.

**"Mədh kilsəsi" missioner təşkilatı.** 1999-cu ilin sentyabr ayının 2-də Nəsimi rayon polis əməkdaşları reyd geçirərkən mənzillərin birində bu təşkilata məxsus külli miqdarda qanunsuz dini ədəbiyyat aşkar etmişlər. "Mədh kilsəsi" humanitar təşkilat kimi qeydiyyatdan keçməsinə baxmayaraq, dini təbliğatla məşğul olur. Xarici vətəndaşların dini təbliğatla məşğul olmaları qanundan kənar olması barədə onlara xəbərdarlıq etdikdə, onlar Nazirlər Kabinetinə müraciət edərək, dini təbliğata icazə verilməsə, heç bir humantiar yardım göstərməyəcəklərini bildirmişlər və dövlət orqanlarını şantaj etməyə başlamışlar.

Missionerlərə himəyadarlıq edən beynəlxalq təşkilatların ermənilərlə əlaqələri də diqqəti cəlb edir. "Həyatverici lütf" Beynəlxalq Bakı Bibliya cəmiyyətinin xətti ilə onlarla azərbaycanlı gənc xarici ölkələrə, ABŞ-a, İsrail və İsveçə göndərilir. Bu səfərlər zamanı erməni xristian qardaşlarla görüşlər təşkil edilir, qardaşlıq məhəbbəti təlqin olunur.

**"Yevangelçi xristian baptistlər"** kilsəsinin dəvəti ilə Bakıya gələn Rusiya vətəndaşı A. Kostenko MTN-nin sərhəd qoşunları tərəfindən saxlanılıb və onun Ermənistan xüsusi xidmət orqanları ilə əməkdaşlığı ifşa olunduğundan, ölkədən xaric edilmişdir. Xarici ölkələrin missioner təşkilatlarının apardığı təbliğat və maddi həvəsləndirmə tədbirləri nəticəsində 12 minə yaxın Azərbaycanlı islam dinindən imtina edərək, xristian, krişna, iudaizm və s. dinləri qəbul etmişlər.

Beynəlxalq mason təşkilatlarının siyasətini həyata keçirən missioner təşkilatlarının millətlər və dinlər arasında fərqi silmək cəhdləri qismən də olsa nəticə verir. Onların məqsədi milli dini fərqi silib, dünyanı bir qanun və bir hakimiyyətlə idarə etməkdir. Azərbaycanda missioner təşkilatları getdikcə öz məkrli işlərini daha da genişləndirir və rayonlarda xristian və s. dinlərin yayılması sahəsində iş aparırlar. **5 sentyabr 2006-cı il tarixli "Novoe vremya" qəzeti "İeqova şahidləri hucuma keçiblər" başlığı altında məqalə dərc edib.** Məqalədə deyilir ki, "İeqova şahidləri" Qusar rayonunda öz fəaliyyət dairəsini genişləndiriblər. Qusarda

bu təşkilatın üzvləri yüz nəfərdən çoxdurlar. Rusiya xüsusi xidmət orqanlarının yaxından iştirakı və köməyi nəticəsində "İeqova şahidləri" missioner təşkilatı Qusarda ciddi və güclü iş aparır. Bu təriqətin fəalları əhali arasında dini ədəbiyyatın yayılması və islama qarşı təbliğat aparılması işini gücləndiriblər. İki həftə bundan əvvəl Qusara Bakdan iki avtobus bu təşkilatın üzvü olan uşaq və gənclər gəlmişlər. Onlar istirahət mərkəzi Küsnətdə toplaşmışlar. İstirahət adı altında gələn gənclər bir gündən sonra oranı tərk etmişlər. Onların arasında müxtəlif millətlərin nümayəndələri var idi. Mənbənin verdiyi məlumata əsasən, təriqətin üzvləri Rusiya xüsusi xidmət orqanları ilə əlaqədən xəbərsizdir. Verilən məlumata görə, Xristianlıq ən çox Qusar rayonunun Xurel kəndində yayılıb. Bu ərazidə Battistlər daha çox fəallıq göstərirlər və onlar öz sıralarına çoxlu yerli vətəndaşları cəlb ediblər. Verilən məlumatı Qusar rayonunun hüquq-mühafizə orqanları da təsdiq ediblər. Missioner təşkilatları öz dağıdıcı fəaliyyətlərini Salyan, İsmayıllı, Xaçmaz və respublikanın bir çox rayonlarında eyni uğurla davam etdirirlər.

# MASONLAR BEYNƏLXALQ İCTİMAİ RƏYİ NECƏ YARADILAR

"Sion müdriklərinin protokolu"na əsasən dünya hökmranlığına çatmaq vasitələrindən ən əsası kütləvi informasiya vasitələridir. Protokolda çox sadə və aydın yazılıb ki, kütləvi informasiya vasitələri, xüsusilə, mətbuat bizim (sionistlərin) əlində cəmləşməlidir. Biz mətbuatı elə cilovlamalıyıq və cilovu elə möhkəm tutmalıyıq ki, başqa səmtə xidmət etməsin. Belə münasibət təkcə qəzetlərə yox, həmdə kitab, jurnallara aiddir. Müasir şəraitdə mətbuatın əsas hissəsi masonlara xidmət edir və dünyanın aparıcı kütləvi informasiya vasitələri onların əlində cəmlənib.

Rusiyada bu sahə 1990-cı illərin ortalarında, A. Yakovlev, M. Qorbaçov və başqa masonlar hakimiyyətə gələndən sonra sionistlərin nəzarəti altına keçib. Ona görə, Rusiyada vatilə kommunist idelogiyasını təbliğ edən mətbuat orqanları antisovet mövqeyinə keçib, demokratiyaya xidmət etməyə başladılar. Bu sahəyə A. Yakovlov rəhbərlik edirdi. Rusiyada çıxan əksər qəzetlərə sarı mətbuat **(jeltaya pressa)** deyirlər.

"Sion müdrikləri protokolu"nda daha sonra yazılır ki, hakim dairələri lazımi istiqamətlərə yönəltmək üçün ictimai rəyi formalaşdırmaq üçün səbrlə, məqsədyönlü iş aparmaq lazımdır.

Konkret olaraq ictimai rəyi necə formalaşdırırlar? Bir neçə əyani misala müraciət etmək kifayətdir. N.S.Xruşşovun vaxtında Moskvada valyuta alverçilərinin açıq məhkəmə prosesi gedirdi. Valyuta alverinə milyonçu yəhudilər başçılıq edirdilər. Məhkəmə onlara ölüm hökmü çıxartmışdı. Dünya mətbuatı və görkəmli dissidentlər yəhudi cinayətkarların ölüm hökmünün ləğvinə çalışırdılar.

Nyu-York Unversitetinin professoru, mason Bertran Rassel N. S. Xruşşova məktub yazıb, yəhudi cinayətkarlarının ölüm hökmünün ləğvini tələb edirdi. N. S. Xruşov ona istehza ilə məktub yazıb, soruşur ki, niyə prof. Bertran Rassel ancaq yəhudi cinəyatkarlərının ölüm hökmünün ləğvini tələb edir. Halbuki, bu işdə ruslar da vardır. Məgər yəhudilər seçmə xalqdır, ruslar yox. Dünya mətbuatı prof. B. Rasselin məktubu ətrafında hay-küy salır, onu şişirdir, N.S.Xruşşovun məktubu barədə bir kəlmə də yazmırlar. Beləliklə, beynəlxalq aləmdə ictimai rəy yaranır və beynəlxalq ictimai rəyin gücü çox böyükdür.

1978-ci ildə Moskvada ABŞ-ın xeyrinə fəaliyyət göstərən iki casus tutulur. Bunların biri yəhudi Anatoli Şaranski, digəri rus Anatoli Filatov olur. Hər ikisinin cinayəti eyni xarakterdə, vətənə xəyanət, əcnəbi dövlətin xeyrinə casusluq etmək idi. Anatoli Şaronski hərbi sirlərlə yanaşı, SSRİ-də gen mühəndisliyi haqqında topladığı məlumatı xarici kəşfiyyata verməkdə ittiham olunurdu. O, RSFSR Cinayət Məcəlləsinin 64-a bəndi, 70-ci maddəsinin I hissə-

si ilə mühakimə edilib. Beynəlxalq təşkilat A. Şaranskinin müdafiəsinə qalxır. Nəticədə A. Şaranski 13 il iş alır, eyni maddə ilə mühakimə olunan Anatoli Filatova ölüm hökmü çıxarılır. Beynəlxalq ictimai rəy öz işini görür. A. Şaranski sonralar İsraildə nazir vəzifəsində işləyirdi. Başqa bir misal. 1997-ci ilin oktyabr ayında vətənpərvər rus generalı Albert Makaşov Moskvada mitinqdə çıxış edərək, bütün sionistlərin Rusiyadan qovulmasını təklif etmişdi. Bir anda ona qarşı amansız kampaniyaya başlayırlar və onu antisemitizmdə ittiham edirlər. Birincilər sırasında Stanislav Qovoruxin Dövlət Dumasında çıxış edərək, Albert Makaşovu antiseminizmdə ittiham etmişdir. Həmin S. Qovoruxin buna qədər özünü Rusiyanın müdafiəçisi kimi qələmə verirdi. Ancaq Rusiyanı ləkələyənlərə və alçadanlara səbrlə dözdüyü halda yazıq sionistlərin müdafiəsinə qalxdı. Ona görə də aşağıdərəcəli masonlar belə hallarda kara gəlirlər. Aşağıdərəcəli masonlar arasında ləyaqətli adamlara da rast gəlmək olur. Lakin onlar da az və ya çox dərəcədə sionizmə xidmət etmiş olurlar. Hətta onlar heç bir bəd əməllə məşğul olmayanda belə, öz nüfuzları ilə masonluğun imicini qaldırmaqla, zərərli iş görmüş olurlar.

Yeri gəlmişkən, iki məşhur dissident, öz fəaliyyətləri ilə sionizmə və masonluqa xidmət etmiş şəxslər haqqında məlumat oxucular üçün maraqlı olar. Bertran Rassel və Dmitri Saxarov cənabları. Bertran Rassel (1872-1970) də Dmitri Saxarov kimi böyük riyaziyyatçı alim, filosof, Nobel müka-

fatı laureatıdır. Həmçinin, ingilis anarxistlərinin, hippi, narkoman və qemoseksualetlərin rəhbəri və mühafizəçisi kimi çıxış edir.

Bertran Rassellin babası Lord Con Rassel İngiltərənin baş naziri olmuşdur. B. Rassel Allahı inkar edir və Kainatın Ulu Memarına sitayiş edir. Kosmopolitdir (yəni masondur), dünyəvi hakimiyyət qurulmasının tərəfdarı olub.

B.Rassel Nyu-York Unversitetində professor işləyərkən tələbələr arasında pozğunluq yaydığı üçün tələbə valideynlərinin tələbi əsasında unversitetdən qovulmuşdur. B.Rassel dörd dəfə evlənib, son dəfə 26 yaşlı qızla evlənib və uşağı olub. Aydın olur ki, onların nigahı saxta olub və uşaq başqasındandır. O, qadın kimi saç saxlayıb, hippiləri müdafiə edib. B.Rassel haqqında məlumat verməkdə məqsəd ondan ibarətdir, oxucularda təsəvvür yaransın ki, dünyada ictimai rəy yaradan və insan haqlarını müdafiə edən şəxslərin şəxsi həyatları necə olur. Öz şəxsi həyatlarını qura bilməyənlər dünya işlərini həll etməyə çalışırlar.

Elmdə dahi olanları, siyasətdə və həyatda yaramaz olanları bir qayda olaraq, masonluğa cəlb edib, onların nüfuzundan öz məsələləri üçün istifadə edirlər. Belələrindən akademik Saxarovu, yazıçı Soljenitsını, şair Y.Yevtuşenkonu və b. göstərmək olar. Belələri bir qayda olaraq, dissident və həmişə hər şeydən, yaşadıqları ölkədən, dövlət, quruluşdan narazı olurlar. Bu da onları xarici qüvvələrə satılıb, xidmət etməyə sövq edir. Dünyada ictimai rəy yaradan ta-

nınmış adlardan biri də akademik D. Saxarovdur.

Akademik Saxarovun dissidentlik fəaliyyəti "Sion protokolu"nun tələblərinə uyğun gəlir. Eyni zamanda akademik Saxarovun həyat tərzi və tərcümeyi-halı prof. B. Rasselin həyat tərzinə və tərcümeyi-halına uyğun gəlir. O da elmdə dahi, həyatda və siyasətdə yaramazdır. Rusiya belələrinə qeniot (qenialnıy idiot) deyilir. Qərb mətbuatı ak. Saxarovu ali dissident kimi təqdim edir. Bu işdə əsas rolu onun arvadı Yelena Bonner oynayır. Yelena Bonnerin atası Georqi Alixanov Ermənistan Kommunist Partiyasının birinci katibi olub. Represiyya vaxtı güllələyiblər. Saxarovun birinci arvadından olan iki oğlu atalarından imtina ediblər.

sürülən "Qlobal təhlükəsizlik layihəsi" pərdəsi altında həyata keçirilirdi. Bu layihə dünyanın müharibələrsiz və münaqişələrsiz qurulması kimi, şübhəsiz həqiqəti bəyan etməklə, beynəlxalq təşkilatların və ilk öncə NATO-nun hakimiyyətinin hədsiz güclənməsini nəzərədə tuturdu. Qorbaçov Fondu layihəsi üzrə insanlıq üzərində tam nəzarət faktiki olaraq, nisbətən yüngül birləşmiş formada ABŞ-ın və onun Şimali Atlantik Atlantik Bloku üzrə müttəfiqlərinin əlinə verilirdi.

Təəccüblü deyil ki, "Qlobal təhlükəsizlik layihəsi" 19 oktaybr 1994-cü ildə Beynəlxalq Münasibətlər üzrə Şurada (BMŞ) bəyənilmişdir. Elə həmin vaxt Buş Qorbaçov Fondunun (ABŞ) və D.Harrisonun başçılıq etdiyi Xarici Beynəlxalq Assosiasiyasının yenidən qurulması, yeni mondialist strukturun - Dünya Forumunun (DF) yaradılması barədə qərar verir. Yeni strukturu formalaşdırmaqla, dünya pərdəarxası siyasətçiləri vahid dünya dövləti və dünya hökuməti ideyasını sanki leqallaşdırırlar. DF-nin qarşısına "qlobal dövlət" və "inteqrasiya edilmiş qlobal idarəetmə" yaradılmasına doğru mərhələli hərəkət etmə, eləcə də dünya ictimai fikrini həmin addımların mütərəqqiliyinə və zəruriliyinə hazırlamaq vəzifəsi qoyulur. DF-nin 1995-ci ilin sentyabrında San-Fransiskoda keçirilən birinci konfransında Beynəlxalq Münasibətlər üzrə Şuranın, Bilderberq klubunun, Üçtərəfli Komissiyanın, eləcə də bir çox mason lojalarının çoxlu nümayəndələri iştirak etmişdir. Sim-

volikdir ki, DF-nun iclasları Kaliforniyanın baş mason templinin böyük konfrans zalında keçirilirdi. Konfransda iştirak etmək (beş gün) hüququ verən biletin qiyməti 5 min dollar təşkil edirdi (yemək və mehmanxana xərcləri də daxil olmaqla).

C.Buş, C.Beyker, Z.Bjezinski, M.Qorbaçov, M.Tetcer, T.Terner, K.Sarqon, D.Denver və bir çox digərləri kimi, dünya gizlinlərinin - görkəmli xadimlərinin nitqlərində "yeni dünya qaydası", "dünya dövləti", "qlobal idarəetmə" tək sözlər daim səsləndirilirdi. Belə ki, məsələn, dünya gizlinlərinin baş nəzəriyyəçilərindən biri Z.Bjezinski bəyan edirdi ki, **"dünya idarəetməsinin qloballaşması könüllü istək və ya könüllü iradə deyil, lakin qaçılmaz prosesdir"**, ona nəzarət etmək lazımdır. DF məhz həmin prosesləri nəzarət etmək üçün yaradılır.



Qorbaçovun özü bu konfransda yeni sivilizasiya erasını bəyan etdi. Konfrans ərəfəsi buraxılmış **"Yeni başlanğıcın axtarışında: yeni sivilizasiyanın inkişafı" kitabında** o bəyan etmişdir ki, **"inteqrasiya edilmiş qlobal siyasəti inkişaf etdirmək vaxtı çatdı."** Qorbaçov beynəlxalq qanunların xeyrinə milli hökumətlərə öz suverenliyindən imtina etməyi təklif etməklə, gələcək dünya hökuməti və milli dövlətlər arasında konsensus ideyasını irəli sürür. Onun fikrincə, gələcək dünya dövləti Yerin bütün sakinlərinə dünya liderləri qrupu tərəfindən xülasə edilən **"ümumi inam, dəyərlər, standartlar, həyat tərzi"** diktə edəcək. Qorbaçov **"Qlobal beyin tresti"** adlandırılan 800 nəfər "yenilikçi-müdrükləri"

seçməyi, bəşəriyyətin qlobal proseslərini idarə etmək üçün onlara hər il Prezidioya toplaşmağı təklif edir. Sov. İKP-nin sabiq Baş katibi Yer Xartiyası - bütün yer sakinlərinin yaşamalı olacağı planetin hüquqları haqqında Billi yaratmağı təklif edir.

Konfransın bir çox iclasları ciddi surətdə qapalı xarakter daşımışdır. Mətbuat nümayəndələri və sadə adamlar ora buraxılmırdılar. Yer kürrəsi əhalisinin sayının nizamlanmasına dair liberal yanaşmadan imtina, təbii ehtiyatların azaldılması, həyat tərzinin sadələşdirilməsi, eləcə də dünya sərvətlərinin yenidən paylaşdırılması kimi, məsələlər üzrə görüşlər xüsusi məxfi şəraitdə keçirilirdi. Bağlı qapılar arxasında yəhudi-mason sivilizasiyasının nümayənədələri **“Qərb ölkələrinin çiçəklənməsinə mane olan Yer kürəsi əhalisinin artıq hissəsini azaltmaq barədə”** qərar qəbul edirdilər.

Sərvətlərin yenidən paylaşdırılması barədə məsələni müzakirə edərək, dünya gizlinlərinin liderləri zəif inkişaf etmiş dövlətlərin problemlərindən narahat olmur, üçüncü dünyanın istismarı nəticəsində Qərbin əldə etdiyi sərvətlərin onlarla bölüşdürülməsinə səy etmir, ilk növbədə keçmiş sovet respublikalarını qanunsuz əldə etmək üçün yeni yollar və mənbələr axtarırlar.

Konfransın son günündə orada iştirak edən dünya gizlinlərinin nəhəng xadimləri - Buş, Tetçer və Qorbaçov arasında BMT-nin gələcək **"bəşəriyyətin qlobal idarəedilməsi"ndə** rolu barədə diskussiya açıldı. Bu diskussiyadan aşkar oldu ki, dünya gizlinlərini

BMT təşkilatının hazırkı vəziyyəti qane etmir, çünki onun nümayəndələrinin tərkibi milli əlamətə üzrə formalaşır və üzv-dövlətlər ora öz nümayəndələrini şəxsi mülahizələrinə görə göndərirlər. BMt üzv-dövlətlərinin nümayəndələrinin xeyli hissəsi dünya gizlinlərinin diqtəsi altında deyillər və öz milli maraqlarına müvafiq olaraq, müstəqil qərarlar qəbul etməyə meyillidirlər. Yalnız yəhudi-mason sivilizasiyasının mövqelərini ifadə edən Dünya hökuməti BMT-nin imkanlarını məhdudlaşdırmağa, onu dünyanın gizli sahiblərinin çıxardıqları qərarları həyata keçirmək üçün texniki aparata çevirməyə cəhd edir.

Məsələn, M.Tetçer 1995-ci il konfransında açıq şəkildə bəyan etdi ki, ən mühüm dünya problemlərini BMt-nin baxışına saxlamaq olmaz - onları yeni, bunun üçün daha yaralı olan təşkilat həllə edəcək. Dünya hökuməti haqqında məsələ qaldırmaqla dünya gizlinləri xadimləri onun əsasında bütün dünyanın milli qüvvələrinin ədalətli təmsilçiliyi barədə BMT prinsipini qoymağa hazırlaşmırlar. Onlar istənilən ölkənin milli suverenliyinə qəsd etmək hüququna sahib olan millətlərüstü orqanın yaradılmasına, tabe olmayanlara qarşı hərbi gücdən istifadə etməyə çalışırlar. DF üzvlərinin planına əsasən, dünya hökumətinin personal tərkibi bizim planetin bütün xalqları tərəfindən deyil, Bilderberq klubu, Beynəlxalq Münasibətlər üzrə Şura və Üçtərəfli Komissiya kimi, mondualist qurumların məxfi yığıncaqlarında müəyyən ediləcəkdir.

Dünya gizlinləri BMT-dən dünyanın azad ölkələrinə təsir göstərmək üçün texniki alət kimi istifadə edirlər. DF-nun konfransında ABŞ hökuməti ilə birgə BMT Dünya Bankının hazırladığı dünya əhalisi sayının nizamlanması proqramı bəyənilmişdir. Proqramın başlıca məqsədi - yəhudi-mason sivilizasiyasına aid olmayan ölkələrdə doğumun kəskin azalmasını təmin etməkdir. Bu proqram kişi və qadınların məcburi stresləşməsinə qədər ən müxtəlif tədbirləri nəzərdə tutmaqla, 100-ə yaxın dünya ölkəsini əhatə edir. Bu antihumanist proqramın həyata keçirilməsinə əsas məsul olan şəxslərdən biri, dünya gəlirlərinin nüfuzlu şəxsi Rokfeller Fondunun maliyyə komitəsinin direktoru, Bilderberq klubu rəhbərlərindən biri və Beynəlxalq Münasibətlər üzrə Şuranın üzvü, Ümumdünya Bankının direktoru O.Volfensondur.

DF-nun növbəti konfransı da həmçinin, xüsusi elan verilmədən 1996-cı ilin oktyabrın əvvəlində elə həmin yerdə, yəni San-Fransiskoda keçirildi. Onu Beynəlxalq Münasibətlər üzrə Şuranın üzvü, benyəlxalq yəhudi "Bnay-Brit" mason lojasının rəhbərlərindən biri, Karneqi David Hamburq şirkətinin prezidenti açmışdır.

Dünya hökumətinin yaradılması və qlobal idarəçilik haqqında məsələyə DF-nun Strateci təşəbbüsü adlandırılan çərçivədə ətraflı baxılmışdır. Ravvin A.Hersberqin, ABŞ senatoru A.Kronstonun, ABŞ-ın strateji təyinatlı qoşunlarının sabiq baş komandanı L.Batlerin məruzələrində **"Qlobal təhlü-**

**kəsizliyin yeni arxitekturası"**nın yaradılmasının zəruriliyi barədə məsələ qaldırılmışdır. Belə sistemin yaradılması onlar tərəfindən hazırlanmış dünyanın yeni nizam qaydasını qəbul etməyə razı olmayan üçüncü dünya ölkələrinin müqavimətini qırmaq və bütün bəşəriyyətin təbii ehtiyatları hesabına yəhudi-mason sivilizasiyasının mövcudluq şəraitini təmin etmək kimi başa düşülürdü.

Tərkisilah haqqında xeyirxah arzularını söyləməklə, Dünya Forumu xadimləri ABŞ-ın və digər Qərb ölkələrinin diqtəsinə tabeçilik göstərməyən hökumətləri ordularının birtərəfli qaydada tərkisilah edilməsini nəzərdə tuturdular. "İnsan hüquqları pozulan" və ya hakimiyyətdə "diktator rejimi" olan ölkələrə silah və strateci komponentlərin satılmasının qadağan edilməsi təklifləri irəli sürülür. Dünya Yəhudi Konqresinin sabiq vitse-sədri, ravvin Hersberq **"İnsanın öhdəlikləri xartiyası"** təşəbbüsü ilə çıxış edir. Bu öz mahiyyətinə görə, Qərb dünyasının kosmopolitik dəyərlərinə baş əyməyə, xristian əsaslarının və patriotizmin inkarına yol açmaq deməkdir.

1996-cı ildə DF-də bəşəriyyətin ümumi mənəvi böhranına yəhudi-mason dünyası tərəfindən xristian sivilizasiyasının dağıdılması kimi deyil, bəşəriyyətin xeyli hissəsinin ona sırınan kosmopolit dəyərlərə və yad həyat tərzinə müqavimət göstərməsi kimi baxıldı. Dini filosoflar S.Kin, M.Palmer, dünya gizlinləri xadimi D.Hamburqun məruzələrində başlıca olaraq, iudey (yəhudi) mə-

dəniyyətinə əsaslanan Qərb dəyərlər sisteminə bütün bəşəriyyət üçün hesabat nöqtəsi təki bazılır, ona qarşı hər cür müqavimət köhnəlmiş, mürtəce həyat tərzi kimi qiymətləndirildi.

S.Kin, məsələn, DF-yə Yer kürəsinin ekoloji probleminin belə bir həllini təklif etdi: "**Əgər biz Yer kürəsinin əhalisini 90%-ə qədər qırsaq, onda ekoloji problem yaradan adamlar qalmayacaq**". Bu təklif iştirak edənlərin gurultulu alqışları ilə qarşılandı.

DF-də toplanan bütün konfransın ən mühüm fərqli xüsusiyyəti onların antixrist təmayüllü olması idi. Dünya gizlinləri xadimləri sanki İsa peyğəmbərin vəsiyyətlərinə (öyüdlərinə) öz mənfi münasibətlərini nümayiş etdirirdilər. Xristianlığın mövqeyi heç bir məruzədə öz əksini tapmamışdı. Bir çox çıxışlarda öz mahiyyətinə görə, ateizmə yaxın olan satana-panteist təlimi hesab edilən "Yeni əsr" (New ayac) dini nümayəndələrinin baxışları üstünlük təşkil edirdi.

Məruzəçilərin əksəriyyəti, Xilaskarın (İsa Peyğəmbərin) öyüdlərinə yer olmayan gələcək dinin həqiqiliyini bəyan etməklə, "Vavilon qülləsi" inşaatçılarının satana (Şeytan) kompleksini ifadə etdilər. Gələcək dində yalnız bəşəriyyətin əzab çəkməsi və hətta böyük hissəsinin məhvi hesabına sərvətlər əldə etmək ehtirası ilə alışıb-yanan kosmopolit biznesinin Allahı haqqında əlverişli təsəvvürləri yer tapır.

DF-nin prezidenti O.Harrisonun da mənsub olduğu "Yeni əsr" dininin ardıcıllarının elitası bu

mondialist təşkilatın konfransında adı Qərb dünyasında gurultulu səslənən "yeni əsrin" müsiqiçisi D.Denver, aktyorlar Ş.Makleyn və D.Viver, yazıçı D.Çorpa (əsasən ruhların köçməsi haqqında satana-mistik xarakterli kitabçalar), Esalen İnstitutunun banisi M.Mörfi, futuroloq D.Neysbitt, Dünya İnstitutunun direktoru R.Müller, dianetik sektanın başçısı B.Habbard ilə təmsil olunurdu.

"Yeni əsr" dininin təmsilçisi D.Denver uşaq xoru ilə birlikdə "Yeni əsr" ruhunda ritual nəğməni ifa etməklə, faktiki olaraq birinci konfransı açmışdır. Bütün başlıca məsələlərdə "yeniəsrçilər" ton verirdilər: "Yer kürəsi" əhalisinin nizamlanması problemləri haqqında qurumda filosof S.Kin danışdı. Konfransda V.Qarman (İlahiyyat elmləri İnstitutunun prezidenti, 1960-cı illər psixi narkomaniyasının qurucusu), O.Şigen, M.Mörfi aparıcı məruzəçilər idilər.

1997-ci ilin başlanğıcında DF-nin idarəçilik orqanlarının strukturu tamamilə formalaşmışdı. Ümumi prəhbərlik prezident O.Harrison və idarə heyətinin sədri M.Qorbaçov tərəfindən həyata keçirilirdi. İdarə heyətinin tərkibində 17 həmsədr və 10 nəfərlik Şura vardır. Həmin rəhbər orqanların yanında 44 nəfərlik Beynəlxalq Koordinasiya Şurası və 16 nəfərlik San-Fransisko Şurası fəaliyyət göstərir. Təşkilatın operativ idarəçiliyi 14 nəfərlik direktorluq tərəfindən həyata keçirilir. DF-nin rəhbərliyində olan adamların ümumi sayı 100 nəfər təşkil edirdi. Bu rəqəm, görünür, M.Qorbaçov üçün mistik rəqəmdir, çünki o, hələ həmin

təşkilatın birinci konfransında 100 nfərdən ibarət Dünya beyin Tresti və ya "Müdriklər Şurası" yaradılmasının zəruriliyi barədə danışırdı.

Beləliklə, dünya gizlinləri və M.Qorbaçov tərəfindən formalaşdırılan "Müdriklər Şurası"na kimlər daxil oldu? M.Qorbaçovlə birlikdə həmsədrlikdə Beynəlxalq Məsələlər üzrə Şuranın üzvü, ABŞ-ın sabiq dövlət katibi C.Beyker və M.Edelman, Bilderberq klubunun üzvü, Niderlandın sabiq baş naziri R.Lübbers, Üçtərəfli Komissiyanın üzvü, Yaponiyanın sabiq baş naziri Y.Nakasone, İsrail baş nazirinin dul arvadı L.Rabin, ərəb lideri Ənvər Sədatın dul arvadı C.Sədat, kosmopolit informasiya sisteminin dünya nəhənglərindən biri, dünya labirintinin bütün mümkün strukturlarının üzvü T.Terner təmsil olundular.



Direktorluğu tərkibinə, yuxrada xatırladılan Beynəlxalq Münasibətlər üzrə şura üzvləri P.Harrison və A.Vossbrinkdən başqa S.Donovan (Esalem İnstitutunun prezidenti, "Yeni əsr"), D.O.Neyl (rəhbərliyi yeniləşdirmə mərkəzinin prezidenti), T.Robin ("Fokus media" informasiya şirkətinin prezidenti), B.Sedlix ("Reyçem" şirkətinin prezidenti) daxil oldular.

DF-nin sədrləri yanındakı şuraya dünya gizlinlərinin Beynəlxalq Münasibətlər üzrə şuranın üzvləri kimi məşhur xadimləri daxildirlər: 1988-1994-cü illərdə ABŞ senatındakı əksəriyyətin sabiq rəhbəri D.Mitçell və sabiq seneator (1969-1993) A.Krenston, Amerika Elmlər Akademiyasının prezidenti B.Alberte, futuroloq və yazıçı

O.Neysbitt. Beynəlxalq Koordinasiya Şurasında Beynəlxalq Münasibətlər üzrə Şuranın üzvləri fərqləndirilirlər: L.Braun ("Vold Votç İnstitut"un prezidenti), F.Master (Qorbaçev Fondunun Niderland filialının sədri), S.Raynsmit ("Raynsmit and assoşirtye" firmasının prezidenti), A.Villar ("Letin Amerikan biznes reporte" jurnalının direktoru), V.Veeç ("Vorld taym" jurnalının baş redaktoru).

Beləliklə, Qorbaçov DF-nin "Müdriklər Şurası"nın müdrikləri başlıca olaraq, dünya gizlinlərinin nümayəndələri və ilk növbədə də Beynəlxalq Münasibətlər üzrə Şura üzvləridir ki, bu da həmin təşkilatın mondialistik xarakteri və vəzifələri barədə məsələdə heç bir şübhə yeri saxlamır. Bunu həmçinin DF-nin sponsorlarının tərkibi də təsdiq edir, onların tərkibinə Rokfeller Fondu, Karnegi Fondu, Qlobal Cəmiyyət Fondu, Natana Kamminqs Fondu, "Si-en-en" teleşirkəti kimi, qlobal mason strukturları, eləcə də rəhbərləri dünya gizlinlərinin tərkibinə daxil olun aşağıdakı şirkətlər daxildir: "Şevron", "Conson and Conson", "Pakkard", "Prodiqi", "Oksidental petrolium", "Britiş eyrveys" və i.

Dünya gizlinlərinin dörd əsas təşkilatı xadimlərinin ymumi sayı təxminən 6 min nəfərdən az deyildir. Bunlar Beynəlxalq Münasibətlər üzrə Şuranın, Üçtərəfli Komissiyasının, Bilderberq klubunun və DF-nin üzləridir.

Lakin bütün bu adamların hamısını dünya hökumətinə aid etmək yanlışlıq olardı. Bizim tədqiqatlar göstərir ki, belə adamların sayı 6 min nəfər

arasında 500-dən çox deyil. Bu adamlar yuxarıda sadalanan təşkilatların rəhbərliyini təşkil edir, beynəlxalq siyasət, iqtisadiyyat və mədəniyyət məsələləri üzrə qlobal qərarlar qəbul etmək üçün nəhəng hakimiyyətə malikdirlər.

Qalan 5500 nəfər iki mühüm funksiyanı həyata keçirir: **birincisi,** dünya hökuməti nəzdində özünəməxsus Şura; **ikincisi**, gizli hakimiyyətin infrastrukturu və bəşər həyatının bütün sferalarında gizlin dünya hökumətinin nüfuzu hesab olunurlar. Əlbəttə, nüfuzlu dünya gizlinləri agentlərinin dairəsi hədsiz genişdir. O təkcə baş mondualist təşkilatlar üzvlərinin özlərini deyil, həm də dünya gizlinləri xadimlərinin yaratdıqları və nəzarət etdikləri çoxlu digər strukturları da əhatə edir ("Bnay-Brit" kimi gizli yəhudi təşkilatlarını nəzərə almırıq). Dünyada belə təsir (nüfuz) agentlikləri - on minlərlədir. Təkcə ABŞ-da dünya gizlinlərinə yaxın olan təşkilatların sayı bir neçə onluqla hesablanır. Onların arasında aşağıdakılar xüsusilə diqqəti çəkir: Karnegi Fondu, Rokfeller Fondu, Bruklin İnstitutu, Kissincer Assosiasiyası, Asiya Fondu, Aspen İnstitutu, Beynəlxalq Siyasət Mərkəzi, Milli Siyasət Mərkəzi, Beynəlxalq Siyasi İnkişaf Mərkəzi, Xarici Siyasət Assosiasiyası, Xaqson İnstitutu, Amerika Milli İnstitutu, Amerika Sahibkarlar İnstitutu, Beynəlxalq İnkişaf Şurası.

Dünya gizlinləri SSRİ-də yəhudi bolşeviklərinin kəşf etdiklərinə nisbətən daha effektiv və çevik olan özünəməxsus hakimiyyət nomenklaturası ya-

ratmışdır. Dünya gizlinləri təşkilatlarından birinin tərkibinə düşən adam bütün həyatı boyu özünə yüksək siyasi və ya işgüzar karyera təmin edir. Şəraitdən asılı olaraq, o, bank direktoru kürsüsündən şirkət və ya xüsusi fond prezidenti kürsüsünə oturur. Onu parlament seçkilərində müdafiə edirlər. O, həmkarlar ittifaqının rəhbərinə, yaxud curnal və ya teleşirkətin başçısına çevrilir. Məsələn, Beynəlxalq Münasibətlər üzrə Şuranın üzvü, Harvard Universitetinin direktoru L.Brenskomb sonra "Mobil oyl" şirkətinin direktoru kürsüsündə oturur, müəyyən zamandan sonra yüksək hökumət postunu tutur. O.Kirklend Beynəlxalq münasibətlər üzrə Şura direktoru postundan AFT-KPP həmkarlar ittifaqları Birliyinin prezidenti kürsüsünə oturdulur. Həm də, bir çox hallarda dünya gizlinləri təşkilatlarının rəhbərləri öz postlarını siyasətdə və ya biznesdə yüksək vəzifələrlə qoşalaşdırırlar. Məsələn, O.Bruk - Beynəlxalq Münasibətlər üzrə Şura direktoru olmaqla yanaşı, İBU şirkətinin direktorudur.

Dünya gizlinlərinin ən nüfuzlu xadimləri o şəxslər hesab edilirlər ki, onlar eyni zamanda onun üç əsas təşkilatının - Beynəlxalq Münasibətlər üzrə Şura (BMŞ), Bilderberq Klubu (BK) və Üçtərəfli Komissiya ÜK) tərkibində olurlar. belə adamlar cəmi 23 nəfərdir. Onların arasında D.Rokfeller, H.Kissincer, Z.Bjezinski, B.Klinton, D.Koriqon, Lord Vinson, P.Maknamara kimi şəxsiyyətlər var. Dünya gizlinlərinin təxminən 150 üzvü eyni zamanda iki təşkilatın tərkibindədirlər. Onların

arasında məsələn, məşhur C.Soros (BK və BMŞ-nin üzvü), eləcə də Qərbdə ən məşhur "Si-en-en" şirkətinin prezidenti V.Conson (BMŞ və ÜK-nın üzvü) kimi adamlar var.

Dünya gizlinləri təşkilatlarının üzvləri beynəlxalq təşkilatların rəhbər tərkibinə seçim üzrə əsas nomenklatur ehtiyat hesab edilirlər. BMT-dəki ABŞ və Qərb ölkələrinin yüksəkçinli nümayəndələrinin hamısı dünya gizlinlərinə aiddirlər. BMT Baş Katibliyində dünya gizlinlərinin özünəməxsus komissarı Baş Katibin müavini statusunda heç olmazsa, Beynəlxalq Münasibətlər üzrə Şura üzvlərindən biri olur (1990-cı ilin ortalarına qədər belə şəxs D.Tornburq olmuşdur).

Dünya gizlinlərinin yüksəkçinli üzvləri Ticarət və Trif üzrə beynəlxalq təşkilatda (TTBT, P.Suterlend, BK və ÜK-nın üzvü), Ümumdünya Bankına (D.Volfenson, BK və BMŞ üzvü), Beynəlxalq Valyuta Fonduna, Avropa Yenidənqurma və İnkişaf Bankına başçılıq edirlər. Beynəlxalq Haaqa Məhkəməsi, Nobel Komitəsi onların nəzarəti altındadır. Sülhməramlı fəaliyyət adı altında Yuqoslaviyanın dağılması ilə BMT Komissiyasının rəhbəri, Bilderberq Klubunun və Üçtərəfli Komissiyanın üzvü T.Stoltenberq məşğul olmuşdur.

Keçmiş sosialist ölkələrindən dünya gizlinləri əsas təşkilatlarının üzvləri Polşa xarici işlər naziri A.Olexovski (BK-nın üzvü) və sabiq SSRİ prezidenti M.Qorbaçov (ÜK-nın üzvü) olmuşlar. lakin sonuncunun bu təşkilatda üzvlüyü nisbətən uzun

davam etməmişdir. Dünya gizlinləri onu vətənə xəyanətə təhrik edərək, satqına inamsızlıq göstərmişlər. Qorbaçovun mondualist strukturlarda (başlıca rol ona mənsub Dünya Forumundan başqa) hazırkı iştirakı məsləhətçi (məlumatverən) funksiyası daşıyır. Belə rolu SSRİ-nin dağılması üzrə Qorbaçovun silahdaşları E.Şevardnadze, A.Yakovlev, Q.Popov, A.Sobçak, G.Burbilis və digər onlara oxşar xadimlər də yerinə yetirirlər.

Lakin onalrın zamanı ötmüşdür. Bu gün mondualist təşkilatların fəaliyyətində Qərb təsirli agentliklərin yeni dəstəsi xüsusi rol oyanır. Onların sırasına ilk növbədə ikili - Rusiya-İsrail vətəndaşlığı olan adamlar daxildir. Yaxın zamanlara qədər belə statusa Yeltsin kriminal-kosmopolit hökumətinin bütün aparıcı fiqurları - keçmiş baş nazir V.Çernomırdin, baş nazirin müavinləri Çubays, Nemtsov, Urinson; nazirlər Yasin, Livşits, Berezovski, eləcə də Rusiya Ağ evinin bir çox digər yüksəkçinli məmurları malik idilər.

# NƏTİCƏ ƏVƏZİ

Masonluq gizli fəaliyyət göstərən ən böyük və güclü beynəlxalq təşkilatdır. Son məqsədi cəmiyyətin və ayrı-ayrı fərdlərin mənəvi və zehni inkişafına, insanların şüuruna təsir göstərib, millətlər və dinlər arasındakı fərqi silmək, dünyanı bir qanun, bir hakimiyyətlə idarə etməkdən, Ümumdünya Mason dövləti yaratmaqdan ibarətdir.

- Mason lojaları dünya üzrə, ayrı-ayrı ölkələrdə fəaliyyət göstərməsinə baxmayaraq, vahid mərkəzi təmsil edirlər. İngilis masonluğu ilə Fransız, Şotland, Amerikan masonluğu arasında məzmun fərqi yoxdur. Son məqsəd birdir. Ancaq formaca, rituallara görə fərq ola bilər.

- Yuxarı dərəcəli mason lojalarında masonluğa qəbul mərasimlərində mistik rituallara çox əməl edilir. Masonluğa yeni qəbul olunanın barmağını çərtib, qanını şərab dolu qədəhə axıdıb, növbə ilə içirlər və qalığını xüsusi qabda saxlayıb, növbəti qəbul mərasimində istifadə edirlər. Əvvəl qəbul edilmiş masonun qanı yeni qəbul edilmiş masonların qanına qarışır və qardaşlaşma gedir. Bu barədə alman masonu Mersdof mason jurnalı "Bauksite"də (1879, s.13) məlumat verir.

- Masonlar özlərini elitaya, qeyri masonları kütlə və profana aid edirlər. Əslində, aşağı dərəcəli masonlar yuxarı dərəcəli masonlara nisbətən kütlə və profan vəziyyətindədir. Ona görə ki, masonların 90%-i yuxarı masonluqdan xəbərsizdir. Ən yuxarı dərəcəli masonlar Lyusiferə (Allaha müxalif Şeytan) sitayiş edib, özlərini aldadırlar. Beləliklə, masonluq sonsuz aldatma və yalanla idarə olunur.

- Masonluğun piramidasının lap yuxarısında beynəlmiləl masonluq durur ki, onun da məxfiliyinə gedən yol bağlıdır.

Ona görə, masonluğu Sfinkslə müqayisə edirlər. Sfinksin yarısı yerin altında, yarısı yerin üstündə olur.

- Mason simvolları və ritualları yəhudi mənşəlidir. Mason Lui Blan 1789-cu bu barədə belə yazır: **"Hər bir mason lojasında lojaya rəhbərlik edən Böyük Ustadın oturduğu stulun üzərində yəhudi hərfləri ilə "İeqovo" sözü yazılıb"**. O da məlumdur ki, Şotland frank-masonlar yəhudi allahı "İeqova"-ya sitayiş edirlər və hesab edirlər ki, "İeqova" onları xristian dininin tələblərindən azad edər. Masonluqda tətbiq edilən digər simvollar və rituallar da yəhudi mənşəlidir.

- Müasir masonluq o qədər güclüdür ki, öz işini cəmiyyətdən gizlətmir və açıq fəaliyyət göstərir. Lakin bu o demək deyil ki, masonluq gizli, məxfi cəhətlərini cəmiyyətə aşkarlayır. Masonluğun gizli fəaliyyətinə bələd olmaq qeyri-mümkündür.

Rus masonu **M.Y.Vielqorski** 1818-ci ildə belə deyib: "**Masonluq haqqında çox şey bilmək olar, ancaq masonluğun özünü bilmək mümkün deyil.**"

- Masonluq yarandığı vaxtdan dini və monarxiyanı düşmən sayıb və ona qarşı mübarizə aparıb. Mason mərasimlərində iki nəfər, biri Fransa kralının tacını, o biri Papanın papağını başlarına qoyurlar. Onların hər ikisinin başının kəsilməsi (rəmzi mənada) onlara qarşı mübarizəni və masonların qələbəsini əks etdirir. Sonra Böyük Ustad əvvəlcə diktatura rəmzi kimi, Kralın tacını, sonra vicdan azadlığını zorlayan rəmz kimi, Papanın papağını tapdalayır. Masonların bərabərlik ideyası monarxiyanı rədd edir.

- Masonluq öz məqsədinə çatmaq üçün müxtəlif leqal təşkilatlardan istifadə edir. Belə leqal təşkilatlara Üçtərəfli Komissiya "Bilderberq Klub", "Maqestrium", "Rotari inerneyşnl", "Vzaimodeystiviya", "Russkiy pen-senter" və s. klublar, fondlar, komissiyalar aiddir. Belə leqal mason təşkilatlarına üzv olanlar mason qardaşlardan az fərqlənirlər. Onlar mason lojalarında rituallara əməl etmirlər və and içib, masonluğa qəbul olunmurlar. Lakin mason siyasətinin həyata keçirilməsində mason qardaşlarına kömək edirlər.

- Masonluq insanlığa düşmən kəsildiyi üçün tarix boyu təqib olunub. Təkcə 1933-45-ci illərdə Avropada 85 min mason güllələnib, 100 mindən çoxu sürgün edilib. 1922-ci ikdə mason SSRİ-də qanundan kənar hesab edilib. XVII, XIII və XIX əsr-

lərdə İngiltərədə, Fransada, İspaniyada və s. ölkələrdə masonluğa qarşı amansız mübarizə aparılıb.

- Masonluq dərəcələri artdıqca, ona müvafiq olaraq məxfilik də artır. Yuxarı dərəcəli masonluqda məxfilik o, qədər güclüdür ki, ora ancaq giriş yolu var, çıxış yolu ölümdən keçir.

- Masonluğa yeni qəbul edilən şəxs mason lojasında özünü təkmilləşdirmək sahəsində xüsusi təlim keçir. Təlim nəticəsində masonun yerişi, danışığı və s. hərəkətləri dəyişir. **B.Oleynik "Zülmət sultanı" kitabında** yazır: **"Y.Afanasyev (keçmiş partiya funksioneri) hər dəfə Parisə gedib, gələndən sonra onun yerişi, danışığı,ədası dəyişirdi."** Deməli, Y.Afanasev Parisdə "Böyük Şərq" lojasında mason təlimi keçirmiş. Mason nə qədər sakit, aşağı tonda danışırsa, onun mason dərəcəsi bir o qədər yüksək olur. **(E.Skobelev. "Şahid" romanı).**

- Masonlar mason dərəcələrinə uyğunluqlarından asılı olmayaraq, xüsusi işarələrlə bir-birini tanıyırlar. B.Napoleon: **"Orduda frank-masonluq çoxluq təşkil edir. Onlar harada olmalarından asılı olmayaraq, bir-birilərini xüsusi işarələrlə tanıyırlar."**

- Masonun lojada qəbul zamanı içdiyi and, vətən qarşısında içdiyi hərbi anddan üstündür. 1812-ci ildə Fransa Rusiya ilə müharibə apardığı zaman fransız masonları rus masonları ilə qardaşlaşma münasibətində idilər. Bu barədə L.N.Tolstoyun "Hərb və sülh" romannda yazılıb.

- Masonluğa qəbul mərasimlərində ezoterik, mistik rituallar həyata keçirilir. Belə ritualların tət-

biqi masonluğa qəbul olunan şəxsə güclü psixoloji təsir göstərir və onda xof yaradır, namizədin masonluqla bağlılığını möhkəmləndirir.

- Masonluq insanlığa ziyanlı fəaliyyətinə görə (əsrlərlə hakimiyyət dayaqlarına və dini dəyərlərə qarşı mübarizə aparıb, ixtişaşlar, inqilablar törədib), tarix boyu təqib olunub. XVIII-XIX əsrlərdə İngiltərədə, Fransada, Rusiyada, XX əsdə Avropada, o cümlədən, Almaniyada, İtaliyada, Portuqaliyada Hitler, Mussolini, Franko, Salasar tərəfindən qadağan və təqib olunub. Rusiyada 1792-ci ildə II Yekaterina, 1822-ci ildə II Aleksandr və 1826-cı ildə I Nikolay tərəfindən masonluq qadağan olunub. 1922-ci ildə SSRİ-də qadağan olunub. Bütün bunlara baxmayaraq, masonluq müasir şəraitdə dünya siyasətində aparıcı rol oynayır.



- Iki min ildən çoxdur ki, yəhudilər dünyanın bütün ölkələrinə səpələnib yaşayırlar. Bu müddət ərzində yəhudilərin torpağı, vətəni və hökuməti olmayıb. Vətəni, hökuməti olmayan xalq millət ola bilməz. Yəhudiləri idarə edən, birlik yaradan qüvvə - Kaqal gizli fəaliyyət göstərir, yığcam yaşayan yəhudiləri dini əsaslarla idarə edir. Bundan başqa, Ümumdünya Yəhudi İttifaqı dünya yəhudilərini birləşdirir. Ümumdünya Yəhudi İttifaqının mərkəzi Parisdə yerləşir. Beləliklə, bir yəhudi ailəsi nəzarətdən kənarda qalmır. Üstəlik, sionizm yəhudiləri bir yerə, İsrailə toplamaq sahəsində iş aparır. Bütün bunlara görə, harada yaşamasından asılı olmayaraq, yəhudiliyi qoruyub saxlayırlar.

## MASON LÜĞƏTİ

**Aqapa** - mason lojasında iclasdan sonra mason qardaşların şam yeməyi.

**Adam** - qədim yəhudi sözü "Aadamax"dan əmələ gəlib, torpaq deməkdir. Masonlar onu ordenin yaradıcılarından biri hesab edirlər.

**Ad vitam** - Latın sözüdür, əbədi deməkdir. Ustad Ad Vitam - 20 dərəcəli masondur.

**Adept** - Mason lojasının üzvü, mason qardaş. Mason ritualını keçmiş, mason sirlərinə bələd olan qardaş.

**Akkolada** - Masonluğa qəbul zamanı qılıncla masonun çiyninə və başına toxunmaq.

**İttifaq aktı** - 1813-il də üç lojanın birləşib, İngiltərə Böyük Lojasının yaradılması.

**Alleqoriya** - analogiya və müqayisə. Yunan sözüdür, "başqa cür demək" mənasında.

**Ambulator icazə** - hərbi mason lojalarına verilir ki, onlar həmin sənədə əsasən istədikləri yerdə mason lojasının iclasını keçirə bilsinlər.

**Altar** - düzbucaqlı hündür yer. Lojanın içində qoyulur. Üstündə " Böyük Lojanın " konstitutsiyası, daxili reqlament, müqəddəs qanun kitabı qoyulur.

**Amerikan nizamnaməsi** - Amerika mason sistemi. Lojadan, Kapituldan, Komandorluqdan ibarətdir. York Nizamnaməsinin bir variantı.

**Amin** - qədim yəhudi sözüdür. Dəqiq, həqiqi, düz mənasını verir. Mason ritualına görə, "amin" sözünə "qoy belə olsun" cavabı verilir.

**Anamnez** - Platon fəlsəfəsinin terminidir. Mənası keçmiş həyatın ruhlarını yada salmaqdır.

**Anket** - Masonluğa qəbul zamanı doldurulan sənəddir." Böyük Lojanın" katibliyinə təqdim edilir. Bu sənəddə namizədin fəlsəfi, dini və mənəvi baxışları əks etdirilir.

**"Androqinni"** - yunan sözüdür, "Kişi və qadın" deməkdir. Bəzi simvolik lojalara kişilərlə yanaşı qadınları da qəbul edirlər.

**Apokaliptik dərəcə** - "Akopalipsis" yunanca aşkarlıq deməkdir.

**Aeropaq** - 30 dərəcəli masonların iclası.



**Lojanın arxivi** - mason lojasının protokolları və digər sənədləri saxlanan yer.

**Assambleya** - "Böyük Lojanın" bütün üzvlərinin illik iclasına deyilir. Bu iclasda Böyük Ustad, Böyük Natiq, Böyük Katibin hesabatı müzakirə olunur, illik işə yekun vurulur və yeni il üçün iş planı təsdiq edilir.

**Aspirant** - Latın sözüdür, axtarmaq deməkdir. Masonluğa qəbul üçün seçilən namizədə deyilir.

**Ballatirovka** - Gizli səsvermə yolu ilə vacib məsələlərə dair qərarların qəbulu. Yeni üzvlərin, ustad dərcələrin və s. vəzifələrin seçilməsi.

**Balderik** - Mason lojası çiyindən asılır.

**Batareya** - Masonların şamında dolu şərab şüşələri və qədəhlərə deyilir.

**Kəllə sümüyü** - ölüm rəmzidir. Masonluğa qəbul mərasimində namizədə təsir göstərmək üçün istifadə edilir.

**Qardaşlıq zənciri** - ən qədim mason ritualıdır. Lojanın işinin açılışı və bağlanması zamanı masonlar dairəyə durub, bir-birinin əlini tutub, ümumdünya qardaşlıq və dostluq rəmzini əks etdirirlər.

**Qardaşlıq öpüşü** - üç dəfə çarpaz öpüşüb, qarşılıqlı inama və yardıma hazır olduqlarını əks etdirirlər.

**Böyük Loja** - ərazi üzrə mason təşkilatı. Bütün lojalar və masonlar ona tabedir. Ölkədə ancaq bir Böyük Loja ola bilər. Böyük Lojaya Böyük Ustad rəhbərlik edir. Böyük Lojanın qərarı həmin ərazidə olan bütün masonlar üçün məcburidir.

**Kainatın Ulu Memarı** - Mason anlayışında yeganə yaradıcı Allahdır. Qədim landmarka və konstitusiyaya görə, lojada aparılan bütün işlər Kainatın Ulu Memarının şərəfinə aparılır.

**Böyük Şərq** - Böyük Lojanın toplaşdığı iş yeri. Orada sərəncamlar qəbul edilir və hər tərəfə göndərilir.

**Böyük Ustad** - Böyük Lojanın rəhbəri. Böyük Lojanın fəaliyyət göstərdiyi ərazidə yeganə hakimiyyət sahibidir. Üç il müddətinə Ümumi Assambleyada seçilir. Son həlledici iş onun səlahiyyətidir. Hətta masonluğa qəbul qaydalarına əməl etmədən lojaya üzv qəbul edir. Böyük Lojanı beynəlxalq mason tədbirlərində təmsil edir.

**Inam** - (masonluqda) Vahid Allaha (Kainatın Ulu Memarına) və əbədi həyata inam.

**Verviye** - Masonların təhlükədə olan qardaşlara kömək etmək məsafəsi. Qədimlərdə mason qardaşlara kömək məsafəsi üç mil idi, indi isə qırx milə yaxındır.

**Akasiya budağı** - ruhun ölməzlik simvolu. Ustadın dərəcəsinin rəmzi. Adoniram əfsanəsində əsas rol oynayır.

**Landmarka** - ordenin qədim və ümumi qanunları.

**Üzvlük haqları** - pul məbləğidir və hər namizəd masonluğa qəbul və mason dərəcələrini artıran zaman ödəyir. Loja qarşısında xidmətlərinə görə, Böyük Ustadın sərəncamı ilə mason üzvlük haqqından azad edilə bilər.

**Masonun yaşı** - Masonun mason dərəcələrində olduğu illərin sayıdır.

**Azad bənnalar** - qədim operativ masonlar. Həqiqi azad bəinaların hərəkətində heç bir məhdudiyyət olmayıb. Torpağa bağlı olmayıblar, bir yerdən başqa yerə köçməkdə azad olublar.

**Şərq** - Günəşə itaət edənlərin vaxtından və bəşəriyyət tarixində Şərq müqəddəs işıq mənbəyidir. Ona görə ki, Günəş şərqdə çıxır və həyata işıq verir.

**"Daimi Şərq"** - "daimi Şərqə getmək" - ölub, başqa dünyaya getmək deməkdir.

**Şərq oturacağı** - Böyük Ustadın oturduğu yer, çar Solomonun taxtının rəmzi.

**Hər şeyi görən göz** - emblemdir, bizə Allahın varlığını və hər şeyi görməsini xatırladır.

**Hermes** - yunanların ticarət allahı. Romalıların ticarət allahı Merkuridir. Allahlar göndərib.

**Gildiya** - Mason təşkilatlaının birliyi.

**Göy loja** - birinci üç dərəcəli və ya simvolik masonluğa deyilir. Göy rəng həqiqətin, xoş iradənin, ümumdünya qardaşlığın, sadiqliyin rəmzidir.

**Tabut** - Qədim mistik dövrdə masonluğa namizədi tabuta uzadıb, sonra çıxardırlar. Bu da ölünün dirilməsi rəmzidir.

**Kobud daş** - masonluq təlimini keçməmiş namizəd, şagirdliyə qədər.

**Dekret** - Böyük Ustadın fövqəladə sərəncamı, icrası bütün masonlar üçün məcburidir.

**Mason diplomu** - Masonluq dərəcəsi haqqında dünya mason təşkilatlarına təqdim etmək üçün sənəd. Həmçinin, masonlar xidmətlərinə görə, xüsusi diplomlarla təltif edilirlər.

**"Yağış (qar) yağır"** - masonların şərti ifadəsi. "Aramızda profan (qeyri-mason) var".

**Qədim xartiya** - qədim masonluğun konstitutsiyası, qanunları, qaydaları.

**Qədim misteriya** - misir, yunan və farsların gizli cəmiyyətləri.

**Vəsiyyət (fəlsəfi)** - masonluğa namizədin tərtib etdiyi sənəd. Bu sənəddə namizəd özünə, ailəsinə, ölkəsinə nə arzuladığı yazılır. Qəbul ritualı zamanı sənəd yandırılır ki, sirr qalsın.

**Yaylım** - mason şamında (aqapa) sağlıq demək (tost).

**Fartuk** - quzu dərisindən düzəldilmiş önlük. Qədim vaxtlardan fars, Misir, Hindistan və qədim yəhudi çarlığında ağ fartuk şərəf nişanəsi idi. O fikir saflığını və günahsızlığı əks etdirirdi.

**Öz quyruğunu dişləyən ilan** - sonsuzluq haqqında qədim simvol. Sonsuz həqiqət axtarışı simvolu.

**Ieqovo** - yəhudi allahının adı. Ravvinlər ona sitayiş edirlər.

**Inaqurasiya** - Böyük Lojanın Böyük Ustadının andiçmə mərasimi.

**Kadoş** - bir çox mason nizamnaməsində yüksək mason dərəcəsi. Qədim yəhudi dilində kadoş "müqəddəs" deməkdir.



**Düşüncə kamerası** - masonluğa namizəd şagirdliyə qəbuldan əvvəl qaranlıq otaqda saxlanılır. Otaq ölüm rəmzləri ilə doludur. Namizəd orada oturub vəsiyyətini yazır.

**Kapitul** - mason təşkilatlarına rəhbərlik edən orqan. Şotland nizamnaməsində 17-18-ci masonluq dərəcələri üçün.

**Açar** - sirr və onu qoruyanın rəmzi.

**And** - təntənəli sürətdə masonluğa qəbul zamanı andiçmə mərasimi.

**Ordenin kodeksi** - Böyük Lojanın qanun kitabları.

**Kollasiya** - mason lojasının iclasında qısa fasilə.

**Komandor** - orta yer masonluğunda yüksək vəzifə.

**Konvent** - beynəlxalq ümumi iclas. Bir çox ölkənin mason qardaşların mason fəaliyyətinə və strateji məsələlərə aid qərar qəbul edən iclas.

**Konsistoriya** - Şotland Nizamnaməsinin 19-32-ci dərəcəli masonlarının iclası.

**Kontumasiya** - Böyük Lojanın qərarına tabe olmaqdan imtina.

**Kədər lojası** - ölən mason qardaşla vida mərasimi keçirilir.

**Lüfton** - masonun oğlu və ya nəvəsi. Masonluğa qəbul zamanı üstünlüyə malikdirlər.

**Moratoriy** - mason işlərinin müvəqqəti qadağan edilməsi.

**Müdriklik, güc, gözəllik** - mason məbədinin üç dayağı (sütunu).

**Neofit** - yeni qəbul edilmiş mason.

**Okkult masonluq** - fəlsəfi düşüncəli mason dərəcəsi. Çoxları üçün çətin başa düşülür.

**Qartal** - masonluğun əsas simvollarından biridir. Yeganə canlı varlıqdır ki, gözünü qırpmadan Günəşə baxa bilir. Ikibaşlı qartal Şotland Nizamnaməsinin rəsmi simvoludur.

**Günorta** - mason lojalarında iş başlanan vaxt.

**Gecəyarı** - lojalarda işin sona çatması vaxtı.

**Agentin yerişi** - müəyyən dərəcəli masonun lojaya girişi zamanı yerişindən dərəcəsi bilinir.

**Privratnik** - lojanın qapısını qoruyan zabit.

**Profan** - qeyri-mason. Mason təlimi keçməyən adam.

**Toxunma** - əsas tanınma işarəsi. Onun vasitəsi ilə ordenə mənsubluq və mason dərəcəsini müəyyən etmək olur. Əl tutmağın xüsusi formasından ibarətdir.

**Mason çəkici** - mason çəkici dünya hakimiyyətinin simvoludur. Mason lojasında rituallar zamanı Böyük Ustad tərəfindən istifadə olunur. C.Vaşington mason libasında, əlində çəkic şəkli var.

**lojanın mozaik döşəməsi** - lojanın döşəməsi şahmat formasında, ağ və qara xanalardan ibarətdir. Ağ xana gündüzün, işığın, qara xana gecənin, qaranlığın rəmzidir.

**Masonların tanınma üsulu** - Masonların ordenə məxsusluğunu qapıya nəzarətçi və mərasim rəisi lojaya daxil olarkən yoxlayırlar. Yoxlama zamanı masonluq haqqında bilik, tanınma işarələri, masonun yerişi, şərti əl tutmaq və keçid parolu yoxlanılır. Bunlardan başqa masonun tarixi və fəlsəfi biliyi də yoxlanıla bilər.

**Masonun istefası** - masonun könüllü müddətsiz mason məzuniyyətinə getməsi nəzərdə tutulur. Bu müddət ərzində üzvlük haqqından azad olunur.

**Mason parolu** - mason ritualının tərkib hissəsidir. Hər mason dərəcəsinin öz parolu var. Bəzən parolu lojaya giriş zamanı istifadə edirlər. Bu ritual Solomon məbədinin tikintisinə rəhbərlik edən Adoniramdan davam edir. Adoniram məbəd tikintisində işləyənləri dərəcələrə bölüb, onlara uyğun parol verib.

# SON SÖZ YERİNƏ

Masonluq mistik və okultizm əsaslar üzərində yaranıb, fəaliyyət göstərir.

Masonluğun fəaliyyəti insanlığa qarşı yönəlib və cəmiyyəti haqq yolundan sapdırıb, uçuruma aparır.

Müasir şəraitdə dünyada gedən proseslər, Amerikanın dünya hegemonluğu, dünyada aparılan qlobal siyasət, bu siyasətə xidmət edən qurumlar, Davos İqtisadi Forumu, Bilderberq klubu, Dünya Forumu, ümumdünya maliyyə qurumları, Avropa Şurasının Avropa standartlarına çağırışı, NATO-nun Şərqə doğru genişlənməsi dünyanı tək başına idarə etmək siyasətindən irəli gəlir. Dünyada baş verən hadisələrin və aparılan siyasətin işarəsi mason mətbəxində hazırlanıb, həyata keçirilir.

Təkrar da olsa, Amerika prezidenti Ruzveltin aşağıdakı sözlərini yada salmaq lazım gəlir:

**"Siyasətdə heç nə təsadüfən baş vermir. Əgər bir iş baş verirsə, deməli, belə nəzərdə tutulub".**

İkinci dünya müharibəsindən sonra dünya üzrə əhalinin sayı sürətlə artmağa başlayır. Yer kürəsində əhalinin sürətlə artması dünyanı bir hakimiyyət və bir qanunla idarə etmək istəyən Beynəlxalq masonluğu ciddi narahat etməyə başlayır.

V.Küper yazır: "**Alimlər bu qənaətə gəliblər ki, əhalinin belə sürətlə artımının qarşısı alınmasa, 2000-ci ilə bəşəriyyət məhv ola bilər**".

Dünya hegemonluğu iddiasında olan hakim dairələr Roma və İsveçrədə yerləşən Bilderberq klublarına dünyanın kompüter modelini hazırlamaq tapşırığını verirlər.

Eyni zamanda Roma klubuna yeni dünya düzəninin (qaydalarının) hazırlanması tapşırığı da verilir.

Müəyyən edilir ki, problemin həlli üçün dərhal xüsusi proqram hazırlanmalı və ciddi nəzarət altında həyata keçirilməlidir. Hazırlanmış proqramın iki istiqamətdə həyata keçirilməsi nəzərdə tutulur.

**Birinci istiqamət** - doğumun azaldılması, **ikinci istiqamət** - ölümün artırılmasını nəzərdə tutur.



Doğumun azaldılması məqsədilə bir neçə vasitədən istifadə edilməsinə başlanılır.

Bu vasitələrdən aborta icazə verilməsi, hamiləliyin qarşısını almaq üçün mexaniki və kimyəvi üsuldan istifadə edilməsi, hemoseksualizmin leqallaşdırılması, eyni cinsdən olanların nigahına qanunla icazə verilməsi və s. proqramda xüsusi yer tutur. Hemoseksualistlərin müdafiəsi "mavilər" hərəkatının yaranmasına gətirib çıxartdı. Axı hemoseksualistin heç vaxt uşağı olmur.

Planetdə əhali artımının qarşısını almağın ikinci yolu ölümün artırılmasına aid proqramdır.

Bu sahədə Bilderberq və Roma klubları ilə yanaşı, Henri Kissincerin təklifi əsasında Amerika Dövlət Departamentində xüsusi bölmə yaradılır.

Həmin bölmə 2000-ci ilə olan proqnozu (əhalinin artımı haqqında) hazırlayıb, Amerika prezidenti Karterə təqdim edir. Həmin hesabatda göstərilir ki, əgər əhali artımı nizamlanmasa və indiki, sürətlə davam edərsə, həyat üçün təhlükə yarana bilər. Hazırlanmış proqramda müharibə, aclıq, epidemiya və s. vasitələrlə Yer kürəsində əhalinin sayını bir milyarda qədər azaltmaq nəzərdə tutulur.

Amerika Dövlət Departamentinin əhalinin işi üzrə şöbənin müdiri Tomas Feryuçston aşağıdakı bəyanatla çıxış edib: "**Bizim işimizin bir mövzusu vardır. Biz gərək əhalinin sayını azaldaq. Ya gərək onlar biz deyəni edib, təmiz metodlarla əhalinin sayını azaltsınlar, ya da onların da Salvadorda, Vyetnamda, Koreyada, Beyrutda və s. ölkələrdə baş verən xoşagəlməz hallar gözləyir.**

**Əhalinin sayı siyasi problemdir. Əgər əhalinin sayı nəzarətdən çıxarsa, onda avtoritar hakimiyyət, hətta faşizm qurmaq lazımdır ki, əhalinin sayı azalsın".**

XX əsrin ikinci yarısında baş verən hadisələr, Kamboca, Vyetnam, Salvador, Bosniya, Əfqanıstan, İraq və s. ölkələrin bombalanıb, işğal edilməsi, SSRİ-nin dağıdılması yüz minlərlə günahsız adamların öldürülməsi, milyonlarla adamların qaçqın düşməsi, iqtisadiyyatın iflasa uğraması, dünya maliyyə qurumlarının kreditlərinə ehtiyacın yaranması, aclıq və dilənçiliyin artması, milli münaqişə və ərazi işğalı, kənd təsərrüfatının dağıdılması, işsizlik ordusunun yaranması, narkomanlı-

ğın və pozğunluğun geniş yayılması, ayrı-ayrı dinlərə qarşı mübarizə dünyanı təkbaşına idarə etmək iddiasında olanların həyata keçirdikləri siyasətlə əlaqədardır.

**N.Boqomolov "XX əsrin gizli cəmiyyətləri" kitabında yazır ki**, QİÇS xəstəliyini törədən viruslar Amerika laboratoriyalarında yaradılıb və ilk dəfə Afrika qaradərililərə tətbiq edilib. Çox qısa bir vaxtda bütün dünyaya yayılıb, milyonlarla adamların ölümünə səbəb olur.

N.Boqomolovun həmin kitabda yazdığına görə, Amerika laboratoriyalarında bir çox yolxucu xəstəliklərin virusları yaradılıb, Afrika qaradərilililərə, ispandilli xalqlara, hemoseksualistlərə tətbiq edilir.

Dünyada heç bir hadisə özbaşına və təsadüfən baş vermir.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYATLAR


Harun Yəhya. Yəhudilik və masonluq, İstanbul, 1990.

Zamayski L.T. Mason məbədinin arxasında. M., 1990.

Duqlas Pid. Sion haqqında mubahisə. M., 1991.

E.Skobelev. "Şahid" romanı. M., 1989.

B.Oleynik. Zülmət sultanı. M., 1993.

Q.Klimov. Qırmızı müdriklərin protokolu. M., 1993.

O.Platonov. Rusiyanın alaq çələngi. M., 2001.

V.Başilov. Müasir masonluq.

S.P.Melqunov. Msaonluğun tarixi. "Rusiq", 2003.

İnternet.sayt. Sion müdriklərinin protokolu.

Müxtəlif qəzet materialları.

N. Berberova. "Adamlar və lojalar".

# MÜNDƏRİCAT

Ön söz yerinə. S.Rüstəmxanlı.
Ziyalı narahatlığından doğan kitab.....................3
Masonluğun tarixi və mahiyyəti.........................7
Masonluğun sistemi haqqında.........................25
Mason arxivləri................................................62
Rusiyada masonluq.........................................67
Masonların vəzifələri.......................................97
Təsir agentləri...............................................109
Partiyanın qızılı.............................................119
Ukraynada masonluq....................................121
Amerikada masonluq....................................125
Yaxın Şərqdə masonluq................................135
İngiltərədə masonluq....................................138
Fransada masonluq.......................................140
İtaliyada masonluq........................................147
Türkiyədə masonluq......................................152
Azərbaycanda masonluq...............................159
Yezuitlərin Malta ordeni................................164

Masonluq və missionerlik..............................172
Masonlar beynəlxalq ictimai
rəyi necə yaradırlar.......................................178
Masonluq və beynəlxalq qurumlar.................186
Sion müdriklərinin protokolu.........................193
Masonluqda hərbi təbəqə..............................201
Masonluq və İllüminati.................................209
Masonluq və "Qlobal təhlükəsizlik
layihəsi" planı..............................................215
Nəticə əvəzi..................................................232
Mason lüğəti.................................................237
Son söz yerinə..............................................245
İstifadə olunan ədəbiyyatlar...........................249